www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 8 iyun 2018-ci il Cümə № 124 (7013) Qiymətı 60 qəpik

Xəbər

## Kadr dəyişikliyinin əsas səbəbi: dövlət aparatının sağlamlaşdırılması prosesi başlayıb

yazısı səh.7-də

Gündəm

## AŞ PA-dan Azərbaycana qarşı təzyiq dalğası



Yeni məruzəçi təyinatına qərar verildi; Nazirlər Komitəsi Avropa Məhkəməsinin qərarlarının icra vəziyyətini müzakirə edir

yazısı səh.5-də

## Erkən parlament seçkiləri haqda daha bir iddia

yazısı səh.7-də

*Eldar Namazov:*

## "Həm hakimiyyətdə, həm müxalifətdə nəsillərin dəyişməsi başlayıb"

yazısı səh.6-da

## Zaqataladakı zəlzələnin fəsadları - xırda təkanlar yenə davam edir

yazısı səh.3-də

## "Qazprom" Azərbaycanın enerji layihəsinə qarşı

yazısı səh.11-də

## Dünya yeni maliyyə böhranı astanasında: bizi nə gözləyir?

yazısı səh.12-də

## İtaliyada göldə boğulan azərbaycanlı tələbənin anası danışdı

yazısı səh.14-də

## İran nüvə fəaliyyətinə başladı, ABŞ hədələdi

yazısı səh.12-də

## Ölkəni şoka salan qətlin üzərində sirr pərdəsi qalır

yazısı səh.14-də

**Ramazan ayının 23-cü günü**

İftar 20.25 İmsak 03. 19-dək (QMI)

23-cü günün duası: "İlahi, bu gün mənim günahlarımı təmizləyib, çirkin və eyibli işlərdən pak et! Qəlbimi belə bir gündə qəlblərə aid olan təqva ilə imtahan et! Ey, günahkarların tövbəsini Qəbul Edən!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

# PAŞİNYAN ƏLİYEVİN SÖZÜNÜ TƏSDİQLƏDİ - BAKIDAN İRƏVANA UNİKAL FÜRSƏT

Erməni baş nazirdən yeni və acı etiraflar; **Azərbaycan prezidenti:** "Mənim illər ərzində dediyim sözləri indi erməni xalqı deyir..."




yazısı səh.8-də

# Azərbaycanlıları Rusiya bazarlarından çıxarırlar - bir topla iki hədəf

OMON-un iri bazar və ticarət obyektlərində miqrantlara qarşı əməliyyatı DÇ-2018-lə əlaqələndirilir, amma...

yazısı səh.3-də



*Arif Rəhimzadə:*

## "Rəsulzadəyə də abidə qoyulmalıdır, Elçibəyə də"

yazısı səh.4-də



## Ayaz Salayevdən İbrahimbəyovun "qorxaq" ittihamına sərt cavab

yazısı səh.9-da



## Fazil Məmmədovun "qanadlarını" aldılar

yazısı səh.10-da



# Prezident İlham Əliyev "Sahil" metro stansiyasının açılışında iştirak edib

**Prezident İlham Əliyev iyunun 7-də Bakı Metropoliteninin "Sahil" stansiyasının əsaslı təmir və yenidənqurmadan sonra açılışında iştirak edib.**

APA-nın məlumatına görə, "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin sədri Zaur Hüseynov "Sahil" stansiyasında aparılan əsaslı təmir və yenidənqurma işləri barədə dövlət başçısına ətraflı məlumat verib.

Qeyd olunub ki, bu stansiyada işlər təyin edilmiş müddətdən xeyli əvvəl yekunlaşdırılıb.

"Sahil" stansiyasında aparılan əsaslı təmir və yenidənqurma işləri ilə tanış olan prezident tapşırıq və tövsiyələrini verib.

# Tovuz rayonunun icra başçısı dəyişib

**Tofiq Zeynalov Tovuz Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilib.**

APA-nın məlumatına görə, bu barədə prezident İlham Əliyev sərəncam imzalayıb.

Dövlət başçısının digər sərəncamı ilə Məmməd Cahangir oğlu Məmmədov Tovuz Rayon İcra Hakimiyyətinin başçısı təyin edilib.

# "Eurovision" Qüdsdə keçirilməyəcək

**Avropa Yayım Birliyi (EBU) və "Eurovision" rəhbərliyi müsabiqənin gələn il Qüdsdə keçirilməsinə razılıq verməyib.**

"Qafqazinfo" xəbər verir ki, müğənni Nettanın "Toy" mahnısı ilə qalib olmasından sonra ev sahibi İsrailin yarışmanı Qüdsdə keçirmək istəyi etirazlara səbəb olub və "Eurovision" təşkilat komitəsi və EBU təklifi müzakirəyə çıxarıb.

Avropa Yayım Birliyi İsrailin bu təklifini rədd edərək "Eurovisin"un başqa şəhərdə keçirilməsinin tərəfdarı olduğunu bildirib. "Müsabiqənin siyasi mübarizədə olan şəhərdə keçirilməsi mümkün deyil", - deyə təşkilat komitəsi açıqlamasında qeyd edib.

Xatırladaq ki, "Netta, sən İsrailə böyük şöhrət gətirdin. Gələn il Qüdsdəyik!" - deyən İsrailin baş naziri Binyamin Netanyahu yarışmanın gələn il Qüdsdə keçiriləcəyinə vəd vermişdi.

# Bakıda taksi sürücüsü qətlə yetirilib

**Bakıda taksi sürücüsü qətlə yetirilib. APA-nın məlumatına görə, paytaxtın Nəsimi rayonunda Bakı şəhər sakini, 1981-ci il təvəllüdlü Hüseynov Rəşad Ədalət oğlu taksi kimi fəaliyyət göstərdiyi avtomobilində bıçaqlanaraq öldürülüb.**

Baş vermiş hadisə ilə bağlı əməliyyat-istintaq qrupu yaradılıb. Hadisənin kimin tərəfindən və hansı məqsədlə törədildiyi hələlik məlum deyil.

Faktla bağlı Nəsimi Rayon Prokurorluğunda cinayət işi başlanıb, istintaq gedir.

Hazırda hadisəni törədən şəxs və ya şəxslərin müəyyən edilərək tutulması istiqamətində istintaq əməliyyat-axtarış tədbirləri davam etdirilir.

# Xırdalan-Binəqədi yolunda nəqliyyatın hərəkəti məhdudlaşdırılacaq

**Xırdalan-Binəqədi-Balaxanı avtomobil yolunun Binəqədi və Xırdalan qəsəbələri arasında yerləşən müəyyən hissəsində nəqliyyat vasitələrinin hərəkəti məhdudlaşdırılacaq.**

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyindən "APA-Economics"ə verilən məlumata görə, hərəkətin məhdudlaşdırılması təmir işləri bitənədək qüvvədə olacaq.

"Bununla əlaqədar olaraq sürücülərdən öncədən hərəkət istiqamətlərinə uyğun olaraq alternativ yollardan istifadə etmələri tövsiyə olunur", - deyə məlumatda bildirilir.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

# "Boeing" İrana təyyarə satmaqdan imtina etdi

**Amerikanın ən böyük təyyarə istehsalçısı olan "Boeing" şirkəti İrana sərnişin təyyarələrinin satışı ilə bağlı Tehranla bağladığı müqaviləni ləğv edib.**




Virtualaz.org yerli KİV-ə istinadən bildirir ki, şirkət bununla bağlı bəyanat yayıb.

Bəyanatda bildirilir ki, Amerikanın İrana qarşı yeni sanksiyalar tətbiq etməsini nəzərə alaraq, belə bir qərar verilib: ""Boeing" şirkəti bu günə qədər İrana heç bir təyyarə təhvil verməyib və bundan sonra da verməyəcək".

Məsələ ilə bağlı jurnalistlərə açıqlama verən ABŞ maliyyə naziri Stiven Mnuçin bildirib ki, nüvə sazişinin imzalanmasından sonra İrana sərnişin və ticarət təyyarələrinin və onların ehtiyat hissələrinin satışı və xidməti üçün verilmiş lisenziya artıq ləğv edilib.

Qeyd edək ki, "Boeing" 2016-cı ildə İrana 17 milyard dollar dəyərində olan 80 sərnişin təyyarəsinin satışı üçün rəsmi Tehranla müqavilə bağlamışdı. İran həmçinin Avropanın ən böyük təyyarə istehsalçılarından olan, mərkəzi ofisi Fransanın Tuluz şəhərində olan "Airbus" şirkətinə 100, fransız-italyan ATR şirkətinə isə 20 ədəd təyyarə sifariş vermiş və bu barədə tərəflər arasında müqavilə imzalanmışdı. Lakin həmin şirkətlər də İrana təyyarə satmaq üçün əvvəlcə Amerika hökumətindən lisenziya almaq məcburiyyətində qalıblar.

Amerika prezidenti Donald Tramp mayın 8-də Ağ Evdə çıxış edərək Vaşinqtonun İranla imzalanmış nüvə sazişindən çıxdığını rəsmən elan edib.

# Zakir Həsənov NATO-nun toplantısına gedir

**İyunun 8-də Brüsseldə NATO-nun Əfqanıstandakı "Qətiyyətli dəstək" missiyasına töhfə verən dövlətlərin müdafiə nazirləri səviyyəsində toplantısı keçiriləcək.**

Virtualaz.org Müdafiə Nazirliyinin saytına istinadən bildirir ki, Azərbaycanı toplantıda müdafiə naziri, general-polkovnik Zakir Həsənov təmsil edəcək.

Toplantıda NATO-nun Əfqanıstandakı "Qətiyyətli dəstək" missiyasının gedişi və əməliyyat şəraitindəki dəyişikliklərlə bağlı müzakirələr aparılacaq.

# Nazir Fransaya silah-sursat aparır

**Müdafiə Sənayesi Nazirliyinin (MSN) müəssisələrində yaradılan və istehsal olunan müdafiə təyinatlı məmulatlar iyunun 11-dən 15-dək Fransanın Paris şəhərində keçiriləcək Beynəlxalq Müdafiə və Təhlükəsizlik Sərgisində - "EUROSATORY-2018"də nümayiş etdiriləcək.**

Müdafiə Sənayesi Nazirliyindən APA-ya verilən məlumata görə, bununla bağlı müdafiə sənayesi naziri Yavər Camalovun başçılıq etdiyi geniş tərkibli nümayəndə heyəti Fransada səfərdə olacaq.

Beş gün davam edəcək sərgidə ziyarətçilərə MSN-in müəssisələrində yaradılan və istehsal olunan 270 adda məmulat təqdim ediləcək.

"EUROSATORY-2018" sərgisində dünyanın 63 ölkəsindən 1700-dən artıq şirkətin iştirakı gözlənilir.

Səfər zamanı nazir Yavər Camalovun hərbi-texniki əməkdaşlıq çərçivəsində görüşləri də nəzərdə tutulur.



# MSK üzvlərinin maaşları artırıldı

**Mərkəzi Seçki Komissiyası (MSK) üzvlərinin aylıq vəzifə maaşları artırılıb. Prezident İlham Əliyev bununla bağlı "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası üzvlərinin vəzifə maaşlarının müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 22 yanvar tarixli 1893 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" sərəncam imzalayıb.**

Sərəncama əsasən, MSK sədrinin aylıq vəzifə maaşı 1855 manatdan 2040 manata, MSK sədrinin müavininin aylıq vəzifə maaşı 1720 manatdan 1895 manata, MSK katibinin aylıq vəzifə maaşı 1275 manatdan 1405 manata qaldırılıb. MSK üzvlərinin aylıq vəzifə maaşı isə 1280 manat olub. İndiyə qədər MSK üzvləri 1160 manat aylıq vəzifə maaşı alıblar.

# Musa Tukanov azadlıqda-şərti cəza



**Bakı Ağır Cinayətlər Məhkəməsində "Azərbaycan Karlar Cəmiyyəti" İctimai Birliyinin sədr müavini Musa Tukanovun məhkəmə prosesi başa çatıb. APA-nın məlumatına görə, hakim Samir Əliyevin sədrliyi ilə keçirilən prosesdə hökm oxunub.**

Hökmə əsasən, M. Tukanov barəsində şərti cəza seçilib və o, məhkəmə zalından azadlığa buraxılıb.

Qeyd edək ki, Musa Tukanov vətəndaşların müraciətləri əsasında təqsirləndirilən şəxs qismində cəlb olunmaqla məhkəmənin qərarı ilə barəsində həbs-qətimkan tədbiri seçilib. O, vəzifə səlahiyyətlərindən sui-istifadə etməkdə və rüşvət almaqda təqsirli bilinir. Musa Tukanov dövlət qeydiyyatı olmayan Azərbaycan Vahid Kommunist Partiyasının 1990-cı illərin ortalarında parçalanmış bir qanadının rəhbəri kimi tanınıb. Son illərdə Vahid Kommunist Partiyasının aktiv fəaliyyəti ilə bağlı hər hansı məlumat yoxdur.

# Putin "Birbaşa xətt" keçirdi

"Rusiyaya təzyiqlər o zaman bitəcək ki..."

**"Qərbin Rusiyanın ünvanına ittihamları onun qarşısının alınması üsuludur, çünki Rusiyanı rəqib kimi görürlər".**

Virtualaz.org yerli KİV-ə istinadən bildirir ki, bunu "Birbaşa xətt" zamanı Rusiya prezidenti Vladimir Putin deyib.

Onun sözlərinə görə, bu, səhv siyasətdir.

"Onlar Rusiyada təhlükə görürlər. Görürlər ki, Rusiya onlar üçün rəqib olur. Fikrimcə, bu, çox səhv siyasətdir" - Rusiya lideri vurğulayıb.

**Qərblə münasibətlərin bərpası müddətini proqnozlaşdırmayan dövlət başçısı qeyd edib ki, Rusiya öz maraqlarını müdafiə etməlidir:** "Mən konkret müddəti açıqlaya bilmirəm. Biz öz maraqlarımızı müdafiə etməliyik. Biz bunu edirik və edəcəyik. Amma biz həmişə güzəştləri axtarırıq, güzəştlərə cəhd edirik. Bütün təzyiqlər onda bitəcək ki, bizim partnyorlarımız onlar tərəfindən tətbiq edilən metodların effektsiz olduğuna əmin olacaqlar". Onun sözlərinə görə, dünya vahid davranış qaydalarını hazırlamağın vaxtı çatdığını artıq dərk edir.

Rusiya prezidenti "canlı yayım"da ABŞ-ın başladığı "ticarət müharibəsi"nə də münasibət bildirib. Qeyd edib ki, "ABŞ əslində elə öz tərəfdaşlarına qarşı sanksiyalar tətbiq edib".

"Tərəfdaşlarımız sanksiyalarla üzləşə biləcəklərini düşünmürdülər. Amma ABŞ-ın polad və alüminiuma rüsum tətbiq etməsi elə sanksiya deməkdir", - V.Putin bildirib.

**O, istehza ilə əlavə edib:** "Onlar da Krımı anneksiya ediblər? Yox, bu, ABŞ-ın praqmatik milli maraqları ilə bağlıdır".

Rusiya prezidenti danışıqlar masasına əyləşərək vahid qaydalar işləyib hazırlanmasına ehtiyac olduğunu söyləyib.

# Rusiyalı turist Qobustan Qoruğunda qayalıqdan yıxıldı

**Rusiyadan Azərbaycana gəzməyə gələn turist qayalıqdan yıxılaraq xəsarət alıb.**

"Report"un məlumatına görə, hadisə Qobustan Milli Tarix-Bədii Qoruğunda baş verib.

Belə ki, Qaradağ rayonu, Qobustan qəsəbəsində yerləşən Qobustan Milli Tarix-Bədii Qoruğunda Rusiya vətəndaşı, 1978-ci il təvəllüdlü Sergey Jilnenko ehtiyatsızlıqdan qayalıqdan yıxılaraq xəsarət alıb.

O, xəstəxanaya yerləşdirilib.

# Zaqataladakı zəlzələnin fəsadları - xırda təkanlar yenə davam edir

## Qurban Yetirmişli: "Ərazidə bu günlərdə 5-6 bal gücündə zəlzələnin baş verməsi gözlənilmir"





**Zaqatala rayonunda zəlzələdən sonra dəymiş zərər hesablanır. Əhali arasında ciddi xəsarət alan olmasa da, təbii hadisə onlara psixoloji təsir edib.**

Ərazidəki ümumi vəziyyət barəsində Zaqatala Rayon İcra Hakimiyyətindən "Yeni Müsavat"a bildirilib ki, insanlar artıq evlərində gecələyirlər. Hadisədən həyəcanlanıb evlərində gecələmək istəməyənlərlə söhbət aparılıb:

"Hadisə ilə bağlı yaradılmış xüsusi komissiya işləyir, akt tərtib olunur. Dəymiş ziyanla bağlı müvafiq hesablamalar Fövqəladə Hallar Nazirliyinə göndəriləcək", - deyə bildirilib.

Məlumatlara görə, zəlzələ nəticəsində rayonda bir neçə evdə çatlar yaranıb. Zəlzələdən sonra bir neçə kənd sakininə məxsus çay daşından inşa edilmiş mal tövlələrinin divarında uçqun baş verib, bir neçə yaşayış evinin divarlarında xırda çatlar əmələ gəlib.

Bildirilib ki, episentrə yaxın bir sıra yaşayış məntəqələrində 2012-ci il zəlzələsindən sonra evlərin divarlarında yaranan xırda çatlarda genişlənmə qeydə alınıb. Buradan belə görünür ki, 2012-ci ildə zəlzələdən sonra həmin evlər lazımi qaydada təmir olunmayıb...

Zəlzələdən sonra insanlar arasında yaranan stress və qan təzyiqi səbəbindən Qax və Zaqatala mərkəzi rayon xəstəxanalarının (MRX) təcili yardım şöbələrinə çoxlu sayda müraciətlər olub. Öyrəndik ki, hazırda rayonda səhiyyə, güc strukturları gücləndirilmiş iş rejimində çalışırlar. Rayonun kommunal xidmətlərlə təminatında isə ciddi problem yoxdur.

Qeyd edək ki, hadisə yerinə fövqəladə hallar naziri Kəmaləddin Heydərov da gedib. Nazirlə birlikdə Zaqatalaya həmçinin mütəxəssislər, o cümlədən Respublika Seysmoloji Xidmət Mərkəzinin rəhbəri Qurban Yetirmişli də səfər edib.

Zaqatalada bu cür zəlzələnin baş verməsi ilk dəfə deyil. Belə ki, 2012-ci il mayın 7-də də Zaqatala rayonunda 6.5 bal gücündə zəlzələ baş vermişdi. Nəticədə ölən olmasa da, 30 nəfər yaralanıb, bəzi evlər dağılmışdı.

O zaman da hadisədən bir gün sonra fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov hadisə zonasına gedib, yerli icra nümayəndələri ilə birgə zəlzələ bölgəsinə baxış keçirmişdi. Həmçinin Zaqatala, Balakən və Qax rayonlarında Fövqəladə Hallar Nazirliyinin operativ qərargahları yaradılmışdı.

**Hazırkı durumla bağlı "Yeni Müsavat"a danışan Qurban Yetirmişli bildirib ki, ərazidə vəziyyət qaydasındadır:** "Elə də böyük dağıntılar yoxdur. Sadəcə olaraq, köhnə, yaxşı tikilməyən hasarlar uçub. Bu hasarların da çoxu çay daşından inşa edilib. Eyni zamanda bu cür materialdan tikilən evlərdə də çatlar əmələ gəlib. Həmçinin bəzi evlərdə olan köhnə çatlar böyüyüb. Orada olan zaman bir evdə uçqun gördük. Öyrəndik ki, ev çay daşından tikildiyi üçün divarının biri uçub. Lakin rayonda elə böyük güclü dağıntı yoxdur. 2012-ci ildə olan zəlzələ ilə indikinin arasında fərq böyükdür. Çünki əksər binalar davamlıdır. O zaman zəlzələ baş verdikdən sonra Fövqəladə Hallar Nazirliyi tərəfindən binalar tikildi. Bu binalarda heç bir çat yoxdur. İndiki episentrdə dağıntılar çox cüzidir".

**Q. Yetirmişli deyib ki, zəlzələ baş verən gündən bu günə qədər 100-ə yaxın xırda təkanlar olub:** "Hazırda isə bir qədər sakitlikdir. Ola bilsin ki, zəif təkanlar baş versin. Ancaq bunların heç biri hiss edilməyib. Mümkündür ki, bundan sonra 2-3 bal gücündə hiss edilən zəlzələ qeydə alınacaq. Lakin bu baş verməyə də bilər. 5,5-6 bal gücündə zəlzələnin baş vermə ehtimalı isə yoxdur".

Zəlzələ və digər bu kimi təbii fəlakətlər sonrası vətəndaşa dəymiş zərər necə ödənilməlidir?

Sabiq maliyyə naziri Fikrət Yusifov **"Yeni Müsavat"a bildirib ki, hökumət zəlzələnin nəticələrinin maksimum şəkildə aradan götürülməsi istiqamətində addımlar atır:** "Dövlət büdcəsində belə hallar üçün xüsusi fondlar nəzərdə tutulub. Şübhə etmirəm ki, yaxın günlərdə zəlzələ nəticəsində dəymiş zərərin miqyasları müəyyən edildikdən sonra cənab prezident müvafiq büdcədən vəsaitlər ayıracaq. Hesab edirəm ki, bu vəsaitlər də təyinatı üçün xərclənəcək. Bütün hallar üçün bu, büdcə vəsaiti olduğuna görə prezidentin sərəncamı ilə ayrılsa da, Maliyyə Nazirliyi nəzarət edir ki, vəsait təyinatı üzrə düzgün xərclənsin. Bu, birbaşa olaraq Maliyyə Nazirliyinin səlahiyyətində olan məsələdir. Ona görə də həm işin gedişatında, həm də işlər başa çatdıqdan sonra nazirlik bu məsələləri araşdırmalıdır. Vəsaitin səmərəli istifadə edilməməsi barədə faktlar ortaya çıxarsa, bu barədə hüquq-mühafizə orqanlarına təqdimat olunur. Hesab etmirəm ki, bu məsələdə hər hansı bir təşkilat vəsaitlərin təyinatından yayındırılması halına yol verər. Bu, çox böyük məsuliyyətsizlik olardı. Ziyanın ən qısa zamanda aradan qaldırılması üçün dövlət vəsait ayırırsa, bu vəsait öz təyinatı üzrə səmərəli qaydada xərclənməlidir".

❑ **Əlİ RAİS,**
**"Yenİ Müsavat"**



# İyunun 10-da sonuncu sınaq imtahanı keçiriləcək

**Dövlət İmtahan Mərkəzi (DİM) I-IV ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə qəbul olmaq istəyən abituriyentlər üçün iyunun 10-da respublikanın 12 şəhər və rayonunda sınaq imtahanları keçirəcək.**

DİM-dən virtualaz.org-a verilən məlumata görə, imtahanlar Bakı, Sumqayıt, Abşeron, Naxçıvan, Gəncə, Mingəçevir, Şəki, Bərdə, Göyçay, Şirvan, Lənkəran, Xaçmaz şəhər və rayonlarında, ümumilikdə 26 binada təşkil olunacaq.

İmtahanda iştirak etmək üçün yazılış internet vasitəsilə aparılıb və 5282 abituriyent qeydiyyatdan keçib.

Sınaq imtahanı 1 növbə üzrə keçiriləcək və bütün binalarda saat 11:00-da başlanacaq.

İmtahanların idarə edilməsi üçün 38 imtahan rəhbəri, 363 nəzarətçi-müəllim ayrılıb.

Abituriyentlərin nəzərinə çatdırılır ki, imtahan binalarına buraxılış yalnız abituriyentin şəxsiyyət vəsiqəsinin əsli və "İmtahana buraxılış vərəqəsi" əsasında həyata keçirilir. Göstərilən sənədlərindən biri olmayan, imtahana şəxsiyyət vəsiqəsinin surəti ilə gələn, başqasının şəxsiyyət vəsiqəsi ilə qeydiyyatdan keçən abituriyentlər imtahana buraxılmır.

# Azərbaycanlıları Moskva bazarlarından çıxarırlar-bir topla iki hədəf

## OMON-un iri bazar və ticarət obyektlərində miqrantlara qarşı əməliyyatı DÇ-2018-lə əlaqələndirilir, amma...

**Moskvada polis və OMON iri bazar və ticarət obyektlərində miqrantlara qarşı əməliyyata başlayıb.**

Moskvadakı soydaşlarımızın musavat.com-a verdiyi məlumata görə, iyunun 7-də səhərdən Moskvanın demək olar ki, bütün bazarlarında reydlər keçirilir. Yüzlərlə saxlanılan var. Onların içərisində xeyli azərbaycanlı miqrantın da olduğu deyilir.

Mənbəmizin dediyinə görə, reydlər bir neçə gün sonra Rusiyada başlanacaq futbol üzrə dünya çempionatı ilə bağlıdır. "Bu reydlər təkcə Moskvada yox, çempionatın baş tutacağı digər şəhərlərdə də aparılacaq" - deyə mənbəmiz bildirib.

"Yeni Müsavat"ın məlumatına görə, Rusiyada "təmizləmə" əlbəttə ki, gələn həftə start götürəcək futbol üzrə dünya çempionatı ilə daha çox bağlıdır. Miqrantlara qarşı qanunların sərtləşməsi prosesi isə hələ bir neçə il əvvəldən başlayıb, xüsusilə Putinin prezident kürsüsünə 2012-də qayıdışından sonra bu istiqamətdə qanunlar hazırlanıb və qəbul olunub. Bu isə minlərlə azərbaycanlının geri qayıtması ilə nəticələnib.

Dünyada baş verən siyasi, iqtisadi proseslər, eyni zamanda terror təhlükəsi dünya ölkələrini, o cümlədən Rusiyanı müxtəlif təhlükəsizlik tədbirləri görməyə vadar edir ki, bu da təbiidir. Amma bir çox hallarda xüsusilə böyük şəhərlərin rəhbərləri regiondakı kriminal və sosial problemləri miqrantların üzərinə "qoymağa" çalışır. Məsələn, ötən ilin aprelində Sankt-Peterburq metrosunda 14 nəfərin həlak olması ilə nəticələnən terror aktından sonra Rusiyada miqrantlara qarşı hökumətin siyasəti daha da sərtləşdi. Məlumdur ki, terror aksiyasını törədən Akbercan Cəlilov Rusiya vətəndaşlığı alsa da, özünü hüquq-mühafizə orqanlarından miqrantların bazarlarında "gizlədə" bilibmiş. Bu isə Rusiyanın şimal paytaxtında bazarlara hücum üçün əsas oldu. Rusiyanın Antiterror Komitəsi və terroru araşdıran digər hüquq-mühafizə orqanları iddia etdi ki, yerli hökumətin bazarlarda toplaşan miqrantlarla bacara bilməməsinin nəticəsi olaraq həm terroru həyata keçirəni, həm də terror aksiyasının hazırlanmasına dəstək verənləri vaxtında ifşa etmək mümkün olmayıb.

Azərbaycanlı əməkçi miqrantların sayı Rusiyada Tacikistan, Özbəkistan və Çindən gələn miqrantlarla müqayisəolunmaz dərəcədə azdır. Qeyri-rəsmi rəqəmlərə görə, şimal ölkəsində 300 minə qədər azərbaycanlı əməkçi miqrant çalışır. Aydındır ki, azərbaycanlıların bir çoxu, xüsusilə də əyalətlərdə yaşayan əhalinin mütləq əksəriyyəti Rusiyada işləyən yaxınlarının göndərdikləri maddi dəstək sayəsində yaşayırlar. Rusiya bazarları bütün azərbaycanlılar üçün həyati əhəmiyyət kəsb edən bir faktordur.

Rusiyanın "miqrant kartı"ndan təkcə Azərbaycana deyil, digər MDB ölkələrinə qarşı da istifadə etdiyi sirr deyil. Çünki istənilən halda, miqrantların evə qayıtması ölkələrinə, o cümlədən Azərbaycan üçün "əlavə yük" yarada bilər...

❑ **"YM"**





Yeni Müsavat
N 124 (7013) 8 iyun 2018

# "Rəsulzadəyə də abidə qoyulmalıdır, Elçibəyə də"

## Arif Rəhimzadə: "Mən həmişə hesab etmişəm ki, rus imperiyası da, sovet dövrü də bizi sıxıntıda saxlasa da, bizə pislik etsə də, onun müsbət cəhətləri olub"

**Deputat, Milli Məclisin Regional məsələlər komitəsinin sədri Arif Rəhimzadənin fikirləri növbəti dəfə geniş müzakirələrə səbəb olub. Onun sovet hökuməti ilə bağlı səsləndirdiyi fikirlər mətbuatda və sosial şəbəkələrdə sərt təpkilərlə qarşılanıb. Qeyd edək ki, bir neçə ay əvvəl də A.Rəhimzadə səsləndirdiyi fikirlərə görə tənqidlərə məruz qalmışdı. "Yeni Müsavat"a müsahibəsində komitə sədri fikirlərinin kontekstdən çıxarıldığını bildirdi.**

***- Arif bəy, Milli Məclisin komitə iclasında dedikləriniz birmənalı qarşılanmadı, yəqin bunun fərqindəsiniz... Doğrudanmı siz hesab edirsiniz Azərbaycan dövlətini sovet hökuməti qurub?***

- Mən çox yaxşı bilirəm ki, Azərbaycan Demokratik Respublikası təkcə müsəlman aləmində yox, bütün Şərq aləmində ilk dəfə ölkəmizdə yaranıb. Ancaq sonra bu respublika sovet hakimiyyətinin qəddar münasibətinin qurbanı olub. Eyni zamanda sovet hökuməti bizim respublikanı formalaşdırıb. Bizim təhsilimizi, səhiyyəmizi, elmimizi yaradıb. Ən əsası, biz özümüz-özümüzü azərbaycanlı kimi tanımırdıq, bizə onu tanıtdı. Bir vaxtlar deyirdik müsəlmanıq, sonra dedik türkük. Ancaq bütün dünyada yerin adına görə də xalqın adı formalaşır. Azərbaycanda yaşayan insanların hamısı azərbaycanlıdır, etnik mənsubiyyətindən asılı olmayaraq. Bax, bu, bizim dövlət siyasətimizdir.

***- Yeri gəlmişkən, keçən dəfə bizim türk olmamağımızla bağlı fikirləriniz də mübahisə yaratmışdı...***

- Mən deməmişdim ki, biz türk deyilik. Mən demişdim kökümüz türkdür, amma biz azərbaycanlıyıq.

***- Amma bu da var ki, sovet hökuməti heç də bizi çox istədiyindən türklüyümüzü unutdurub, azərbaycanlı olmağımızı önə çəkmədi. Sovetlərin verdiklərinə gəldikdə, Cümhuriyyətimiz qurulanda hətta xarici ölkələrə tələbələr göndərilmişdi. Ancaq o gəncləri məhv edən də sovetlər oldu...***

- Aydındır. Mən də o fikirdəyəm ki, sovetlər bizimlə qəddarcasına rəftar etdilər. Mən soveti ideallaşdırmıram. Həqiqətən də Azərbaycan xalqına çox böyük mənfi təsiri olub, qəddarlıq ediblər.

***- Repressiyalar olub, bunlar unudula bilməz...***

- Bəli, repressiyalar olub, nə qədər azərbaycanlı həlak olub, sürgün olunub, ən savadlı adamlar məhv edilib.

***- Cümhuriyyət qurucularının birinin belə məzarının Azərbaycanda olmaması hər şeyi deyir.***

- O söhbət bilirsiniz nəyə görə yarandı? Bizim qəzetçilər həmişə bir sitatı götürüb onun əsasında oynamağa başlayırlar. Adların dəyişməsi ilə bağlı müzakirələr gedirdi. Çıxış edənlər başladılar ki, biz çox gecikmişik. Bunu gərək çoxdan edəydik. Sovet dövründə verilən adların hamısını dəyişək. Düzgün olmayıb, nə bilim nə olub... Mən də dedim ki, sovet dövrünün qəddarlığına baxmayaraq, müsbət cəhətləri də olub axı... Gəlin onda Nəriman Nərimanovun adı ilə bağlı olan yerlərin də adlarını dəyişək, o da sovet dövründə olub. O adam ki, həqiqətən Azərbaycan xalqına qarşı qəddar münasibət bəsləyib, onun adını dəyişdirmək olar. Amma məsələn, Ağamalıoğlu Azərbaycan xalqına nə edib, nə ziyan vurub? Biz onun adını niyə dəyişək? İkinci məsələ bu oldu ki, mən Mixaylovka kəndi haqqında danışdım. Göygöl rayonunun Mixaylovka kəndi 1845-ci ildə yaradılıb, özü də ona qədər orada yaşayış olmayıb. Rusların xristianlıqdan bir az fərqlənən nümayəndələri var, onlara "malakan" deyirlər. Çar hakimiyyəti də həmişə onları sıxışdırırdı və mərkəzdən uzaqlaşdırmaq istəyirdi. Misal üçün, Rusiyada Morozov var idi, milyonçu idi, onun kimi zənginləri də sıxışdırırdılar. Digər məqsəd ondan ibarət idi ki, imperiyanın sərhədində xristianları yerləşdirsinlər. Yəni özlərinə çox xoş gəlməyənlər də olsa, məhz xristianları yerləşdirmək istəyirdilər. Elə erməniləri də o səbəbdən gətirib orada yerləşdirdilər, ona görə yox ki, ermənilərə bənd olmuşdular. Mövqe bu idi ki, necə xristian olur-olsun, qeyri-müsəlmandan xristian yaxşıdır. Elə bir kəndin adının dəyişdirilməsi, məncə, düzgün deyil. Ona görə ki, biz bu kəndin adını deyəndə istər-istəməz həmin tarixi yadımıza salırıq. Niyə bu Mixaylovkadır? Hə, deməli, keçmişdə belə bir imperiyanın tərkibində olmuşuq, Azərbaycanı sıxışdırıblar, bura başqa xalqları köçürüblər. Bundan sonra oranın Günəşli, ya Çəmənli adlandırılması orda yaşayan, yaxud yaşayacaq insanlara nə deyəcək? Dedim, əlbəttə, daha iş-işdən keçib, bunlar qərar qəbul ediblər, özü də təkid edirlər. Amma biz gərək onlara izah edək, camaata başa salaq ki, bu tarixi bir addır, bunu dəyişdirmək düzgün deyil, çünki bizim xeyrimizə deyil, ziyanımızadır. Bu, istər-istəməz bizim camaatı tarixə qaytarır. Məsələn, bilirsiniz Qusar necə yaranıb? Orada Qusar alayı olub, Lermantov da o alayda xidmət edib. O ev də bu saat durur. Həmin evdə bizim bir nazir yaşayırdı, Şair Nəcməddin oğlu Həsənov. Həmin şəxsin şərəfinə rayonun adını Şair qoyublar. Onda gəlin Qusarın da adını dəyişək də. Yaxud Novxanı, Zağulba adlarını da dəyişək də. Zağulba nədir? Ərəb sözüdür. Demək, hansısa əsrdə bura ərəblər gəlib, yaxud iranlılar burada olub. Bunun özü tarixdir, bunu dəyişmək olmaz. Tarix xoşumuza gəlsə də, gəlməsə də, onu inkar etmək tamamilə səhvdir.

- Deputat həmkarlarınız Fazil Mustafa ilə Tahir Kərimli də sizin fikirlərinizə etiraz edib. Onlar da bu fikirdədirlər ki, ilk növbədə Azərbaycan Xalq Cümhuriyyətinin memarlarının adları əbədiləşdirilməli, Rəsulzadəyə, Nuru Paşaya abidə qoyulmalıdır. Siz bu haqda nə deyə bilərsiniz?

- Mən bu fikirlərlə tamamilə razıyam. Azərbaycan xalqına xidmət edən, Azərbaycan xalqı qarşısında nailiyyətləri olanların hamısının adı əbədiləşdirilməlidir.

***- Amma bu da var ki, hətta müstəqilliyimizin 27-ci ilində belə, xalqımıza qarşı düşmənçilik edənlərin də adlarını daşıyan küçələrə rast gəlirik. Bunlar da tarix üçün saxlanılmalıdır?***

- Misal üçün, bizim abidələr var idi. Sənət əsəri idi də. Bunların hamısını söküb apardılar, "metallom"a verdilər, məhv etdilər. Məndən olsaydı, bir yer ayırardım, həmin abidələrin hamısını ora düzərdim. Qabağına da yazardım ki, bax, Şaumyan xalqımıza qarşı belə qəddarlıq edib, terrorçu təşkilatların başında dayanıb, Azərbaycana qarşı zülmlər edib, bizə qarşı soyqırımlar törədib və s.

***- Amma illərdir təklif səslənsə də, nə soyqırım muzey-kompleksi, nə Cümhuriyyət qurucuları ilə bağlı eyni mərkəzin yaradılması reallaşmayıb. Bəlkə əvvəlcə bundan başlanılsın.***

- Lazımdır. Mütləq lazımdır. Bütün bunları etmək lazımdır.

***- Bəs niyə bunu işləmirik. Hətta "sovet adamı" kateqoriyasına daxil olan Arif Rəhimzadə də bu təkliflərlə razıdırsa, niyə bu vacib addımlar atılmır?***

- Addımlar atılmır, yəqin hələ imkan yoxdur. Amma mən əminəm ki, bu istiqamətdə addımlar atılacaq. Biz gərək olanlarımızı məhv etməyək, heç olmasa olanları qoruyub saxlayaq.

***- Məhəmməd Əmin Rəsulzadəyə abidə qoyulması barədə təklifləri də müdafiə edirsiniz?***

- Mütləq qoyulmalıdır. Mən hesab edirəm Elçibəyə də abidə qoyulmalıdır. Düzdür, qəbirüstü abidə qoyulub, amma başqa bir yerdə də qoyulmalıdır. Çünki bu, tarixdir.

***- Elə söhbətimiz Elçibəyin prezident seçilməsinin növbəti ildönümünə təsadüf edir...***

- Bəli. Hesab edirəm ki, gərək ona da abidə qoyulsun. Düzdür, abidələrin hamısını eyni vaxtda qoymaq mümkün deyil. Amma Əlimərdan bəy Topçubaşovn abidəsi Sankt Peterburqda qoyulub, mən abidənin açılış mərasimində iştirak və çıxış etmişəm, onun silinməz ideyalarından danışmışam. Vaxtilə o, Sankt-Peterburqdan qovulmuşdu. Amma zaman gəldi, bu şəhərdə ona abidə qoyuldu. Bu, çox əlamətdar hadisədir.

***- Əbülfəz Elçibəyin 80 illik yubileyinə hazırlıq görülür. Dəvət alsanız, iştirak edərsinizmi?***

- Nə vaxtdır?

***- İyunun sonlarında olmalıdır.***

- Yox, mən burada olmayacağam. Dəqiq deyə bilmərəm. Ancaq burada olsam, əlbəttə, gələrəm.

***- Bakıda Nəriman Nərimanovun nəhəng abidəsi var. Bu barədə nə deyə bilərsiniz?***

- Nərimanov sovet dövrünün xadimi olub, Azərbaycan xalqına xidmət edib və müəmmalı şəraitdə dünyasını dəyişib. Elə o xidmətinə, Azərbaycanın mövqeyini müdafiə etdiyinə görə sovetlər dövründə "qara siyahı"ya düşüb.

***- Arif bəy, sizin Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı tədbirlər barədə fikriniz necədir? Yubiley ilində əlavə təklifləriniz varmı?***

- Mən hesab edirəm ki, bu tədbirlər daim keçirilməlidir. Məncə, yubileyi təmtəraqlı keçirməkdən daha çox, insanların biliyini artırmasına çalışmaq və onlara düzgün istiqamət vermək əsasdır. Biz bir dəfə yubiley tədbiri keçirməklə kifayətlənməməliyik. Bu məsələlər gərək dərsliklərdə olsun, müsbət və mənfi cəhətləri deyilsin. Tarixi hadisə baş verən məsələdir. Bunun üzərindən xətt çəkmək, ona göz yummaq düzgün deyil. O cümlədən Elçibəyin də. Müsbət cəhəti varsa, demək lazımdır, mənfi cəhətləri varsa, onlar da deyilməlidir.

***- Yəqin Bakı Dövlət Universitetinin qarşısında üzərində Rəsulzadəyə abidə qoyulacağı yazılmış daş lövhəni görmüsünüz...***

- Yəqin hələ abidəni qoymağa imkanları yoxdur. Yazıblarsa, qoyacaqlar.

***- Yəni abidə qoyulmalıdır?***

- Əlbəttə.

***- Cümhuriyyət qurucularının məzarlarının Azərbaycana gətirilməsinə necə baxırsınız?***

- Vallah mən bilmirəm, onların məzarları orada necədir, hansı şəraitdədir? Yaxşı şəraitdə deyilsə, əlbəttə, gətirilməlidir. Hüseyn Cavidin məzarı gətirildi də. İndi o məzarlar niyə gətirilməsin? Amma digər məsələ də var. O məzarların xaricdə olmasının özü də təbliğatdır, Azərbaycan tarixinə dair əyani faktlardır.

***- Söhbətimizdən belə qənaətə gəldim ki, siz də Azərbaycan dövlətinin əsasının sovetlərdən gəldiyini güman etmirsiniz...***

- Yox, mən heç vaxt belə hesab etməmişəm. Ancaq mən həmişə hesab etmişəm ki, rus imperiyası da, sovet dövrü də bizə nə qədər mənfi təsir göstərsə də, nə qədər bizi sıxıntıda saxlasa da, bizi xristianlardan seçib, bizə pislik etsə də, onun müsbət cəhətləri də olub. İndi biz deyirik birinci demokratik respublikamız. İranda bu respublika niyə yaranmadı? Demək istəyirəm ki, bunların hamısının müsbət cəhətləri ilə yanaşı, mənfi cəhətləri də olub. Bizim ilk Demokratik Respublikanı yaradanlar təhsillərini harada almışdılar? Əsasən Rusiyada. Mən bunu demək istəyirəm.

***- Amma Xalq Cümhuriyyəti yaşasaydı və 1920-ci ildə işğalçı ordu gəlməsəydi, bəlkə biz indi Avropa ölkələrini də geridə qoya bilərdik. Deməli, bizə ən böyük zərbəni sovetlər vurub, deyilmi?***

- Ola bilər. Amma deyir tarix belə şeyləri sevmir, olsaydı, gəlsəydi... Fakt budur ki, Cümhuriyyət məhv edildi, 20-ci illərdə əksəriyyəti Azərbaycana qəlbən yaxın olmayan insanlar rəhbərliyə gəldi, Azərbaycanın bütün vacib orqanlarında əcnəbilər, bizə düşmən mövqeyində dayanan insanlar oldu. Ancaq eyni zamanda müsbət cəhətləri də olub. Yəni bir boya ilə çəkmək düzgün deyil. Yəni bu, tarixdir, inkar etmək düzgün deyil. Pisi də demək lazımdır, yaxşını da.



## "Pisi də demək lazımdır, yaxşını da"

❑ Elşad PAŞASOY,
"Yeni Müsavat"

# AŞ PA-dan Azərbaycana qarşı təzyiq dalğası

## Yeni məruzəçi təyinatına qərar verildi; Nazirlər Komitəsi Avropa Məhkəməsinin qərarlarının icra vəziyyətini müzakirə edir

**Avropa Şurası Parlament Assambleyası (AŞ PA) Azərbaycana siyasi məhbus məsələsi ilə bağlı məruzəçi təyin edəcək. Bu haqda AŞ-nin məlumatında bildirilir. Məlumata görə, AŞ PA-nın büro iclasında siyasi məhbus məsələsi üzrə Azərbaycana məruzəçi təyin edilməsi ilə bağlı təşəbbüs müzakirə edilib.**




Büro məruzəçinin təyin edilməsinə qərar verib. Məruzəçinin təyinatının AŞ PA-nın yay sessiyasında gerçəkləşəcəyi bildirilir. 2 ay əvvəl deputat Pieter Omtzigt başda olmaqla AŞ PA-nın 24 deputatı Azərbaycanda siyasi məhbuslar üzrə hesabatın hazırlanması və yeni məruzəçinin təyin edilməsi təklifini irəli sürüblər.

Deputatların müraciətində vurğulanırdı ki, 2013-cü ildə AŞ PA almaniyalı deputatı Kristof Ştrasserin hazırladığı Azərbaycanda siyasi məhbuslarla bağlı hesabatı rədd edib. Onlar AŞ PA-nın Müstəqil Araşdırmalar Qrupunun bu yaxınlarda yaydığı korrupsiya ilə bağlı sənədə istinadən hesab edirdilər ki, bəzi keçmiş və indiki deputatların həmin hesabatın qəbul edilməməsində əhəmiyyətli rol oynadığına aid şübhələr var. Deputatlar bəzi şəxslərin işini də yada salaraq bildiriblər ki, Azərbaycanda siyasi məhbus problemi realdır.

"Buna görə də Azərbaycanda siyasi məhbus problemi ilə bağlı yeni bir hesabatın yazılması uygundur", müraciətdə bildirilirdi.

AŞ PA Bürosu həmin təşəbbüsü qəbul edib.

Bundan əlavə, Azərbaycanla bağlı daha bir ciddi gəlişmə var. Belə ki, iyunun 5-dən etibarən Avropa Şurası Nazirlər Komitəsində Avropa Məhkəməsinin qərarlarının icra vəziyyəti müzakirə edilir.

Gündəlikdə Azərbaycanın da adı var. Komitə müxalif REAL Partiyasının sədri, həbsdə olan İlqar Məmmədov və daha bir neçə nəfərin işi ilə bağlı Avropa Məhkəməsinin qərarının icra edilməməsinə dair qərar verməli, bu qərar isə iyunun 7-də açıqlanmalı idi.

Avropa Məhkəməsinin bu ilin martında qəbul etdiyi qərarında qeyd edilir ki, İlqar Məmmədovun ədalətli mühakimə hüququ pozulub, ona qarşı istifadə olunan sübutlar mötəbər olmayıb. Ona görə də 3 ay ərzində Azərbaycanın Ali Məhkəməsi bu işə yenidən baxmalıdır. Həmin 3 aylıq müddət isə indi - iyunun 5-də başa çatsa da, qərar icra olunmayıb.

**Avropa Şurasının sözçüsü Endryu Kattinq deyib ki, qərarları icra etməməsinə görə Azərbaycana qarşı sərt addımlar atıla bilər:** "Nazirlər Komitəsi İlqar Məmmədov haqda qərarın icrası ilə bağlı problemi dəfələrlə Azərbaycanın diqqətinə çatdırıb. Qərar icra edilməsə, bununla bağlı Avropa Məhkəməsinə yenidən müraciət daxil olsa və məhkəmə qərarının icra edilməməsi konvensiyanın pozuntusu kimi tanınsa, o zaman Azərbaycana qarşı ciddi addımlar atıla bilər. Nazirlər Komitəsi sanksiyalardan tutmuş ölkənin üzvlüyünün ləğvinə qədər müxtəlif qərarlar verə bilər. İlqar Məmmədovun işi ilə bağlı məsələ Avropa Məhkəməsinin tarixində ilk dəfədir baş verir".



**Əliməmməd Nuriyev:** "Baş verənlər ölkəmizə qarşı növbəti təzyiqlər kimi qiymətləndirilə bilər"

Avropa Məhkəməsinin qərarlarının icrasına Nazirlər Komitəsi nəzarət edir. Endryu Kattinq deyir ki, qərarlar icra olunmursa, bu zaman diplomatik təzyiqlər edilə bilər ki, hökumətlər qərarları icra etsinlər.

**Azərbaycanın Avropa Məhkəməsindəki nümayəndəsi Çingiz Əsgərov isə deyir ki, Bakı bu məhkəmənin bütün qərarları ilə bağlı lazımi addımlar atır:** "İlqar Məmmədovla bağlı qərarı göndərmişik məhkəməyə. Ali Məhkəmə bu qərarın plenuma çıxarılıb-çıxarılmaması və ya necə icra edilməsi ilə bağlı qərar qəbul etməlidir".

Qəzet çapa gedərkən Nazirlər Komitəsinin qərarı açıqlanmadığından bu barədə məlumat verə bilmədik.

**İ.Məmmədovun vəkili Fuad Ağayev "Yeni Müsavat"a açıqlamasında Avropa Məhkəməsinin qərarının icra müddətinin üç ay olduğunu bir daha xatırlatdı:** "Azərbaycan tərəfindən üç aylıq bu müddət artıq pozulub. Burada hakimiyyətin bir qanadının məsuliyyəti digər qanadın üzərinə yıxması hesab edirəm ki, elə də bir rol oynamır. Ona görə ki, dövlət deyildikdə mərkəz yada düşülür. Həmin qərar Ali Məhkəməyə göndərilirdisə, ilk növbədə, vaxtında göndərilməli idi ki, plenuma çıxarılsın. Digər tərəfdən, Ali Məhkəmənin kifayət qədər resursları var ki, Avropa Məhkəməsinin saytından İlqar Məmmədovun o qərarı haqqında məlumat alsınlar. Nazirlər Komitəsinin hansı qərarı verəcəyi barədə indidən danışmaq tezdir, gözləyək".

**Əfv Komissiyasının üzvü Əliməmməd Nuriyev bildirdi ki, Azərbaycana siyasi məhbuslarla bağlı yeni məruzəçi təyin etmək konstruktiv yanaşma deyil:** "Bundan əvvəl də belə bir cəhd olunmuşdu, lakin uğursuzluqla nəticələnmişdi. Bunlar münasibətlərin yaxşılaşdırılmasına yönəlik yanaşma kimi qəbul oluna bilməz. Ayrı-ayrı qüvvələrin, maliyyə resurslarının və erməni lobbisinin bu proseslərə təsiri istisna edilmir. Yeni məruzəçinin təyin edilməsi barədə ilkin qərar var. Yəqin ki, yaxın günlərdə təyin olunacaq. Bu münasibətlərin inkişaf tempinə mənfi təsir edə bilər. Cəzaların humanistləşirilməsi ilə bağlı Azərbaycanda ciddi addımlar atılır. Son əfv sərəncamı ilə 634 nəfər azad olundu və onların içərisində 12 nəfərin adı müxtəlif siyahılarda olan məhbus var idi. Azərbaycan hökuməti kənar təzyiqləri və təsirləri qəbul etmir. Son baş verənlər ölkəmizə qarşı növbəti təzyiqlər kimi qiymətləndirilə bilər. Avropa Şurasının bəzi üzvləri, strukturları Azərbaycanla əməkdaşlıq əvəzinə çox yanlış bir yol seçiblər. Bu təzyiq metodu Azərbaycan tərəfindən heç vaxt birmənalı şəkildə qəbul oluna bilməz. Avropa Məhkəməsinin qərarlarının icrası prosesini Azərbaycan daim aparır. Sadəcə, bunlar müəyyən prosedurlar şəklində həyata keçirilməlidir. Ali Məhkəmədə də qərarlar müəyyən müddətlər ərzində həyata keçirilir".

**Hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı Azərbaycan hökumətinin qərarların icrasını ləngitdiyini bildirdi:** "Görürəm ki, yeni məruzəçinin təyin olunmasına sevinirlər. Düşünürəm ki, Avropa Şurası heç bir şey edə bilməyəcək. Bu şura QHT kimi bir qurumdur. Yaxşı olardı ki, Azərbaycan vətəndaş cəmiyyətinin inkişafına köməklik göstərərdilər. Boş-qoş qərarların qəbulunun heç bir əhəmiyyəti yoxdur. Ölkə daxilində vətəndaş cəmiyyəti olmadığı sürədə siyasi məhbuslar məsələsi həll olunmayacaq. Dəfələrlə görmüşük ki, siyasi məhbuslarla bağlı məruzəçilər təyin olunub, hesabatlar hazırlanıb, bir nəticəsi olubmu? Yenə də bir məruzəçi gələcək, ona 5-6 siyahı təqdim olunacaq, bu siyahılara da şübhəli baxışlar formalaşacaq, ortaya isə bir nəticə çıxmayacaq. Hələ ki ümidlənməyə bir səbəb yoxdur. Yaxşısı bu olardı ki, məruzəçini, sanksiya hədələrini gözləmədən bu məsələ həll olunsun".

**İnsan Haqları üzrə Birgə İşçi Qrupunun üzvü Novella Cəfəroğlu AŞ PA-da Azərbaycana qarşı qərəzli münasibətin davam etdiyini söylədi:** "AŞ PA-da ölkəmizə qarşı son hücumlardan sonra gözləyirdik ki, yeni məruzəçi təyin edəcəklər. Təzə məruzəçinin olması ciddi bir hadisə deyil. Bizə ən çox vacib olan odur ki, Azərbaycan haqqında mənfi imic formalaşmasın deyə dekabra qədər amnistiya və digər yollarla bütün siyasi məhbuslardan azad olaq. Yalnız bundan sonra yeni addımlar ata bilərik".

**❑ Cavanşir ABBASLI, "Yeni Müsavat"**

## NİDA fəallarının şikayəti ilə bağlı qərar açıqlanıb

**İyunun 7-də Avropa İnsan Hüquqları Məhkəməsi keçmiş siyasi məhbuslar, NİDA Vətəndaş Hərəkatının İdarə Heyətinin keçmiş üzvləri Rəşad Həsənov, Zaur Qurbanlı, Üzeyir Məmmədli və Rəşadət Axundovla bağlı qərarını açıqlayıb.**



Məhkəmə adıçəkilən şəxslərin barəsində Avropa İnsan Hüquqları Konvensiyasının 5.1 (şəxsi azadlıq hüququ) və 18-ci (siyasi məqsədlərə görə hüquqların məhdudlaşdırılması) maddələrinin pozulduğunu tanıyıb.

Onların hər birinə mənəvi zərərə görə 20 000 avro, məhkəmə məsrəflərinə görə 3000-5000 avro kompensasiya ödənilməsinə dair qərar verilib. Qərar bu ictimai fəalların 2013-cü ildə barələrində seçilmiş həbs-qətimkan tədbiri ilə bağlı verilib.

Rəşad Həsənov və Üzeyir Məmmədlinin vəkili Əsabəli Mustafayev, Rəşadət Axundovun vəkili Rəşid Hacılı, Zibeydə Sadıqova, Zaur Qurbanlının vəkili Xalid Bağırovdur.

Qərarda göstərilir ki, gənclərin hüquqları yerli məhkəmələr tərəfindən pozulub.

2014-cü il mayın 6-da Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə NİDA hərəkatının fəalları Zaur Qurbanlı 8, İlkin Rüstəmzadə 8, Rəşadət Axundov 8, Rəşad Həsənov 7 il 6 ay, Bəxtiyar Quliyev 7, Məmməd Əzizov 7 il 6 ay, Üzeyir Məmmədli 7 il, Şahin Novruzlu 6 il müddətinə azadlıqdan məhrum edilib.

Onlar Cinayət Məcəlləsinin 234.1 (qanunsuz olaraq narkotik vasitələri əldə etmə, saxlama və ya satma) və 228.1-ci (qanunsuz olaraq silah, partlayıcı maddələr və qurğular əldə etmə, saxlama, daşıma və gəzdirmə), 220. 1 (zorakılıqları, talanların, yanğınların törədilməsi, əmlakın məhv edilməsi ilə müşayiət olunan kütləvi iğtişaşları təşkil etmə və ya belə iğtişaşlarda iştirak etmə) maddələri ilə ittiham olunublar.

"Amnesty İnternational" onları "vicdan məhbusu" kimi tanıyıb.

İlkin Rüstəmzadədən başqa digər fəallar müvafiq müraciətdən sonra hakimiyyət tərəfindən əfv olunub.

**❑ contact.az**

YENİ MÜSAVAT
N 124 (7013) 8 iyun 2018

# "Həm hakimiyyətdə, həm müxalifətdə nəsillərin dəyişməsi başlayıb"

## Eldar Namazov: "Vaxtilə Azərbaycanda çox ümid bəslədiyim bir gənc təhsil naziri təyin olunanda bu məni çox narahat etdi, amma indi..."

**Beynəlxalq Strateji Araşdırmalar Mərkəzinin rəhbəri Eldar Namazov dünyada, regionda və ölkəmizdə baş verən siyasi proseslərlə bağlı "Yeni Müsavat"ın suallarını cavablandırıb.**

*(əvvəli ötən sayımızda)*

***- Bəs biz hərbi əməliyyatlara başlasaq, buna Rusiya və Qərb dünyasının reaksiyası necə olacaq?***

- Rusiyanın və Qərbin buna imkan verməyəcəyi barədə deyilənlər əsassızdır. Bütün dünya başa düşür ki, nə qədər Qarabağ konflikti mövcuddur nə Ermənistanda, nə də Azərbaycanda lazımi islahatlar aparmaq çox çətin olacaq. Ona görə də bu konflikt öz həllini tapmalıdır ki, tərəflərin öz daxilində islahatlar keçirməyə imkanı yaransın.

***- Bu konfliktin həlli nə cür olacaq?***

- İki yol var: bəri başdan deyim ki, bu yollardan biri-Azərbaycanın öz torpaqlarından imtina edib kapitulyasiya sazişi imzalamalıdır ki, nə xalq, nə hakimiyyət bunu qəbul etməz. O biri yol isə Azərbaycan ordusunun hərbi əməliyyatlara başlayıb torpaqlarımızı azad edərək Ermənistanın sülhə məcbur olunmasıdır. Başqa yol yoxdur. Bu mənada da əgər kimlərsə, hansısa siyasi qüvvələr Ermənistanda demokratik islahatlar keçirmək istəyirlərsə, bizim bu prosesə ən böyük köməyimiz ondan ibarət ola bilər ki, Azərbaycan ordusu əməliyyat keçirib Qarabağ münaqişəsi adlı problemə son qoysun. Yalnız bu münaqişəyə son qoyulduğu halda hər iki ölkə öz daxilində islahatlarla məşğul olmağa başladı.

***- Eldar müəllim, Paşinyandan söz düşmüşkən, sizcə, Paşinyan hökumətinin indiki davranışları, tutduğu kurs onun sonunu necə göstərir? Bu proseslər davamlı olacaq, yoxsa Rusiya onu hakimiyyətdən uzaqlaşdıracaq və daxildə əks-inqilab başlayacaq? Paşinyandan Dağlıq Qarabağ probleminin həllinə dair hansısa formada müsbət nəsə gözləməyə dəyərmi?***

- Ermənistan hazırda çox zəif bir durumdadır. Aprel döyüşlərindən sonra Ermənistan ordusunun Azərbaycan ordusundan qat-qat zəif olduğu ortalığa çıxıb. Orada faktiki olaraq inqilab baş verir. Buna kimsə inqilab, kimsə də dövlət çevrilişi deyə bilər. Reallıq budur ki, sabit hakimiyyət yoxdur, yaxın zamanlarda da sabit hakimiyyət qurulmayacaq. Ən azından növbədənkənar parlament seçkiləri keçirilməyənə qədər bu olmayacaq. Bu proseslərin içərisində Serj Sərkisyan hakimiyyəti çox ciddi müqavimət göstərir. Səhnədən gedən bu hakimiyyət yenidən iqtidara qayıtmağa cəhdlər edəcək. Deməli, bundan sonra vəziyyət daha da gərginləşəcək. Belə bir məqamda Paşinyan Dağlıq Qarabağ məsələsi ilə bağlı Sərkisyandan daha sərt bəyanatlar verəcək. Geopolitik durum da, güclərin balansı da bizim xeyrimizə dəyişib, torpaqlarımızı işğal edən ölkənin də daxilində sabitlik pozulub. Bu hal getdikcə güclənəcək. Ona görə də belə məsələlərdə biz milli maraqlarımızı hər şeydən üstün tutub hərəkət etməliyik.

***- Bayaqdan sizi dinləyirəm, danışıqlar aparılmalıdır fikirlərini səsləndirmədiniz. Daha çox hərbi əməliyyatlara üstünlük verdiniz. Demək, belə bir əminlik yaranıb ki, artıq Ermənistanla danışıqlar aparmağa dəyməz?***

- Sizin qəzetə təqribən bir il öncə bu mövzuda müsahibə vermişdim. Cavabımın bu hissəsini siz başlığa da çıxarmışdınız. İndi də 90% əminəm ki, bu məsələ müharibə yolu ilə öz həllini tapacaq. Hələ Serj Sərkisyan hakimiyyətdə olduğu dönəmdə bu qənaətə gəlmişdim. Aprel döyüşlərindən sonra Ermənistan daxilində çox ciddi çaxnaşmalar var idi. Ondan sonra Ermənistanın hakim elitası o qənaətə gəldi ki, torpaqların azad olunması ilə bağlı heç bir güzəşt ola bilməz. Əgər Rusiyanın tanınmış ideoloqlarından biri Aleksandr Duqin deyirsə ki, Serj Sərkisyan beş rayona razı idi, lakin bu çevriliş oldu. Belə fikirlər düşünürəm ki, bizim başımızı qatmaqdan başqa bir şey deyil. Birmənalı olaraq erməni tərəfi yalnız Azərbaycan ordusunun gücü qarşısında hansısa güzəştlərə gedə bilər. Ola bilsin ki, ortaq bir variant olsun. Çünki ikinci bir əməliyyat ola bilər ki, bununla Azərbaycan ordusu bəzi rayonları azad edə bilsin. Bununla on illərlə şovinist, psixoz altında formalaşan Ermənistan cəmiyyəti başa düşsün ki, Azərbaycan torpaqları ya sülh yolu ilə azad olunacaq, ya da ordumuz əməliyyatları davam etdirib o torpaqları azad edəcək. Başqa yollarla onları başa salmaq mümkün deyil.

***- Hərbi əməliyyatlar başlayarsa, Rusiyanın mövqeyi necə ola bilər? Hətta deyirlər ki, hərbi əməliyyatlar başlasa, Qərb Azərbaycana müəyyən şanslar da yarada və nəticədə bir mərhələyə qədər ordumuz irəliləyə bilər.***

- Rusiyada neçənci dəfədir ki, bir şəxs prezident seçilir və bu prezidentin də dəst-xətti, qonşu ölkələrə yanaşması hər kəsə, o cümlədən, bütün dünyaya bəllidir. Bu gün Paşinyanın nazir təyin etdiyi şəxslər yarım il, yaxud bir il öncə əllərində Putinə ana söyüşü və digər ağır təhqirlər olan plakatlarla küçələrə çıxırdılar. Bu şəxslər birbaşa ABŞ fondlarında çalışan Rusiyanın əleyhdarlarıdır. Təsəvvür edin ki, belə şəxsləri indi Ermənistanın Təhlükəsizlik Şurasının baş katibi, hansısa bir nazir, Prezident Aparatında mühüm postlara təyin edirlər. Bunları biz biliriksə, o şəkilləri görürüksə, bunu Kreml görmür? Buna görə hesab edirəm ki, Ermənistanda yeni hakimiyyətə gəlmiş qüvvələrlə Kreml arasında uzunmüddətli əməkdaşlıq mümkün deyil. Ona görə sizin dediyiniz rəylərdə həqiqət faktları kifayət qədər böyükdür. Bu amili mütləq nəzərə almalıyıq.

***- Azərbaycandakı prezident seçkilərindən sonra bir sıra təyinatlar olub, nazirlər, komitə sədrləri dəyişib. Gedən prosesləri izləyirsiniz? Əvvəllər siyasi aktivliyinizlə seçilən şəxslərdən olmusunuz. Son dövrlərdə siyasi fəaliyyətiniz varmı? Hansı fəaliyyətlə məşğulsunuz?***

- Ölkə daxilində gedən prosesləri çox ciddi şəkildə izləyirəm. Onu deyə bilərəm ki, həm hakimiyyət, həm də müxalifət daxilində nəsillərin dəyişməsi mərhələsi başlayıb. Hakimiyyət tərəfindən həyata keçirilən son təyinatlar daha çox gənclərin irəli çəkilməsi əsasında reallaşır. Müxalifətin içərisində də yeni qüvvələr meydana çıxır, yeni gənc nəsil öz liderliyini təsdiq etmək üçün fəaliyyət göstərir. Bu proseslərin hər ikisini müsbət sayıram, alqışlayıram. Hesab edirəm ki, Azərbaycan siyasətinə yeni nəfəslər gəlməlidir. Bizim payımıza düşən odur ki, öz biliklərimizi, təcrübəmizi ehtiyac olarsa, həmin gənclərlə bölüşək, məsləhətlər verək, onların uğur qazanmaları üçün dəstək olaq. Hesab edirəm ki, bizim nəsil insanlar proseslərdə öz yerləri üçün yox, bu proseslərin uğur qazanması üzərində düşünməlidir. Öz fəaliyyətimə gəlincə, yaxınlarda 90-cı illərin əvvəllərində yaratdığımız Beynəlxalq və Strateji Araşdırmalar Mərkəzinin fəaliyyətini bərpa etdim. Artıq həmin mərkəzin araşdırmaları əsasında bu müsahibələri verirəm. Dağlıq Qarabağ, Azərbaycanın xarici siyasəti və digər bu kimi məsələlərlə bağlı sənədlər hazırlayırıq.

***- Müxalifət düşərgəsində keçmiş dostlarınızla, müttəfiqlərinizlə əlaqələriniz qalırmı?***

- Tədbirlərdə görüşəndə, əlbəttə, salamımız olur, fikir mübadiləsi də aparırıq. Amma mənim yanaşmam bugünkü günlə bağlı deyil. İstefa ərizəmi yazıb vəzifədən gedəndən sonra təqribən beş dəfə prezident və parlament seçkiləri olub. Bu seçkilərdə yalnız namizəd kimi 2005-ci ilin parlament seçkilərində iştirak etmişəm. Qalan vaxtlarda kiməsə dəstək vermək, kömək göstərmək mövqeyindən çıxış etmişəm. Son dəfə seçki prosesində İlqar Məmmədov, Erkin Qədirli, Bəxtiyar Hacıyev kimi gənclərə və yeni qüvvələrə dəstək vermişdim. O zaman hakimiyyət düşərgəsində gənc kadrlar çox az idi. İndi isə vəziyyət bir qədər dəyişib. Bu baxımdan hakimiyyət düşərgəsində olan gənclərin də uğur qazanmasında maraqlıyam. Bir misal çəkim, vaxtilə Azərbaycanda çox ümid bəslədiyim bir gənc təhsil naziri təyin olunanda bu məni çox narahat etdi. Çünki bu nazirlik çox mürəkkəb bir sahədir. Düşünmürdüm ki, onun uğur qazanması üçün Təhsil Nazirliyi mühüm rol oynasın. Amma indi təyin olunduğu vəzifə onun üçün daha uyğundur. Çünki bu sahə üzrə uzun müddət çalışıb, beynəlxalq təşkilatlarda fəaliyyət göstərib. Düşünürəm ki, hazırda onun çalışdığı sahə Azərbaycanın inkişafı üçün çox mühümdür. Çünki Azərbaycanda demokratik quruluş qurmaq üçün orta sinif formalaşmalıdır. Bu sinfin formalaşması üçün də vergi və gömrük sahəsində ciddi islahatlar aparılmalı, orada korrupsiya aradan qaldırılmalı, şəffaflıq təmin olunmalıdır. Azərbaycanda orta sinfin formalaşmasının qarşını alan vergi və gömrük sahələrindəki soyğunçuluq idi. İndi belə gənc kadrlara bu problemləri həll etmək üçün mandat verilirsə, onlara yalnız uğur diləyə bilərəm.



**❑ Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Ziyalı kosmopolit olarsa...

## Qan Tural: "Ziyalı xalqı tənqid edə bilər, amma ona qarşı ola bilməz"



Azərbaycan cəmiyyətinin ziyalı kimi qəbul etdiyi, tanıdığı insanlar bir çox hallarda gözlənilməz mövqeləri ilə diqqət çəkirlər. Bəzən xalqın yanında olmurlar, bir çox hallarda onun mənafeyinə zidd açıqlamalar verirlər. Cəmiyyətdə zaman-zaman bu, həmin şəxslərin rusdilli olması, kosmopolit mövqe sərgiləməsi kimi də izah edilir. Rüstəm İbrahimbəyov nümunəsində bu, özünü qabarıq şəkildə göstərdi. Rusiyaya meyllilik onun Azərbaycana münasibətində fərqli aspektdə nümayiş etdirildi. Əkrəm Əylisli nümunəsində də kosmopolitlik faktı yaradıcılığa təsirsiz ötüşməmiş üçün zaman-zaman buna etirazlar özünü göstərir.

Cəmiyyətə ziyalı olaraq təqdim olunan şəxslər niyə kosmopolit olurlar? Bunun özəl səbəbi varmı? Ya da ziyalı milli hisslərdən uzaqlaşmış, cəmiyyətin düşüncələrinə uzaqlaşmış, amma dünyəvi hisslərlə yaşamalıdır?

**Yazıçı Qan Tural** hesab edir ki, ziyalını xalq yaradır və ziyalı da öz növbəsində xalqı yaradır. Onun fikrincə, bizim xalq da intelligensiya tərəfindən yaranıb. AXC-nin 100 illik yubileyini qeyd etdiyimizi xatırladan yazıçının sözlərinə görə, AXC də məhz intellektualların uzaqgörənliyi, fəhmi nəticəsində intişar tapıb: "Ziyalı xalqı tənqid edə bilər. Necə ki, ediblər, edirlər. Amma ziyalı xalqa qarşı ola bilməz. Çünki ziyalı demək işıqlı adam deməkdir, idraklı adam deməkdir. İşıqlı adam xalqı düzgün başa düşər, onu anlayar və sevər. Ziyalı hər şeydən qabaq xalqın günəşidir. İlk növbədə öz xalqının, sonra bəşəriyyətin... Hə, ziyalı dediyimiz ziyanlılar çox olub. Ziyalılığı fəxri adda, titulda görən çox olub. Hərçənd ziyalı lazım gələndə xalqla xalqsız vuruşmağı bacarmalıdır, gücünü ürəyindən, işıqdan almalıdır və daima xalqının mənafeyini, həqiqətin tərəfini gözləməlidir".

**Qan Tural bildirdi ki, onun dedikləri ancaq yaradıcı ziyalılara yox, sadə ziyalılara - müəllimlərə, həkimlərə də aiddir. Müsahibimizin sözlərinə görə, ziyalının işi maarif günəşini yaymaq olmalıdır:** "O, hər şeydən qabaq həqiqətə susamalıdır. Bu həqiqəti xalqın, hakimiyyətin və müxalifətin xoşuna gəlməsə belə, o, ancaq həqiqəti deməlidir. Ziya da, idrak da budur".

**❑ SEVİNC, "Yeni Müsavat"**

# Kadr dəyişikliyinin əsas səbəbi: dövlət aparatının sağlamlaşdırılması prosesi başlayıb

**Prezident İlham Əliyev son 10 gündə artıq 4 icra başçısını vəzifəsindən azad edib. Belə ki, ötən həftə Gədəbəy Rayon İcra Hakimiyyətinin başçısı Ramiz Yediyarov tutduğu vəzifədən çıxarılıb. Sabiq vergilər naziri Fazil Məmmədovun kadrlarından olan R.Yediyarov bu vəzifəyə 2012-ci ilin aprelində təyin olunmuşdu. R.Yediyarov icra başçısı olduğu müddətdə sahibkarları incitməklə, onların mal-mülkünü yağmalamaqla məşhurlaşmışdı.**

Əməllərinə görə R.Yediyarovdan heç də geri qalmayan Ağdam rayonun icra başçısı Raqub Məmmədov da vəzifəsindən kənarlaşdırıldı.

Prezident həmçinin Bakının Binəqədi rayonunda da icra başçısını dəyişdi. Binəqədinin sabiq icra başçısı Xaləddin İsgəndərovun da məmura yaraşmayan hərəkətləri, addımları barəsində mətbuatda çoxsaylı yazılar dərc olunub.

Sonuncu isə iyunun 7-də Tovuzun icra başçısı vəzifədən azad edilib.

"Yeni Müsavat"a danışan Milli Məclisin deputatları bütün bu dəyişiklikləri dövlət aparatının sağlamlaşdırılması prosesinin başlaması kimi xarakterizə etdilər.





**Bəxtiyar Sadıqov:** "Elə bir mexanizm yaradılır ki, həm dövlətimizin təhlükəsizliyi, həm də vətəndaşlarımızın rahatlığı təmin edilsin"
**Zahid Oruc:** "Meyarlar və tələblər dəyişib, bölgələrin iqtisadi müstəqilliyini təmin edə bilən insanlar önə çəkilməkdədir"

**Deputat Bəxtiyar Sadıqov bildirdi ki, islahatların məqsədi xalqın rifahını yüksəltməkdir:** "Bütün bunlar təbii ki, cənab prezident İlham Əliyevin səlahiyyətində olan məsələlərdir. Cənab prezident köklü islahatlara uyğun olaraq müəyyən kadr islahatları da həyata keçirir. Bu islahatların məqsədi Azərbaycan xalqının rifahını daha da yüksəltmək, qarşıya qoyulan vəzifələrin uğurlu həllinə nail olmaqdır. Eyni zamanda bütün bunlar cəbhə bölgəsində olan prosesləri daim nəzarət altında saxlamaq, orada insanların həyat şəraitinin yaxşılaşdırılmasına, təhlükəsizliyinin möhkəmləndirilməsinə, sağlam ab-hava yaradılmasına diqqət ayrılmasının nəticəsidir. Aprel hadisələrindən sonra da biz gördük ki, insanlar dövlətlərinə inandığı üçün hərbi-əməliyyatlar dövründə ev-eşiyini tərk etmədi. Zərurət olan yerdə insanlar mütəşəkkil, şüurlu şəkildə təhlükəsiz bölgəyə çəkildilər, əməliyyatlar səngiyən kimi geri qayıtdılar. Yaxud da evləri dağılmış insanlara cənab prezidentin dəstəyi sayəsində yardım edildi və onların mənzilləri bərpa olundu. Yəni bütün bunlar elə bir mexanizm yaradır ki, həm dövlətimizin təhlükəsizliyi, həm də vətəndaşlarımızın rahatlığı təmin edilsin. Bu mənada sərhəd bölgəsinə daim prezidentimizin diqqət ayırması təqdirəlayiq haldır. Yəqin ki, dəyişikliklərin səbəblərindən biri də budur ki, təmas xəttində yaşayan insanların problemləri daha operativ qaydada öz həllini tapsın. Bütün bunlar həm də dövlət aparatının sağlamlaşdırılması prosesinin başlamasıdır. Dövlət aparatının təkmilləşdirilməsi, orada müəyyən islahatların keçirilməsini müşahidə edirik. Cənab prezident hamımızdan yaxşı bilir ki, hansı kadrı harada yerləşdirsə daha uğurlu nəticəyə nail olunar. Buna görə də o, zəruri addımları vaxtında atır".

**Deputat Zahid Oruc "Yeni Müsavat"a bildirdi ki, prezident 7 illik dönəmin başlanğıcında hökumət sistemində köklü dəyişikliklərə getdi:**

"Əslində bu, 2015-ci ildən başlayan dalğanın daha da böyük bir miqyas alması mənasına gəlir. Əgər biz məsələyə ayrı-ayrılıqda qiymət versək görərik ki, hökumət cinahında məmurların az qala 70 faizə qədəri dəyişdirilib. Bu, cəmiyyətdən gələn dalğaya və siqnallara da adekvat qərar sayıla bilərdi. Hətta bir çoxlarının gözləmədiyi adamlar da əvəz edildi. Buna bir qədər də təbii proses kimi yanaşmaq lazımdır. Çünki komandada yeniləşmə hər zaman zəruri olur. İkinci tərəfdən, dövrün də özünün fərqli çağırışları var. Bir məqamda, ictimai-siyasi münasibətlər reallığında çox aktiv olan, fayda verən, peşəkarlığı, komanda quruculuğu qabiliyyəti ilə çıxış edənlər gərəkli olur. Ancaq sonrakı dövrdə görürsən ki, fərqli bir şəraitdə üzərlərinə qoyulan vəzifələri yerinə yetirə bilmirlər. Buna görə də düşünürəm ki, qeyd etdiyimiz dəyişikliklərin icra başçılarına da keçməsi çox təbii qarşılanmalıdır. Bu məsələni vəzifədən gedən şəxslərin təftişi üzərində qurmaq fikrində deyiləm. Ancaq biz daha çox bu məsələ üzərində qərarlaşmalıyıq ki, dövlət başçısının hədəfləri, qarşıya qoyduğu çox mühüm məsələlər nədən ibarətdir. İlk növbədə Azərbaycanın bölgələrində vətəndaşların məskunluğu, firavanlığı təmin olunmalıdır. Çünki hər birimiz görürük ki, Bakı yüklənməkdə davam edir. Ev-eşiyini atıb, paytaxtda kirayə ömür keçirənlərin böyük bir hissəsi həm əmək, həm mənzil bazarında, həm də ümumi-ictimai atmosferə yetərində böyük gərginliklər vəd edirlər. Biz burada nə qədər körpülər və tunellər tiksək də bütün bu ağır yükü tam daşıyıb, çəkə bilməyəcəyik. Deməli, biz vətəndaşın qarşısını yaxşı mənada, cazibədar iqtisadi şərtlərlə bölgələrdə almalıyıq".

**Deputat yada salıb ki, prezidentin icra başçılarına çox əhəmiyyətli tapşırıqları olub:**

"Yuxarıda qeyd etdiyimiz məsələlərlə bağlı prezidentin icra başçılarından çox mühüm istəkləri olub. Bu isə müşavirələrdə dilə gətirilib. Deyilib ki, sizin fəaliyyətinizə cəlb etdiyiniz investisiyaya görə qiymət veriləcək. Açılan iş yerləri əsasında bu, baş tutacaq. Çox arzu edirəm ki, qarşıdakı dövrlərdə "kəndə dönüş" layihələri həyata keçirilsin. Nə fərqi var ki, ya erməni gülləsindən, ya da başqa amil səbəbindən vətəndaş öz evini qoyub, başqa yerə gəlsin. Bu, sərhəd bölgələrində daha ağır təhlükəsizlik problemi yaradır. Öz sərhədinin arxasında real mülki insanları görməyən əsgər heç şübhəsiz ki, silaha arzuladığımız ən yüksək səviyyədə sarıla bilməyəcək. Bu, həqiqətən də çox ciddi milli təhlükəsizlik problemidir. Ona görə də iş yerlərinin açılması, istehsalat müəssisələri yaradılan zaman onlara xüsusi vergi güzəştlərinin tətbiqi və sairə olacağı təqdirdə icra başçılarının da obrazı cəmiyyətdə dəyişəcək".

**Deputat bildirib ki, bütün bu dəyişikliklər ümumən dövlət üçün faydalıdır:** "Bir qədər də 1990-cı illərdən keçən dövrün xarakterinə baxaq. Bir zamanlar ölkədə silahlı dəstələr tüğyan edirdi və Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev komanda üzvlərini təyin edərkən, onların bölgələrdə baş qaldıran silahlı çevrilişlərə dirəniş göstərmək qabiliyyətinə üstünlük verirdi. O adlar, şəxslər hər kəsə bəllidir. Ola bilər ki, bu günün zirvəsindən baxan zaman onlara fərqli qiymət verilsin və intellektual səriştələrindən daha çox qorxmazlıqları qabarsın. Məsələ də budur. Lakin 2000-ci illərdən sonra bölgələrin quruculuğu ilə bağlı texnokratiyanın təmsilçilərinə üstünlük verilməsi əsasında seçim edilirdi. Onlar da bir dövrdə səmərəli oldular. Ancaq indi hesab edirəm ki, meyarlar və tələblər dəyişib. Həqiqətən də bölgələrin iqtisadi müstəqilliyini təmin edə bilən insanlar önə çəkilməkdədir. Elə hesab edirəm ki, bu baxımdan yanaşanda sırf ideoloji, siyasi peşəkarlıqdan daha çox investisiyalarla işləyən, kapital qoyuluşu, vətəndaşları bu sahəyə cəlb edən, bürokratizmdən uzaq, gerçəkdən də qapısı açıq və daha artıq dərəcədə iqtisadi təsisat modelində çalışan qüvvə dövlətin də yükünü azaldardı. Düşünürəm ki, əslində prezident İlham Əliyevin daşıdığı missiya kifayət qədər böyükdür. Siz Amerika prezidentinin ekranlarda hansısa böyük bir sənədə imza qoyduğunu görməkdəsiniz. Onun gedib, regionlarda müşavirə keçirib, hər bir problemə ayrıca diqqət göstərdiyini görmürük. Belə olan təqdirdə Amerikanın birinci şəxsi olmaq insanlara asan gəlir. Həqiqətən də bu, belədir. Çünki qurulmuş bir sistemin üzərində qərar verir. Ancaq bizim reallıqda ölkənin bütün məsələlərinin hamısı birinci şəxsin üzərində daşınmaqdadır. Bu baxımdan bölgələrdəki icra başçıları bu işdə dəyişikliklər, yeniliklər edə bilərlər. Bütün bu addımlar isə ümumən dövlətimizin inkişafına, sağlamlaşdırılmasına xidmət etmiş olar".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# Erkən parlament seçkiləri haqda daha bir iddia

Növbədənkənar parlament seçkilərinin təyin ediləcəyi ilə bağlı fikirlərə **deputatdan cavab:** "Parlamentin tərkibinin dəyişdirilməsini 2020-ci ilə qədər gözləməli olacaqsınız"

**Prezident İlham Əliyevin sərəncamı ilə Milli Məclisin 4 deputatına Nazirlər Kabinetində müxtəlif yüksək vəzifələr verildiyindən, növbədənkənar parlament seçkilərinin təyin ediləcəyi ilə bağlı fikirlər səsləndirilir. Lakin növbədənkənar parlament seçkilərinin keçiriləcəyi ilə bağlı fikirlər hələ təyinatlara qədər də var idi.**

Seçkidən sonra 4 deputatın vəzifə alması, 1-inin mandatına əvvəldən xitam verilməsi (Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva birinci vitse-prezident təyin edildiyi üçün mantadına xitam verilib), Astan Şahverdiyevin isə vəfat etməsi ilə Milli Məclisdə 6 deputat kürsüsünün boşalması parlament seçkilərinin keçirilməsi məsələsini zaman-zaman yenidən gündəmə gətirir.

"Yeni Müsavat" xatırladır ki, konstitusiyaya görə, parlament prezident tərəfindən buraxıla bilər. Bu da Milli Məclisin 94, 95, 96, 97-ci maddələrdə nəzərdə tutulan səlahiyyətlərini icra etməməsi halında baş verə bilər. Burada da bir çox hallar var. Söhbət Milli Məclisin həll etdiyi məsələlərdən, vaxtında qərarların qəbul edilməməsindən, yaxud qanunvericilik təşəbbüsünə göndərilən layihələrin qanunvericilik təşəbbüsü subyekti olmadan dəyişdirilməsindən və s. gedir. Bu və bu kimi hallar baş verərsə, parlament prezident tərəfindən buraxıla və növbədənkənar parlament seçkiləri təyin edilə bilər.




Baş nazirin müavini, YAP-ın icra katibi Əli Əhmədov ötən ay deyib ki, erkən parlament seçkilərinin keçiriləcəyi barədə məlumatlı deyil: "Bildiyimə görə, parlament seçkiləri 2020-ci ildə keçiriləcək".

**"Parlamentin tərkibinin dəyişdirilməsini 2020-ci ilə qədər gözləməli olacaqsınız". Bu sözləri isə deputat Zahid Oruc AzadliqRadiosuna müsahibəsində deyib:** "Mən o zaman, sadəcə, demişdim ki, 7 illik dönəm üçün seçilən prezident ambisiyalı proqram ortaya qoyub, hökumətin içində böyük dəyişiklik var. Bu dəyişiklik yəqin parlamentdən də yan keçməyəcək. Amma bunun üçün növbədənkənar parlament seçkiləri keçirmək tələbi yanlış olar". Deputat deyib ki, parlamentdə zamanla ayaqlaşmayanlar var: "Parlamentdə zamanın çağırışlar ilə ayaqlaşmayan, Milli Məclisdə görünməyən, mediaya danışmayan, passiv adamlar var. Bu deputatlar 2020-ci ildə dəyişiləcəklər. Amma bunun Arif Rəhimzadənin açıqlamasının kontekstində "bu parlament getməlidir" hökmü kimi səslənməsinin əleyhinəyəm. Bir deputatın mövqeyinə münasibətdə bütün parlamentin linç edilməsinin, deputatların "cümhuriyyət əleyhidarları", "sovetdənqalma, sovet təfəkkürlü adamlar" kimi dəyərləndirilməsinin əleyhinəyəm".

❑ **ORXAN,**
**"Yeni Müsavat"**



# "Mozalan"ın arxivindən

Zamin HACI
zaminhaci@gmail.com

"Deyəcəklər ki, camaatin başı qarışıqdır. Soruşacaqdır ki, nəyə? Deyəcəklər ki, öz işlərinə. Soruşacaqdır ki, bəs işləri nədir? Deyəcəklər ki, qara pul güdmək və bir də adam öldürmək. Onda binəva qərib əhvalatı bilib deyəcəkdir ki, bəs elə isə, görünür, burada hökumət əhlinin keyfi kökdür"

*(Üzeyir Hacıbəyli, 1907-ci il)*

**Təzə icra başçıları qoyulur, camaat dərhal onun kimin qohumu və ya adamı olması ilə maraqlanır. Adətən tapırıq. Bəzən araşdırmalar bir-iki gün çəkir. Lakin heç bir kadr axıradək sirr olaraq qalmır. Millət əvvəl-axır dəqiq öyrənir ki, budəfəki icra başçısı kimin qardaşıdır, yaxud hansı nazirin katibəsinin qaynı nəvəsidir, növbəti dövrdə ərazidə həyət evinin hündürlüyünü yarım metr qaldırmağın "hörməti", yolun içində budka tikməyin "haqqı" nə qədər olacaqdır. Yoxsa icra hakimi bizim nəyimizə lazımdır? Xoruz yox idi, səhər açılmırdı? Normal ərazilərdə camaatın heç icra hakimi olmur. Oralarda bələdiyyə olur, onu da əsrarlı formada, qəfildən, yuxarıdan təyin eləmirlər. Sən özün səs verib seçirsən. Bizdə isə camaat nəinki bələdiyyə sədrini özü seçir, əksinə, hökumətin onun əvəzindən "seçib" qoyduğu tipi bəyənmir. Vaxtaşırı görürsən xəbər yayıldı: "İtboğanlar qəsəbə bələdiyyəsinin sədri Cinqulu müəllimin qulağını yerli sakinlər kəsmişdir", "Eşşəkbeli kolxozunun sədri Mürtəd müəllim bələdiyyənin binasında qancıq tayadan düşənə qədər döyülmüşdür" və sairə.**

Ən məzəli temalardan biri isə odur ki, bəzən icra hakimini ərazidə yanğın çıxıb camaatın kütləvi qırılmasında günahkar sayırsan, iddia edilir guya bu tipi buna görə qovublar. Ancaq sabah baxırsan təzə icra başçısı elə o bina yanan vaxt yanğınsöndürən idarənin müdiri olmuşdur. Qəşəng söhbətdir, elə deyilmi?

Yanğın demişkən, bu yaxında Sosial Müdafiə Fondunun binası yandı. Məncə bu, əhaliyə göstərilən sosial müdafiə tədbirlərinin qaynarlığı üzündən olmuşdu. Əhalini bir qədər yavaş müdafiə eləmək lazım idi. Axı insanlara nə qədər pensiya vermək olar? Qocalarımız o qədər pensiya alırlar ki, Antalyadan vurub Floridadan çıxırlar. Ancaq bəzi haramzadələr iddia edir guya fondda yanğını izi itirmək üçün törədiblər. Guya fondun keçmiş sədri Səlim müəllimin vaxtında orada çoxlu yeyintiyə yol verilibdir. Səlim müəllim isə deyib yeməyə bir şey yox idi. Hərçənd bütün dünyada korrupsioner rejimlərdə bu sosial müdafiə sahəsi ən yağlı tikələrdən sayılır. Heç bir həftə olmaz, Rusiyanın Dağıstan vilayətində sosial müdafiə işinə baxan tipi tutmaq istəyirdilər. Meşəyə, dağa qaçıb gizlənmişdi, Azərbaycana keçmək istəyirdi *(yəqin öz təcrübəsini bizimkilərə öyrətmək fikri varmış, ya da burada praktika keçmək istəyirmiş ki, sosial müdafiə pulunu necə basıb yeyəsən və sudan quru çıxasan).* O qədər adama saxta əlillik vəsiqəsi satıbmış ki, artıq Rusiyada Dağıstana ironiya ilə "Güləşçilər və əlillər diyarı" deyirmişlər. Yəqin Azərbaycana da "İcra hakimləri diyarı" deyə bilərik.

Xalqımızın yaddaşının möhkəm olması isə sevindirici haldır. Sovet vaxtı "Mozalan" satirik kinojurnalı adlı veriliş vardı. Oradakı yaddaqalan süjetlərdən biri xəstəxanaya yeni baş həkimin qoyulması haqda idi. Baş həkim binaya girir, bütün həkimlər onun xalatının cibsiz olmasına baxıb dilxor olurlar, pıçıldaşırlar ki, daha rüşvət ala bilməyəcəyik, uşaqlar acından qırılacaq və sairə. Sonradan isə baş həkimin xalatı çaşıb tərsinə geyindiyi, nəinki qabaqda, hətta kürəyində də yekə bir cibin olduğu görünür, hamının ürəyi yerinə gəlir. Dünən təzə icra başçısı qoyulan rayonların birindən keçirdim, gördüm camaat o süjetdən sitat çəkir: "Cibi yoxdur, acından öləcəyik". Doğrudan da rayon yaman əl-ayağa düşmüşdü, oranı süpürən, buranın zibilini təmizləyən, səkidən gilas səbəti yığışdıran...

Ümumiyyətlə, biz gərək tariximizi hərdən vərəqləyək, unutmayaq, yoxsa ziyanını çəkərik. Misal üçün, bu yaxında mən "Mozalan"ın 1980-ci ildə çəkilən 52 nömrəli süjetinə baxırdım (Youtube kanalında var), bir də nə görsəm yaxşıdır? Rəsul müəllim! Bəli, Rəsul Quliyevdən söhbət gedir. Bizim keçmiş deputatxana müdiri, məşhur mühacir və sairə. "Mozalan"ın bu süjeti Bakıda ekoloji fəlakətə həsr edilmişdi, Rəsul müəllim isə həmin il neftyağ zavodlarından birinin ekologiyaya cavabdeh rəis müavini olaraq süjetdə tənqid olunurdu. Süjetdə balığı atırlar Xəzərə, balıq təzədən hoppanır adamın üstünə - su o qədər çirklidir. Elçibəy isə "Məni sən pulların yıxdı, Rəsul" deyirdi. Vaxtında "Mozalan"a niyə baxmırdın ki? İndi hamımız öz evimizdə oturmuşduq.




# Paşinyan Əliyevin sözünü təsdiqlədi - Bakıdan İrəvana unikal fürsət

## Erməni baş nazirdən yeni və acı etiraflar; **Azərbaycan prezidenti:** "Mənim illər ərzində dediyim sözləri indi erməni xalqı deyir..."

**İyunun 7-də Ermənistan parlamentində yeni hökumətin fəaliyyət proqramı müzakirə edilib. Mayın 8-də küçə etirazlarının təzyiqi altında baş nazir seçilən Nikol Paşinyan dünən öz hökumətinin prioritet istiqamətləri haqda danışıb. Eyni zamanda bir daha ölkədəki ağır sosial-iqtisadi vəziyyətə, əhalinin miskin güzəranına görə Sərkisyan-Köçəryan rejimini ittiham edib.**

"Ermənistanda indiyədək keçirilmiş parlament və prezident seçkilərinin, demək olar, hamısı saxtalaşdırılıb". "Yeni Müsavat"ın erməni qaynaqlarına istinadən verdiyi məlumata görə, bu sözləri Nikol Paşinyan parlamentdəki çıxışı zamanı deyib.

"Mən hesab edirəm ki, 1991-ci ilin prezident və 1999-cu ilin parlament seçkilərindən savayı, bütün seçkilər saxtalaşdırılıb. Bundan ötrü bütün qanunsuz vasitələr - fiziki işgəncələrdən tutmuş, seçki prosesi zamanı rüşvət verilməsinədək - hər şey səfərbər edilib. Bunun nəticəsində Ermənistanda "amoral atmosfer" yaranıb. Ölkədəki bütün neqativ hallar bununla birbaşa bağlıdır", - deyə o qeyd edib.

Paşinyanın sözlərinə görə, yeni hökumət belə proseslərin kökünü kəsməli və azad və demokratik parlament seçkiləri keçirməlidir.

*****

Ermənistanda gerçəkdən də illərdir amoral atmosfer hökm sürür. Bu atmosfer və onun ağır nəticələri - erməni xalqının səfil güzəranı, ölkədən ilbəil güclənən kütləvi köç, korrupsiya və inhisarçılıq, Qarabağ məsələsinin həll olunmamış qalması, total seçki saxtakarlıqları və xalqın iradəsinə təcavüz, şübhəsiz ki, müstəsna olaraq son 20 ildə Ermənistanda mövcud olan anormal və qəddar idarəçiliklə birbaşa bağlıdır.

Ermənistanın ardınca kriminal idarəçiliyin hökm sürdüyü Dağlıq Qarabağda da analoji etirazların başlanması göstərdi ki, 20 illik Sərkisyan-Köçəryan rejimi Qarabağ ermənilərini də daxil, öz xalqına məhrumiyyətlərdən və fəlakətlərdən savayı heç nə verməyib. Yalnız varlanmaqla məşğul olub. İbrətamizdir ki, bunu indi təkcə sıravi ermənilər yox, onların rəsmiləri, yeni baş nazir də açıq şəkildə deyir, etiraf edir.

Bu yerdə "Yeni Müsavat" xatırladır ki, 2008-ci il martın 1-də İrəvanda Sərkisyan rejiminin seçki saxtakarlıqlarına etiraz edən dinc nümayişçiləri güllələtməsi nəticəsində 10 etirazçı öldürülüb. Bundan 9 il qabaq - 1999-cu il oktyabrın 27-də isə (o vaxt prezident Robert Köçəryan idi) Ermənistan parlamentinin güllələbaran edilməsi nəticəsində spiker Karen Dəmirçyan və baş nazir Vazgen Sərksiyan da daxil, 7 nəfər öldürülmüşdü. Nə mart hadisələri, nə də 27 oktyabr hadisələrinin üstü indiyədək açılıb. Bu da sizə erməni demokratiyası və hüquqi dövləti!

Ümumiyyətlə, Ermənistanın formal dövlət kimi mövcud olduğu 27 ildə orada hakimiyyət hələ bircə dəfə də olsun seçki yolu ilə dəyişməyib. 1998-ci ildə "Qarabağ klanı" Levon Ter-Petrosyanı devirərək hakimiyyəti ələ keçirib xunta rejimi qurmuşdusa, 20 il sonra - 2018-ci ilin mayında Nikol Paşinyan küçə hərəkatının təzyiqi altında "Qarabağ klanı"nı iqtidardan qovdu. Heç olmasa, hakimiyyətin bircə dəfə seçki yolu ilə dəyişmədiyi ölkələr isə demokratik hesab edilmir.

Bu mənada Paşinyanın söylədikləri acı etiraf olmaqla yanaşı, yeni məsələ də sayılmaz.

*****

"Mənim illər ərzində dediyim sözləri indi erməni xalqı deyir. Mən dünyanın ən ali - BMT kürsüsündən Ermənistanın əvvəlki kriminal rejimini ifşa etmişəm. Onları öz adları ilə çağırmışam. Onları Xocalı soyqırımında ittiham etmişəm, hərbi cinayətlərdə ittiham etmişəm. Ermənistanın əvvəlki hakimiyyətini qaniçən, kriminal, quldur rejim adlandırmışam. Bütün bunlar həqiqətdir. Mən həqiqəti demişəm, indi bu həqiqəti erməni xalqı deyir". Bu sözləri Azərbaycan prezidenti İlham Əliyev srağagün Bakıda QMİ-nin təşkil elədiyi iftar süfrəsində çıxışı zamanlı söyləyib.

**Ölkə başçısının aşağıdakı fikri də nə qədər qəribə olsa belə, hazırda Sərkisyan rejimini asıb-kəsən, onu erməni xalqını ağır duruma salmaqda suçlayan Nikol Paşinyanın, erməni KİV-lərinin, ekspert ictimaiyyətinin dedikləri və yazdıqları ilə üst-üstə düşür.**

Azərbaycan prezidenti: "Nəhayət, indi erməni xalqı anlayıb ki, onlara 20 il ərzində kriminal xunta rejimi rəhbərlik edib. O kriminal xunta rejimi ki, ancaq öz maraqlarını güdür, o rejim ki, onun yarıtmaz və cinayətkar fəaliyyəti nəticəsində Ermənistan bu acınacaqlı vəziyyətə düşüb. Mən dəfələrlə demişdim ki, Ermənistanda iqtisadi böhran, demoqrafik böhran yaşanır, ölkə boşalır, hər il on minlərlə insan o ölkəni həmişəlik tərk edir, Ermənistanda inkişaf üçün heç bir perspektiv yoxdur. Demişəm ki, Azərbaycan Ermənistanı dalana çevirib, iqtisadi, siyasi, nəqliyyat dalanına çevirib. Nəyə görə? Ona görə ki, Ermənistan torpaqlarımızı işğal edibdir. İndi bütün bunları erməni xalqı deyib və deyir. Bu, bir daha onu göstərir ki, bu münaqişədə Azərbaycan öz istədiyinə nail olacaq, həqiqəti, ədaləti bərpa edəcək".

*****

Lakin aydındır ki, Nikol Paşinyanın acı etirafları ermənilərin dərdinə məlhəm olası deyil. Əsas odur ki, onun özü hansı kursu aparacaq, enində-sonunda sələflərinin yolunu təkrarlamayacaq ki? Axı, erməni xalqının üzləşdiyi bəlaların kökündə deyildiyi kimi, ən əvvəl həlli uzanan Qarabağ ixtilafı durur. İki böyük qonşu - Azərbaycan və Türkiyə əlaqələrin dondurulması dayanır.

Bu əlaqələrin "donu" açılmadan, Ermənistanda köklü islahatlar, iqtisadi tərəqqi və rifah mümkün olmayacaq. Bəs Qarabağ "düyünü"nü yeni baş nazir necə açmaq fikrindədir? Bu problem çözülmədən öz xalqına verdiyi vədləri o, necə tutacaq?

Əfsus ki, baş nazir olandan sonra Paşinyanın Dağlıq Qarabağ mövzusunda açıqlamaları hələ ki nikbinlik üçün əsas vermir. Parlamentdəki dünənki çıxışında o, öz destruktiv mövqeyini bir daha bəyan edib. Qarabağ ermənilərinin birbaşa danışıqlara qoşulmasının vacibliyini söyləyib. Odur ki, prezident İlham Əliyevin öz çıxışı zamanı bu mövzuda ona verdiyi tövsiyə əslində son xəbərdarlıq kimi də qəbul oluna bilər. Yəni bir növ, onun da, erməni xalqının da son şansı, son unikal fürsəti məsələsi.

**Sitat:** "Ümid edirəm ki, Ermənistanın yeni rəhbərliyi əvvəlki hakimiyyətin səhvlərini təkrarlamayacaq və münaqişənin tezliklə həll olunması üçün ciddi işlər görəcək, imitasiya naminə yox, real danışıqlar prosesinə start veriləcək. Beləliklə, məsələ öz həllini tapa və Qafqaza sülh gələ bilər. Biz bunu istəyirik. Biz münaqişənin həllini tələb edirik. Bizim buna haqqımız çatır. Ümid edirik ki, bu məsələ danışıqlar yolu ilə tezliklə öz həllini tapa bilər".

❑ **"Yeni Müsavat"ın analitik xidməti**



# Ayaz Salayevdən İbrahimbəyovun ittihamına sərt cavab

## "80 yaşlı kişinin yalan danışmasına görə utanıram"

> **"Onun mənə guya kömək etməsi və ya mənim kimdənsə qorxmağımla bağlı deyilənlər ağ yalandır"**

**Kinorejissor və ssenarist Rüstəm İbrahimbəyov "Nastoyaşee vremya" kanalına geniş videomüsahibə verib.**

"Yeni Müsavat" contact.az-a istinadən xəbər verir ki, R.İbrahimbəyov yenə də özünü müdafiə etməyə çalışıb. O, bu filmlə bağlı müzakirələri öz yazısı ilə gündəmə gətirən Ayaz Salayevi də təhqir edib.

"Çıxış edənlərdən biri "qorxaq" kinoşünaş Salayev" Rüstəm İbrahimbəyovun yoldaşı olub, Rüstəm İbrahimbəyov ona köməklik edib" deyə, o bildirib.

R.İbrahimbəyov Azərbaycanda keçirilən prezident seçkilərində prezidentliyə namizəd kimi iştirakına aydınlıq gətirib. O, müxalifət liderlərini bir yerə toplayıb ki, onlar birlikdə milli bloka daxil olsunlar. Bu, mümkün olub. Cavabında müxalifət liderləri R.İbrahimbəyovun prezidentliyə namizəd olaraq çıxış etməsini şərt kimi qoyublar. O, siyasətçilər dağılmasın deyə razılaşıb. Və namizədliyini irəli sürmək üçün Rusiya vətəndaşlığından çıxması barədə ərizə verib. Ancaq Rusiya orqanları bildiriblər ki, prosedur çox uzun çəkəcək. R.İbrahimbəyov güman edir ki, vətəndaşlıqdan imtina prosedurunun yubadılması rəsmi Bakının xahişinin nəticəsidir. Ona görə də İbrahimbəyov öz yerinə Cəmil Həsənlinin namizədliyini təklif edib və dərhal müxalifətçilərin bir hissəsi Milli Şuradan çıxıb.

**Ayaz Salayev "Yeni Müsavat"a açıqlamasında R.İbrahimbəyovun onunla bağlı dediyi fikirlərə münasibət bildirdi. Dedi ki, 80 yaşındakı kişinin yalan danışmasına görə utanır:** "Qoy desin ki, kim, nə zaman mənə təzyiq göstərib və ümumiyyətlə, mənə nəsə tapşırıq verib, yaxud başqa bir adamın vasitəsilə nəsə olub. İkincisi, sadalayırsa, qoy desin ki, mənə hansı məqamda, necə kömək edib. Amma mən ona uzun bir siyahı verə bilərəm ki, mənə nə qədər mane olub. Mən bunu demək istəmirəm. Çünki elə anlaşıla bilər ki, mənim onunla şəxsi qərəzliyim var. Amma heç olmasa bir məqamı desin ki, mənə kömək edib. Heç olmasa təyinat verib ki, Moskva Kinematoqrafiyasına girim. Halbuki mən ora öz gücümlə girdim. Buradan təyinat istədim, vermədilər. Onun mənə guya kömək etməsi və ya mənim kimdənsə qorxmağımla bağlı deyilənlər ağ yalandır. Ümumiyyətlə, onun həyatı da, yaradıcılığı da belədir - şikayət eləmək".

**A.Salayev bildirdi ki, R.İbrahimbəyovun filmini seyr edəndən sonra onun tərəfini saxlayan və ya dövləti ona qarşı kampaniya aparmaqda qınayanlarla təfəkkür fərqi var. Müsahibimizin fikrincə, bəzi məsələlərə iqtidar-müxalifət prizmasından baxmaq olmaz:** "Hakimiyyət adamı da, müxalifəti də - hər ikisi anasını, balasını itirir. Elə şeylər var ki, hamı üçün eynidir. Mənə hakimiyyət tərəfindən hər hansı təzyiq göstərilməyib. Amma mən bilirəm ki, bu məqalədən sonra kampaniya başladı. Mən tam məsuliyyətlə öz boynuma götürürəm ki, bu kampaniyanın mənbəyi mənəm. Məndən əvvəl heç kim olmayıb. Mənə heç kim bu barədə tapşırıq verməyib. Başqa adam vasitəsilə məni o işə qatmayıb. Mən bir il öncə bu filmə baxdım. Baxan kimi də dəhşətə gəldim. Hansı azərbaycanlının əli gələr ki, belə bir əhvalatı yazıb, başqa bir gürcüyə versin? Yəni mən onu da deyərdim ki, bununla da o, öz uşaqlarını, Milli Şuranı pis vəziyyətə qoydu".

**"Niyə baxandan 1 il sonra bu film barədə yazdınız" sualına cavabda isə A.Salayev dedi ki, bu film onu bir il boyunca narahat edib:** "Məni yaxından tanıyanlar bilir ki, mən çox ləngəm, amma yolumdan dönmürəm. Tısbağa kimi. Heç vaxt. Bir dəfə küçədə bir adamı döyürdülər, mən ona qarışmadım. Bu, mənim vicdanıma qarşı getdiyim yeganə hərəkətdir. Bu da 2000-ci ildə olub. Bu günə qədər də o, məni narahat edir. Düzdür, təqsir yaşlı adamda idi. Amma onu döydülər və mən buna müdaxilə etmədim. Mən etdiyim hər bir hərəkətə görə cavabdehəm və məsuliyyət daşıyıram. O deyir ki, guya məni sındırıblar, məcbur ediblər. Bu, qeyri-mümkündür. Mənim kinoşünas tələbələrim var. Onlara hər zaman deyirəm ki, heç vaxt tapşırıqla heç nə yazmayın. Sevdiyiniz filmi tənqid, sevmədiyiniz filmi tərifləməyin. Haradasa, hansısa məqamdasa ondan istifadə edən olubsa, olub. Hər şeydən istifadə etmək olar. Amma yenə də deyirəm ki, çox sevinirəm ki, bunu etmişəm. Çox bayağı bir adam Rüstəm İbrahimbəyovu azadlıqsevər, üsyankar, demokratiya sevər kimi görə bilər".

**Müsahibimiz sonda onu da vurğuladı ki, R.İbrahimbəyov və onun kimi düşünənlər Rusiya imperiyasının qalıqlarıdır:** "Mənim tələbələrim var. Hər biri hazırlıqlı və yüksək səviyyəli. Gələcək də onların əlindədir".

❑ **Sevinc TELMANQIZI,
"Yeni Müsavat"**

# Kürdlərə yeni muxtariyyət planı

## Vaşinqton ərəbləri niyə Suriyanın şimalına cəlb etməyə çalışır?

**ABŞ Suriya kürdlərini kənara sıxışdırmayacaq. Bu barədə ötən gün müdafiə naziri Ceyms Mattis jurnalistlərə deyib. Türkiyə və ABŞ arasında Menbic mövzusunda əldə olunan anlaşmaya toxunan Mattis deyib ki, Vaşinqton Türkiyənin PYD ilə bağlı narahatlığını nəzərə alaraq, təbii mənfəətləri üçün bir yol tapmağa məcburdur, lakin kürdləri də "kənara itələməyəcəklər".**

ABŞ müdafiə nazirinin sözlərinə görə, kürdlər İŞİD-ə qalib gəlib və hazırda bu mübarizə davam edir. Bu isə o deməkdir ki, ABŞ kürdləri dəstəkləməkdə davam edəcək. ABŞ-ın eyni anda həm Türkiyənin, həm də Suriya Demokratik Qüvvələrinin (kürdlərin - K.R.) müttəfiqi olacağı ilə bağlı suala cavab olaraq Mattis deyib ki, qarışıq bir vəziyyət yaranıb, hətta onun rastlaşdığı ən qarışıq savaş meydanıdır.

Xatırladaq ki, bazar ertəsi ABŞ və Türkiyə xarici işlər nazirlərinin əldə etdiyi Menbic razılığına və qəbul olunan "yol xəritəsi"nə əsasən qarşıdakı 6 ay ərzində 3 mərhələdə Menbic kürd silahlılarından azad ediləcək, YPG silahını təhvil verərək bölgəni tərk edəcək. Daha sonra yerli özünüidarə orqanları formalaşdırılacaq və Ankara ilə Vaşinqton bölgənin təhlükəsizliyinin təminatçısı kimi çıxış edəcək.

Qeyd edək ki, Menbic Türkiyə-Suriya sərhədinə yaxın, Fərat çayının qərb sahilində yerləşən ərazidir. Bu ərazinin şimalı Türkiyə ilə sərhəd, qərb hissəsi isə yenə də "Fərat Kalkanı" əməliyyatı nəticəsində azad edilmiş və hazırda Türkiyə və müttəfiq qüvvələrinin nəzarətində olan bölgədir. Türkiyə bu bölgəyə əməliyyat hazırlasa da, Afrin əməliyyatından sonra proses dayandı. Bunun əvəzində ABŞ Menbicə yeni qüvvələr yerləşdirdi və əlavə olaraq Fransa da Menbicə öz qüvvələrini göndərdi.

Türkiyə hökuməti hesab edir ki, Menbic hazırda PYD terror təşkilatının silahlılarının nəzarəti altındadır. Bu səbəbdən də Ankara bəyan edib ki, Vaşinqton bölgədən çəkilməli və Türkiyə ordusu bölgədə əməliyyatlara başlamalıdır. Son anlaşma PYD silahlılarını Menbicdən müəyyən qədər uzaqlaşdırır. Lakin belə görünür ki, Vaşinqton Suriyanın şimalında kürdləri dəstəkləməkdə davam edəcək.

Bu arada məlum olub ki, ABŞ Suriyadakı kürd bölgələrinə ərəb ölkələrinin silahlı qüvvələrini cəlb etmək istəyir. Söhbət Misir, Səudiyyə Ərəbistanı, BƏƏ, İordaniyadan gedir. Bir qədər əvvəl hətta bir neçə ərəb ölkəsindən hərbi təlimatçıların kürd bölgələrinə səfər etməsi ilə bağlı məlumat yayılıb. Hətta Səudiyyə hökumətinin Suriyanın şimalındakı kürd qüvvələrinə maddi dəstək verməsi, ərəb ölkələrinin İŞİD-dən azad edilmiş Raqqa şəhərinin bərpasını həyata keçirmək istədiyi haqda məlumatlar yayılıb.

Təbii ki, ərəb ölkələrini Suriyaya dəvət edən ABŞ-dır. O da məlumdur ki, Misir, BƏƏ, İordaniya və Səudiyyə Ərəbistanı Suriyaya məhdud sayda da olsa hərbi qüvvə göndərməkdə maraqlıdır. Çünki bununla Suriyada birbaşa hərbi iştiraka nail olub, regionda nüfuz dairəsini genişləndirib və əsas rəqibləri İranla mübarizə apara biləcəklər. Ancaq hələlik bunu etməyə cəsarət etmirlər. Çünki Rusiya, Türkiyə və İranın sərt reaksiyasından ehtiyat edirlər.

Amma təbii ki, ABŞ-ın müvafiq dəstəyindən sonra ərəb ölkələrinin Suriyanın şimalına yerləşməsi gerçəkləşə bilər. Bu zaman İran, İraq və İranla yanaşı, körfəz ölkələri son illərdə soyuq münasibətlərə malik olduqları Türkiyəyə qarşı da təzyiq rıçaqları əldə edəcəklər. Bu səbəbdən də ərəb ölkələri bu layihəyə maraq göstərir. Görünür, Vaşinqton bunun üçün müvafiq uyğun şəraitin yaranmasına çalışır. Lakin ərəblərin Suriyanın şimalına gəlməsi əlavə risk deməkdir. Çünki bundan sonra qüvvələr arasında parçalanma daha da dərinləşəcək, partizan müharibəsi daha da şiddətlənəcək və bu sahədə təcrübəsi olmayan ərəb ölkələri ciddi sınaqlarla üzləşəcəklər. Ən təhlükəlisi isə regionda yenidən cihad qruplarının fəallaşması riskidir.

Bu vəziyyətdə Vaşinqton məhz region ölkələrinin də iştirakı ilə Suriyanın şimalında çoxmillətli qüvvələr koalisiyası yaratmaq və nəticədə kürdlər üçün SDQ çətiri altında yerli özünüidarə - muxtariyyət almağı planlaşdırır. Ərəblərin Suriyanın şimalına yerləşməsi məhz bu plan üçün gərəklidir.

❑ **Kənan RÖVŞƏNOĞLU,
"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 124 (7013) 8 iyun 2018



# Mübarək ayda bağışlanma fürsəti

Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**Din, inanc məsələsi yüz illərdir cəmiyyətlər və hakimiyyətlər üçün həssas mövzu olaraq qalır. Ona siyasət bulaşanda vəziyyət daha da qəlizləşir. Çünki siyasət konkret fəaliyyət sahəsi, peşədirsə, inanc sistemi - bütün zamanlar üçün, hakimiyyətlərdən asılı olmayaraq dəyişməz qalan yaşam tərzidir, hətta adət-ənənədir.**

Siyasətdə yalan-palan ola bilir, bəzən ən əxlaqlı siyasətçi belə, hansısa marağa, dövlət mənafeyinə görə buna getmək zorunda qalır. Din, inanc isə yalanı və yalançını sevməz, onu dərhal çıxdaş edər. Nəhayət, siyasətçilərin hazırladığı qanun-qaydalar dəyişə, dəyişdirilə bilərsə, inanc sistemi, ilahi qanunlar və tabular bütün zamanlar üçün keçərlidir, dəyişməzdir.

"Dində məcburiyyət yoxdur". Müqəddəs Qurandakı bu ayə ("Bəqərə" surəsi) İslamın tolerant din olduğuna şəkkşübhə saxlamayan güclü bir dəlildir. Azərbaycanda radikal dini cərəyanlar xaric, istənilən dinə, təriqətə, etiqada dözümlü münasibət var. Bu, sözsüz ki, toplum olaraq, bizim üstün cəhətimizdir. Azərbaycan cəmiyyətini yaxşı mənada dünyada tanıdan bir "marka"dır.

Yeri gəlmişkən, məhz bu üstünlük İŞİD-in dünyaya meydan suladığı vaxtlarda ona Azərbaycanda ayaq açmağa imkan vermədi. Şəksiz ki, milli təhlükəsizlik xidmətinin fəaliyyəti də var. Ancaq aparıcı amil ölkədəki inanclı kəsimin İŞİD-çiləri, radikalizmi anti-insani bir cərəyan olaraq kökündən iqnor eləməsi oldu. Dinin, Quranın təhrifi üzərində qurulan İŞİD radikal məfkurəsi Azərbaycanda özünə münbit zəmin tapa bilmədi və elə sərhəddəcə gözləyə-gözləyə "quruyub" getdi...

Sözü ona gətiririk ki, tolerant mühit - daxildə dinlə, inancla, imanla bağlı da istənilən məsələni konstruktiv atmosferdə, qarşılıqlı ittihamlar olmadan, heç kimi aşağılamadan dinc polemikaya çevirməyi mümkün edir. Xüsusən də tərəflər eyni dinin daşıyıcısı, daha dəqiqi, iman əhlidirsə, ziyalıdırsa, polemikaya açıq olması gərəkir.

Əfsus ki, mübarək ayda da bəzi imanlı ziyalılar kiminsə haqqına girir, onu aşağılamaqla özünü yüksəltməyə, "daha yaxşı müsəlman" kimi görünməyə çalışır. Yəni Allahın insanda, illah da müsəlmanda bəyənmədiyi təkəbbürə varır. Halbuki, islam peyğəmbəri (ə) "Sizlərdən (möminlərdən) ən yaxşısı insanlara faydalı olandır" deyib.

Yəni tənqidlə təhqirin sərhədini dəqiqləşdirmək kimi əbədi problem...

Ötə yandan, obrazlı desək, islam dini üçün konstitusiya Qurani-kərimdir. İnid kimsə ona əməl eləmirsə, onu pozursa, Quran günahkar sayılmaz. Özü bilər, Allahı bilər. Yalnız Qurana nəzərən kimin daha yaxşı müsəlman olması bilinər. Heç kim Allahın yerinə hökm verə bilməz.

Amma bir də görürsən, ömründə 2 rükət namaz qılmayan, 1 gün oruc tutmayan, Ramazan ayında belə ağzı içkidən ayrılmayan birisi özünü müsəlman saydığını deyir, İslamın təməl şərtləri olan namaz-oruc ibadətlərini pis-yaxşı yerinə yetirməyə çalışana dodaq büzür, iman dərsi keçmək istəyir, "filankəs yaxşı mömin deyil", "bəhmənkəs cahildir" deyir, hətta dinlə bağlı hökm verir.

Amma daha sən yox ki! Yenə kimsə nəsə etməyə səy edir. Əcəba, sənin əməlin, dinin, etiqadın nə? "Konstitusiya" - Quran ortada. Sən öncə öz davranışınla, əməlinlə, işinlə bu "konstitusiya"ya hamıdan yaxşı riayət etdiyini göstər, nümunə qoy, örnək ol. Hamı da desin, əhsən, müsəlman bax, elə bu cür olmalıdır. Çünki islam əxlaq dinidir, sözdən çox əmələ dəyər verən sistemdir...

Peyğəmbərimiz bunu da buyurub ki, "Bilmədiyinə görə insana günah yazılmaz". Demək, bilib əməl etməyənlərin vay halına. Nəzərə alsaq ki, bilənlərin boynunda həm də başqaları üçün maarifçi olmaq missiyası var, o zaman ziyalı-müsəlmanın məsuliyyət ikiqat artmış olur...

Mübarək ayın sonuncu həftəsini yaşayırıq. Peyğəmbər əfəndimiz (s) şeytanın zəncirləndiyi bu əzəmətli aydan imanı daha kamil şəkildə çıxmayanları, Allah tərəfindən bağışlanmamış çıxanları "bədbəxt" adlandırıb.

Fürsəti qaçırmayaq. Günaha və haqqa girənlərdən, bədbəxtlərdən və təkəbbürlülərdən deyil, bağışlananlardan və bağışlayanlardan olaq!..

# Fazil Məmmədovun "qanadlarını" aldılar

## Bacısı oğlu Fazil Məmmədovun "Qolfstrim" təyyarəsini ondan almaq məcburiyyətində qaldı

**17 il Vergilər Nazirliyinə rəhbərlik etmiş Fazil Məmmədovun "Qolfstrim" markalı təyyarəsi "AtaBank"dan götürdüyü milyonlarla manat kreditlə əvəzləşdirilib. Bu haqda yayılan son məlumatlar yeni deyil.**

İlin əvvəlində sabiq nazirə məxsus təyyarənin əlindən alınacağı haqda xəbərlər vardı. Bu təyyarə bir vaxtlar Fazil Məmmədovun nəzarət etdiyi "AtaBank"dan ona verilən milyonlarla manat dəyərindəki kredit qarşılığında girov qoyulmuşdu. Nazir olduğu vaxt krediti vaxtında ödəyən Fazil Məmmədov işdən çıxarıldıqdan sonra ödənişləri etməyib. Bu səbəbdən də şəxsi təyyarəsi əlindən alınıb. Bildirək ki, hazırda "AtaBank"ın İdarə Heyətinin sədri Fazil Məmmədovun bacısı oğlu Dəyanət Quliyevdir. Sabiq nazirin təyyarəsinin 20-30 milyon manat dəyərində olduğu bildirilir.



F.Məmmədov ötən il dekabrın 5-də prezident İlham Əliyevin sərəncamı ilə vergilər naziri vəzifəsindən azad edilib. O, vəzifəsindən çıxarılmazdan əvvəl belə xəbərlər yayılmışdı ki, F.Məmmədov özünü diplomatiya sahəsində sınamaq istəyir. Bildirilirdi ki, o, keçmiş sovet respublikalarından birinə səfir göndərilməsinə nail olmaq üçün hərəkətə keçib. Və bununla bağlı hətta "yuxarılara" xahiş də edib. Vəzifədən çıxarılandan dərhal sonra bu mövzu aktuallaşdı. Həmin ərəfədə ölkəmizin Tacikistandakı səfirinin geri çağırılması F.Məmmədovun arzusunun gerçəkləşə biləcəyi yönündə iddiaları artırmışdı. O da qeyd olunurdu ki, əgər Fazil Məmmədovun işdən çıxarılması hansısa qəzəbin təzahürü deyilsə, sadəcə, 17 illik naziri yenisi ilə əvəzləmək istəyindən irəli gəlibsə, o zaman sabiq nazirin səfir istəyi reallaşa bilər. Amma iqtidar bu yöndə Fazil Məmmədovun ətrafının apardığı spekulyasiyanın qarşını alan addım atdı. Tacikistan Respublikasına fövqəladə və səlahiyyətli səfir təyin olundu. Hazırda Fazil Məmmədovun taleyi ilə bağlı müəmma davam etsə də, böyük ehtimalla o da sabiq nəzliyyat naziri Ziya Məmmədov kimi komandadan birdəfəlik uzaqlaşdırılanlar sırasında yer alıb. Onun işdən qovulmasında böyük pul oğurluğunun əsas rol aldığı iddia olunur. Bu iddia hələ də təkzib olunmayıb. Söhbət ölkədən çıxarılan 4 milyard 500 milyon manat "qara pul"dan gedir. İddialara görə, Fazil Məmmədov yaxın ətrafı üzərindən büdcəyə daxil edilməli pulları xaricdəki hesablara ötürüb. Gələn məlumatlara görə, Fazil Məmmədov vergi şəklində yığılaraq müxtəlif gizli hesablara yönləndirilən pullar geri qaytarılmasa, onun və yaxın ətrafının həbsi gerçəkləşə bilər. Bu xüsusda Hafiz Hacıyevin Fazil Məmmədovun 4-5 milyard dollar sərvəti olması haqda fikirlərini sıradan sözlər hesab etmək olmaz. Onun sözlərinə görə, araşdırma aparmaq lazımdır ki, bu qədər pulu necə toplayıb.

**Sitat: "Bu adamları elə-belə buraxmaq olmaz. Pullarını əllərindən almaq lazımdır. Yoxsa ölkəni qarışdırmaq üçün müxtəlif qüvvələrə pul paylayacaqlar".**

F.Məmmədov müalicə adı ilə ölkədən getmək niyyətində də bulunub. Lakin onun ölkədən çıxması münasib bilinməyib...

**❑ E.HÜSEYNOV, "Yeni Müsavat"**

# ƏMDK şəhid ailəsinin ittihamlarına cavab verdi - "Yalandır..."

## "Onlara bildiriş göndərilib, hərracda iştirak etməkdən imtina ediblər, digər şəxslər həmin əmlakı alıblar"

**Bakı şəhər sakini Asya Mirzəyeva redaksiyamıza gələrək şikayət edib ki, Sabunçu rayonu, Bakıxanov qəsəbəsi, Y.Əliyev küçəsi 26 ünvanında yerləşən, mərhum həyat yoldaşına məxsus qeyri-yaşayış sahəsi qanunsuz olaraq başqasına satılıb. Sitat: "Oğlum Qarabağ döyüşlərində şəhid olub, ölümündən sonra da "Azərbaycan bayrağı" ilə təltif olunub. Təxminən 1999-cu ildən bu ilin may ayına qədər qeyd olunan sahəni götürüb həyat yoldaşımla birgə işlədirdik. Maddi durumumuz aşağı olduğu üçün ümid yerimiz həmin sahə idi. Qeyri-yaşayış sahəsi olsa da, həyat yoldaşımla birgə oranı təmizləyib, qaydasına salıb, xeyli xərc çəkmişdik. Qanuni olaraq həmin sahənin sahibi kimi müqaviləmiz də var idi. Həyat yoldaşım dünyasını dəyişdikdən sonra sahəni yeznəm İmran Mirzəyev istifadə etməyə başladı. Bunu qanuniləşdirmək, müqaviləni onun adına keçirməyə çalışdıq. Lakin müraciət etdiyimiz qurumlardan bizə heç bir cavab verilmədi. Nəticədə özüm obyekti işlətməyə çalışdım. Yeri özəlləşdirmək, bu dəfə öz adıma keçirmək üçün də müxtəlif qurumlara müraciət etdim.**



**Mənə heç bir cavab verilmədi. Bu ilin may ayında isə xəbər tutdum ki, xəbərim olmadan sahə başqasına satılıb. Bu haqda dəfələrə Əmlak Məsələləri Dövlət Komitəsinə ərizələrə müraciət etdim. Komitədən şikayətimə baxılmadı".**

Əmlak Məsələləri Dövlət Komitəsi şəhid ailəsinin onlara qarşı səsləndirdiyi ittihamlara cavab verib. Komitənin ictimaiyyətlə əlaqələr və informasiya şöbəsinin müdiri **Qulu Xəlilov** musavat.com-a bildirib ki, Bakı şəhəri, Sabunçu rayon sakini Asya Mirzəyevanın xəbəri olmadan yerinin satışa çıxarılması yalandır: "Bəzi vətəndaşlar iddia edirlər ki, bizim xəbərimiz olmadan onların əmlakları özəlləşdirilməyə çıxarılır. Özəlləşdirmə sahəsində Əmlak Məsələləri Dövlət Komitəsi kifayət qədər məlumatlandırma işləri aparır. Şəffaflığın, özəlləşmənin, məlumatlandırmanın geniş aparılması üçün ayrıca sayt yaratmışıq. **www.stateproperty.gov.az.** Saytda hərraca çıxarılan bütün müəssisələr, qeyri-yaşayış sahələri, icarəyə verilmiş əmlaklar, səhmdar cəmiyyətlərin əmlakı, bələdiyyə torpaqlarının hərracları ilə bağlı bütün məlumatlar bir ay öncədən yerləşdirilir. Hətta hərraca çıxarılan müəssisələrin ünvanı, sahəsi, ilkin hərrac qiyməti, 10 faiz behin məbləği və s. də yazılıb. Ondan əlavə, bizim mətbu orqanımız var. "Mülkiyyət" qəzeti 1996-cı ildən dərc olunur. Özəlləşmə ilə məşğul olan və özəlləşmədə iştirak etmək istəyən vətəndaşlar bu qəzeti tanıyır. Buna rəğmən bütün özəlləşdirilən əmlakların istifadəçilərinə öncədən bir neçə dəfə rəsmi müraciətlər olunub ki, siz əmlakınızı özəlləşdirməyə gəlin. A.Mirzəyevanına heç ticari müqaviləsi də olmayıb. Onlar, sadəcə, dövlət əmlakını zəbt edib, orada fəaliyyət göstəriblər. Onlara dəfələrlə xəbərdarlıq olunub. Dəfələrlə onlara rəsmi qaydada məktubla müraciət olunub ki, gəlin, rəsmi qaydada özəlləşdirin, öz əmlakınız kimi işlədin".

**Əmlak Məsələləri Dövlət Komitəsi rəsmisinin sözlərinə görə, sözügedən ərazi - Sabunçu rayonu, Bakıxanov qəsəbəsi, Y.Əliyev küçəsi 26 ünvanda yerləşən qeyri-yaşayış sahəsi məhkəmə predmeti də olub:** "Məhkəmə dövlətin xeyrinə qərar verib. Onlar icra nümayəndələrini əraziyə yaxın buraxmayıblar. Onlar, deyəsən, orada taxta sexi işlədiblər. Hətta qonşular da onların barəsində polisə və icra hakimiyyətinə dəfələrlə şikayət ediblər ki, orada səs-küy yaradır, asayişi pozur, qonşulara istirahət etməyə imkan vermirlər. Dövlət əmlakı özəlləşdirilməlidir ki, dövlət büdcəsinə vəsaitlər daxil olsun. Kimsə müdir olub əmlakı işlədibsə, bu demək deyil ki, əmlak onun şəxsi mülkiyyətidir. Əmlak dövlətindir və dövlət də öz əmlakını özəlləşdirir, sonra çıxarırıq hərraca. Hərraclar kifayət qədər şəffaf keçirilir. İstənilən vətəndaş hərracda iştirak edə bilər. O müəssisə bir neçə dəfə hərraca çıxarılıb. Hərracda iştirak etməkdən imtina ediblər, digər şəxslər həmin əmlakı alıblar".

**❑ Ləman MUSTAFAQIZI, "Yeni Müsavat"**

# "Qazprom" Azərbaycanın enerji layihəsinə qarşı

## ABŞ-ın ölkəmizdəki sabiq səfirindən ilginc açıqlamaya Bakıdan reaksiya

**İtaliya parlamentinin rusiyapərəst qüvvələrin formalaşdırdığı hökumət tərkibini təsdiqləməsindən sonra Azərbaycan qazını Avropaya çatdıracaq Trans-Adriatik Boru Kəməri (TAP) ilə bağlı narahatlıqlar artır.**

Xatırladaq ki, mart ayında İtaliyada keçirilən parlament seçkilərində sol təmayüllü və Rusiyaya qarşı isti münasibəti ilə tanınan "Liqa" və "Beş ulduz" partiyaları yüksək səs toplayaraq koalisyon hökumət formalaşdırmaq imkanı əldə ediblər. Üç aya yaxın davam edən böhrandan sonra hüquqşünas Cüzeppe Kontenin təqdim etdiyi kabinet Senat tərəfindən təsdiqlənib. Hər iki partiya yalnız Rusiya sevgiləri ilə deyil, həm də TAP-a qarşı təbliğata rəhbərlikləri ilə tanınır.

TAP-ın Rusiyanın Avropadakı qaz hökmranlığına qarşı yönəlmiş Cənub Qaz Dəhlizinin tərkib hissəsi olduğunu nəzərə alsaq, Şimal qonşumuzun ona mane olmaq üçün İtaliyadakı tərəfdarlarından yararlanması ehtimalının xeyli yüksək olduğunu söyləyə bilərik. Təsadüfi deyil ki, bir müddət öncə ABŞ-ın Azərbaycandakı keçmiş səfiri Metyu Brayza TAP-a qarşı etirazların arxasında Rusiyanın qaz nəhəngi olan "Qazprom"un dayandığını bildirib (virtualaz.org). Onun sözlərinə görə, TAP-a qarşı İtaliya və Yunanıstanda olan etirazların heç bir obyektiv əsası yoxdur: "Mən bilirəm ki, İtaliyada bu məsələ ağacların müdafiəsi adı altında başladılmışdı. TAP rəhbərliyi bu problemi etirazçıların arzularına tam uyğun şəkildə həll etdi. Buna rəğmən, müəyyən insanlar TAP-la bağlı yenə etirazlar edirlər. Bu, etirazların ekoloji xarakterli olmadığını göstərir. Etirazlar daha çox Azərbaycan qazının rəqiblərinin siyasi və kommersiya maraqları ilə bağlıdır. Bütün bunun arxasında Rusiyanın "Qazprom"u dayanır".




**Mayın 29-da Cənub Qaz Dəhlizinə ilk qazın vurulması mərasimindən sonra Rusiya prezidenti Vladimir Putinin bu layihə ilə bağlı dedikləri də diqqəti cəlb edir:** "Biz enerjidaşıyıcılarının Avropa bazarlarına çatdırılması yollarının diversifikasiyasını alqışlayırıq. Bu sahədəki bütün iqtisadi fəallığı alqışlayırıq. Bu, işləmək üçün bazar yaradır. Bizi narahat edən yalnız bir məsələdir ki, bazar şəraiti bütün oyunçulara eyni yanaşılmasını tələb edir. Lakin bildiyiniz kimi, Avropa Birliyi tərəfindən Cənub Qaz Dəhlizinə xüsusi güzəştlər verilib, bu layihə 3-cü energetik paketin təsir dairəsindən çıxarılıb. Bu halda sual yaranır ki, bəs "Cənub axını"na niyə belə dəstək verilmədi? Bolqarıstanın digər ölkələrdən nəyi əskikdir? Biz ümid edirik ki, Brüsseldəki tərəfdaşlarımızla müzakirələrin gedişində bütün bu məsələlər yoluna qoyulacaq. Hamımızın istəyi odur ki, enerji bazarında hamı üçün əlverişli şərtlər yaradılsın: həm satıcılar, həm də alıcılar üçün".

Maraqlıdır ki, son aylarda İtaliyada TAP-a qarşı etirazlar bir qədər səngiyib. Bunu TAP AG layihəsinin prezidenti Valter Pirayer deyib. Onun sözlərinə görə, İtaliya hökuməti və aparıcı siyasi partiyalar ölkə üçün layihənin əhəmiyyətini anlayırlar.

Bununla bərabər, "No TAP komitəsi" adlanan təşkilat əhalidə narazılıq yaratmaq cəhdlərindən əl çəkmir və boru kəmərinin region üçün təhlükəli olmasını sübut etməyə çalışır.

"Biz TAP layihəssini fəal şəkildə həyata keçiririk və işlər qrafik üzrə aparılır, qalan işləri isə qoy siyasətçilər həll etsinlər", - deyən Prayer əlavə ümid etdiyini bildirib ki, 2020-ci ildə boru kəməri istifadəyə veriləcək (virtualaz.org).

Kəmər əleyhinə olan qüvvələrin hökumət başına gəlməsi TAP üçün təhlükələri artırırmı? İtaliyada hakimiyyətdə olan partiyalar layihəyə qarşı fəaliyyətlərini rəsmiləşdirsələr, Azərbaycan hansı addımları ata bilər?

**Suallara cavab verən Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şaban deyir ki, TAP-ın böyük hissəsi artıq icra olunub:** "İtaliya hökuməti lazım olan bütün icazələri verib kəmərin çəkilişi üçün. Ən yüksək səviyyədə bütün iddialara baxılıb, layihəyə yaşıl işıq yandırılıb. Bundan sonrakı mərhələdə nə Yunanıstanda, nə də Albaniyada layihənin gecikmə ehtimalı yoxdur. İtaliyada hər hansı gecikmə olsa, onunla bağlı bütün məsələlər düşəcək boru kəməri konsorsiumunun üzərinə. Hüquqi prosedur belədir ki, hər hansı manеə yaradıldığı təqdirdə konsorsium yerli icra strukturlarını məhkəməyə verəcək. Layihənin icrasının vaxtında başa çatmasını təmin etmədiklərinə görə".

**Ekspertin sözlərinə görə, Azərbaycan qazı 2020-ci ilin birinci rübündə Avropa bazarına çatmalıdır:** "Alıcıların qazı ala bilmədiyi hər gün üçün daşımaçı şirkətlər onlara 500 min dollar təzminat ödəyəcəklər. Daşımaçı şirkətlər isə bunu məhkəmə yolu ilə İtaliyadan alacaqlar. Bu, elə-belə sözlər deyil. Necə ki, vaxtilə Türkiyə 1 milyard dollar ödəməli oldu, İtaliya da eyni qaydada ödəyəcək. Azərbaycan isə satıcı olaraq çatmasa belə, müqavilədə nəzərdə tutulan həcmdə qazın pulunu alıcılardan alacaq. Burada Azərbaycanın itkisi yalnız SOCAR-ın 20 faizlik payına görə ola bilər".

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

# Bank sektorunu xarici şoklardan necə qorumalı?

## Rəşad Həsənov: "Çıxış yolu bu sektorda təməl islahatların aparılmasıdır"

**Dünya Bankı növbəti dəfə hesabatında Azərbaycan iqtisadiyyatının inkişaf tempini qiymətləndirib və bəzi müsbət məqamlarla yanaşı problemlərin qaldığını da qeyd edib.**

Bu beynəlxalq qurumun "Qlobal İqtisadi Perspektivlər" adlı yeni hesabatında bildirilir ki, Azərbaycanda iqtisadi artımı üç əsas faktor - fiskal stimullaşdırma tədbirləri, yüksək neft qiymətləri və qaz hasilatının artması şərtləndirir.

Hesabatda o da qeyd olunub ki, 2017-ci ildə neft hasilatında azalma qeyri-neft sektorundakı yüksək inkişaf templəri və həyata keçirilən fiskal stimullaşdırma tədbirləri ilə kompensasiya olunub.

Dünya Bankının ekspertlərinin fikrincə, həyata keçirilən uğurlu islahatlara baxmayaraq, Azərbaycanın bank sektoru hələ də xarici şoklara qarşı həssasdır.

Hesabatda ən diqqət çəkən məqam da məhz sonuncu cümlədir. Bu o deməkdir ki, ölkənin bank sektoru istənilən bir xarici şokdan təsirlənərək daha böhranlı vəziyyətə düşə bilər. Necə ki, 2014-cü ilin sonlarından başlayaraq neftin kəskin ucuzlaşması və bunun nəticəsində manatın dollar qarşısında kəskin devalvasiyaya uğraması bank sektoru üçün ağır nəticələrlə yadda qaldı.

Bəs görəsən, ölkənin bank sektoruna təsir edə biləcək hansı xarici şoklar yaşana bilər? Bankları bu şoklardan necə sığortalamaq mümkündür?

**Mövzu ilə bağlı "Yeni Müsavat"a açıqlama verən iqtisadçı ekspert Rəşad Həsənov bildirdi ki, xarici şoklar dedikdə Azərbaycan üçün ən xarakterik olanı neftin qiymətidir:** "Çünki ölkə iqtisadiyyatı bütün sahələrdə, o cümlədən maliyyə sahəsində neft gəlirlərindən birbaşa və dolayı yolla asılı olduğu üçün qara qızılın dünya bazarında kəskin ucuzlaşması bank sektoruna da ciddi təsir göstərir. Biz 2015-ci ildə bunu Azərbaycanın bank sektorunda müşahidə etdik və hazırda da bu problem yaşanmaqdadır.




Bundan başqa, qlobal bazarlarda dönərli valyutaların, xüsusilə də avro və dolların məzənnəsində müşahidə edilən dəyişikliklər, bankların xarici valyutalarla bağlı mövqeyinə uyğun olaraq mənfi təsir göstərir. Xarici şok dedikdə həmçinin borclanma faizləri nəzərdə tutulur. Dünya bazarlarında borclanma faizləri artırsa, bu bankların da faiz öhdəliklərini artırır. Son nəticədə bankların gəlirlərinin formalaşmasına neqativ təsir göstərir, xərclərini artırır. Bunlar əhəmiyyətli məqamlardır. Bu gün Azərbaycanın bank sektorunda likvitliyin zəif olması, valyuta mövqeyinin hazırki bazar konyukturunda tam balanslaşdırıla bilməməsi əsas zəif nöqtələrdir. Dünya Bankı da bu kimi məqamları nəzərə alaraq öz rəyini bildirib".

**R.Həsənovun fikrincə, problemlərin aradan qaldırılması o qədər də asan deyil:** "Qısamüddətli dövrdə onları, sadəcə, kosmetik dəyişikliklərlə həll etmək mümkün deyil. Bank sektorunda əsaslı islahatların aparılmasına ehtiyac var, problemlərin kökünün öyrənilməsinə ehtiyac var. Problemlər əsasən 2015-ci ildə baş verən devalvasiyalardan qaynaqlandı. Səbəb isə o idi ki, banklar zamanında düzgün olmayan kreditləşmə siyasəti apardılar, valyuta mövqeyini düzgün müəyyənləşdirmədilər. Bütün bu neqativ hallar devalvasiyalar fonunda ən sərt formada üzə çıxdı. Bank sektoru Azərbaycan tarixində özünün böyük böhran dövrünü yaşayır".

**İqtisadçı vurğuladı ki, bu vəziyyətdən çıxmaq üçün ilk növbədə problemli kreditlər həll edilməlidir və bankların toksik aktivlərinin həcmi azaldılmalıdır:** "Hazırda bu, kritik həddədir, problemli kreditlər 14 faizin üzərindədir. Bank sektorunda tənzimləyici qurumun- indiki halda Maliyyə Bazarlarına Nəzarət Palatasının həyata keçirdiyi tədbirlərin zəif olması da bu məsələdə rol oynayır. Sözügedən qurumun müstəqilliyində problemin olmasından qaynaqlanan çətinliklər də var. Bu çətinliklərin də aradan qaldırılmasına ehtiyac var. Problemli kreditlərlə bağlı dəfələrlə təkliflər verilsə də, bunlardan heç biri qəbul olunmayıb. Bu baxımdan standartlar dəyişdirilməlidir. Mərkəzi Bank tərəfindən müəyyənləşdirilən normativlərin dəyişdirilməsinə də ehtiyac var. Bankların kredit siyasəti qanunvericilik və hüquqi təminat baxımından sərtləşdirilməli, eyni zamanda da banklar kreditləşməyə təşviq edilməlidir. Bu gün Mərkəzi Bank uçot dərəcəsini azaldır, ancaq eyni zamanda bankların kredit portfeli də kiçilir. Artıq bank sektoru o qədər deaktiv olub ki, faktiki olaraq Mərkəzi Bankın kredit faizlərində etdiyi dəyişikliklərə də adekvat reaksiya vermir. Bu isə o deməkdir ki, tənzimləyici qurumlar bank sektorunda ciddi təsir gücünə malik deyillər. Bütövlükdə sektorda sistemli dəyişikliklərin aparılması, bankların qruplaşdırılması çox vacibdir. Ləğv edilməsi gözlənilən banklar, problemli banklar və nisbətən daha sabit vəziyyətdə olan banklar olaraq qruplaşdırılması mümkündür. Problemli banklarla stabil bankların birləşdirilməsi istiqamətində təşəbbüs ortaya qoyulmalıdır. Tələb olunan məcmu kapitalının həcminin artırılması da önəmli məqamlardan biridir ki, banklar birləşməyə vadar olsunlar".

**R.Həsənovun sözlərinə görə, bankların kredit portfelinin strukturu ilə bağlı öhdəliklər müəyyən edilməlidir:** "Bu, müəyyən qədər doğru yanaşma olmaya bilər. Kapitalın idarə edilməsi biznesin öz hüququ kimi qiymətləndirilə bilər. Lakin göründüyü kimi banklar düzgün kredit siyasəti həyata keçirmirlər. Normativlərdə müəyyən öhdəliklərin təyin edilməsinə ehtiyac var ki, kreditin strukturunda istehlak kreditlərinin həcmi ilə biznes kreditlərinin həcmi nə qədər olsun. Çıxış yolu bu sektorda təməl islahatların aparılmasıdır".

❑ **Nərgiz LİFTİYEVA, "Yeni Müsavat"**

**Dünya Bankının (DB) proqnozlarına görə, yaxın illərdə yeni qlobal iqtisadi böhran gözlənilir. Bu barədə qurumun "Qlobal iqtisadi perspektivlər" icmalında deyilir. İcmalda bildirildiyinə görə, yaxın iki il ərzində qlobal sarsıntılar gözləməyə dəyməz, lakin 2019-cu ildən sonra vəziyyət dəyişə bilər. Bunun səbəbi isə dünya üzrə iqtisadiyyatın artım sürətinin zəifləməsidir.**

# Dünya yeni maliyyə böhranı astanasında: Azərbaycanı nə gözləyir?

## **Qubad İbadoğlu:** "Böhran Azərbaycana o zaman təsir edər ki..."



Belə ki, 2017-2018-ci illərdə dünya iqtisadiyyatı orta hesabla illik ÜDM-in 3,1 faizi həcmində artmışdısa, 2020-ci ildə bu göstərici 2,9 faizə enəcək (virtualaz.org).

Dünya Bankı xatırladır ki, iri maliyyə böhranları təxminən hər 10 ildən bir baş verir. Sonuncu dəfə bu, 2009-cu ildə qeydə alınmışdı.

Xatırladaq ki, amerikalı milyarder Corc Soros da bir müddət öncə mövcud qlobal siyasətin növbəti irimiqyaslı maliyyə böhranına səbəb ola biləcəyini bildirib. Soros hesab edir ki, ABŞ-ın İranla nüvə sazişindən çıxması və idxal rüsumları ilə bağlı qeyri-müəyyənlik Avropa iqtisadiyyatına, o cümlədən Almaniyaya ağır zərbə vuracaq. "Biz növbəti ciddi maliyyə böhranı ilə üzləşə bilərik", - deyə Soros vurğulayıb.

Onu da qeyd edək ki, İtaliyada baş verən proseslər Avropa Birliyi və dünya iqtisadiyyatı üçün daha bir təhdid mənbəyi hesab olunur. Belə ki, mart ayında bu ölkədə keçirilən parlament seçkilərindən sonra yaşanan hökumət böhranı, nəhayət ki, başa çatıb. Seçkilərdə daha çox səs toplayan populist "Beş ulduz" və "Liqa" partiyalarının formalaşdırdığı hökumət parlament tərəfindən təsdiqlənib. Bu hökumətin başçısı olan Cüzeppe Konte və populistlər Avropa Birliyi qaydalarına qarşı sərt mövqeləri ilə tanınırlar. Onlar seçkiqabağı təbliğat zamanı birlik daxilində yürüdülən sərt iqtisadi siyasəti dəyişəcəklərini, avrozona barədə əsas sazişlərə, xüsusən sabitlik və artım paktına, həmçinin büdcə paktına yenidən baxmağı vəd ediblər. Bu sənədlər İtaliyanı Brüssel tərəfindən müəyyən edilən büdcə vəzifələrini yerinə yetirməyə məcbur edir. Populistlər Avropa İttifaqının prioritetlərini azad bazar liberalizmindən sosial təminata keçirməyi planlaşdırırlar. Onlar İtaliyada sosial layihələrə, məsələn, pensiya və müavinətlərin artırılmasına əlavə olaraq milyardlarla avro pul qoymağa söz veriblər. Bundan əlavə, ölkənin 2 trilyon 375 milyard avroluq nəhəng xarici borcunu ödəmək niyyətində deyillər. Həmin borclar əsasən alman banklarından alınıb. Ona görə də Almaniya və onun Kansleri Angela Merkeldə İtaliyanın yeni hökuməti ilə bağlı ciddi narahatlıqlar var. Yeni hökuməti formalaşdıran qüvvələr həm də Avropa Birliyinin miqrasiya siyasətindən narazıdırlar, İtaliyaya gəlmiş yarım milyon miqrantı geriyə, Afrikaya qaytarmaq niyyətindədirlər. Təhlükəli məqam budur ki, yeni hökuməti yaradan qüvvələrin İtaliyada nüfuzu sürətlə artır. Bütün bunlar isə bir tərəfdən İtaliyanın özünü, ardınca isə bütövlükdə birliyi ciddi maliyyə böhranı ilə üzləşdirə bilər. Belə ki, Konte hökumətinin parlamentdə dəstəklənməsindən dərhal sonra birjalarda İtaliya və Almaniya qiymətli kağızlarının dəyərsizləşməsi prosesi başlayıb. Bir çox analitiklər bu prosesi Avropada başlayan böyük maliyyə böhranının ilkin mərhələsi kimi qiymətləndirirlər.

Göründüyü kimi, qlobal maliyyə böhranı ehtimalı getdikcə daha da artır. **Azərbaycan iqtisadçı-alim, ADR Hərəkatının rəhbəri Qubad İbadoğlu deyir ki, son zamanlar dünya iqtisadiyyatı siyasi proseslərin təsirlərinə daha çox məruz qalır:** "Təəssüflər olsun ki, baş verən proseslər daha çox spekulyativ, siyasi faktorlarla əlaqəlidir. Son dövrlər siyasi sferada baş verənlər dünya iqtisadiyyatında əks olunur. Xüsusilə də maliyyə və valyuta bazarları daha həssasdır. Tramp hakimiyyətinin ABŞ-ın iqtisadi hökmranlığını təmin etmək üçün həyata keçirildiyi vergi, pul-kredit, məzənnə siyasətləri də prosesə təsir göstərir".

**Dünya maliyyə böhranı başlayarsa, bunun Azərbaycana mümkün təsirlərinə gəlincə, Q.İbadoğlunun sözlərinə görə, ölkəmiz dünya iqtisadiyyatına yalnız ticari və investisiya baxımından inteqrasiya olunub:** "Bu da elə böyük həcmdə deyil. Bu baxımdan, düşünmürəm ki, böhranın Azərbaycan iqtisadiyyatına ciddi təsirləri olsun. Bu təsir o zaman güclü ola bilər ki, böhran xammal bazarını da əhatə eləsin. Yəni neftin qiyməti böhranın təsiri ilə azalarsa, bu, Azərbaycan iqtisadiyyatına ciddi təsir göstərə bilər. Amma bir məsələ də var ki, neftin qiymətini də proqnozlaşdırmaq çətindir. Məsələn, 2008-2009-cu illərin dünya maliyyə böhranında neftin qiyməti yüksək olaraq qaldı və buna görə də böhranın Azərbaycan iqtisadiyyatına təsiri demək olar ki, hiss olunmadı".

**Dünya valyuta və maliyyə bazarlarında böhran baş verərsə, əsas təsir Azərbaycanın valyuta ehtiyatlarına ola bilər:** "Bildiyiniz kimi, Azərbaycanın əsas valyuta ehtiyatlarının cəmləşdiyi Dövlət Neft Fondu vəsaitlərinin böyük hissəsi dollar və avroda saxlanılır. Bundan əlavə, vəsaitlərin bir hissəsi Avropa, ABŞ və Asiya mənşəli qiymətli kağızlara yatırılıb. Bu baxımdan, dünya maliyyə və valyuta bazarlarındakı böhran həmin vəsaitlərə təsir göstərə bilər".

**❑ DÜNYA, "Yenì Müsavat"**

# İran nüvə fəaliyyətinə başladı, ABŞ hədələdi

## Ölkədən çıxan Avropa şirkətlərinin yerlərinə Rusiya və Çin şirkətləri gətirilir

**İranın ali dini lideri Ayətullah Əli Xameneyinin nüvə fəaliyyətini bərpa etmək çağırışından bir sutka sonra İranda fəaliyyətinə rəsmən start verilib. İran Atom Enerjisi Təşkilatının sədri Əli Əkbər Salehi medianın müşayiəti ilə Natanzdakı nüvə istehsalı mərkəzinə gedib. Salehi burada mediaya verdiyi açıqlamada deyib ki, qarşıdakı bir ay ərzində mərkəz tam gücü ilə istehsala başlayacaq.**




Salehi deyib ki, artıq sentrafuq montaj salonları, rotor və digər təchizat quröularının işlək vəziyyətə gətirilməsi üçün dəqiq testlər edilib. Eyni zamanda o, yeni uranı zənginləşdirmə mərkəzlərinin tikiləcəyini bildirib.

Qeyd edək ki, iyunun 4-də Ayətullah Ruhullah Musəvi Xomeyninin vəfatının ildönümü ilə bağlı mərasimdə çıxışında dini lider Ayətullah Xameneyi hökuməti nüvə fəaliyyətini yenidən bərpa etməyə çağırıb. Ayətullah Əli Xameneyi ölkənin Nüvə Enerjisi Qurumuna mövcud nüvə anlaşması çərçivəsində 190 min sentrafuqa çatmaq üçün dərhal hazırlıqlara başlamağı tapşırıb.

Əli Əkbər Salehi ötən gün bildirib ki, dini liderin tapşırdığı 190 min sentrafuqun alınması 10 ay vaxt tələb edəcək. Bunun üçün 6-cı nəsil sentrafuqlar montaj ediləcək və təxminən 60 min sentrafuq işə salınacaq. Bunun nəticəsində 10 ay ərzində 190 min sentrafuq alınacaq. Eyni zamanda o deyib ki, ildə 190 min sentrafuq üçün 300 ton urana ehtiyac var. Bu səbəbdən də İran Atom Enerjisi Təşkilatı uran tədarük etmək istiqamətində fəaliyyətini gücləndirəcək. Salehi deyib ki, Natanz nüvə mərkəzinin potensialının 1 milyon sentrafuqa çatdırılması üçün işlər görülür.

İranın bu addımına okeanın o tayından reaksiya gecikməyib. ABŞ dövlət katibi Mayk Pompeo bəyan edib ki, İranın öz nüvə gücünü artırmaq niyyətində olması ilə bağlı məruzələrdən xəbəri var. Bu barədə "Reuters" agentliyi Pompeonun twitter səhifəsindəki yazısına istinadən xəbər yazıb. Pompeo yazıb ki, Vaşinqton İranın nüvə silahı əldə etməsinə imkan verməyəcək.

İranın bu addımı ilk növbədə ölkə daxilindəki siyasi vəziyyətdən qaynaqlanır. Nüvə mövzusu və mövcud siyasətin davamı ilə bağlı yanaşma İran siyasətini bölüb. Hazırkı hökumət nüvə fəaliyyətinin davam etdirilməsini, hətta lazım gələrsə, Qərb qarşısında müəyyən güzəştlərə getmək, raket fəaliyyətləri, Yaxın Şərq siyasətini yumşaltmağı düşünür. Çünki birincisi, islahatçılar onsuz da lap əvvəldən Yaxın Şərqdəki fəaliyyətlər, xüsusən də Fələstin mövzusunda İranın bu qədər aktivlik etməsi, böyük maliyyə məsrəfləri hesabına müqavimət qruplarını dəstəkləməsinə qarşı olub. Hətta İsraillə danışıqlara getmə fikrini müdafiə edənlər var. Digər tərəfdən, bahalı layihələr, o cümlədən Fələstin, Livan, Suriya, Yəmən kimi ölkələrə sərf olunan pulların ölkə daxilində çəkilməsini istəyirlər. Bu səbəbdən də islahatçı hökumət üçün Suriyada daha artıq xərc faydasızdır və ilk fürsətdə Suriyadan çəkilmək münasib olardı.

Ancaq təbii ki, mühafizəkar qanad belə düşünmür. Əksinə, İslam İnqilabı ideyasının ixracı, Yaxın Şərqin əzilən xalqları, xüsusən də İsrailin təzyiqi altında olan xalqlara dəstək vermək xarici siyasətdə prioritetdir. Bu mənada Trampın ötən ay nüvə sazişindən çıxması mühafizəkar camiədə normal qarşılandı. Lakin eyni zamanda ölkə daxilində cinahlar arasındakı rəqabəti gücləndirdi. Hazırkı islahatçı hökumət yaranmış vəziyyətə, İran realının dəyər itirməsinə görə açıq və üstüörtülü şəkildə mühafizəkar qanadı ittiham edir. Qarşı tərəf isə hökuməti yarıtmaz fəaliyyətdə, iqtisadiyyatda uğura imza ata bilməməkdə ittiham edir. İndi isə dini lider işə qarışdı və açıq şəkildə nüvə fəaliyyətlərinin bərpasını tələb etdi. Görünür ki, tapşırıq o qədər sərt olub ki, Atom Enerjisi Təşkilatının sədri bir sutka keçməmiş artıq Natanzda rəsmi açılış keçirdi. Bununla da həm ölkə daxilində nüvə mübahisələrinə son qoyuldu, həm də nüvə sazişindən imtina qərarı ali dini liderin üzərində qalmış oldu.

Bəs indi bundan sonra nə olacaq? Ayətullah Xameneyinin nüvə ilə bağlı məlum açıqlamasından dərhal sonra Fransa hökuməti bəyanat yayaraq İranın nüvə istehsalını bərpa etməsini "qırmızı cizgilərə" keçmək olduğunu bəyan etdi. Ancaq İran mediası Fransa XİN rəhbərinin İranın mövcud anlaşmaya uyğun olaraq nüvə fəaliyyətini bərpa hüququnun olduğunu bildirib. Reaksiyaların hansı formada olmasından asılı olmayaraq, İranın bu qərarı bir mənada Avropaya dərin nəfəs aldıracaq. Çünki "qoca qitə" Vaşinqton və nüvə anlaşması arasında qalmışdı. Doğrudur, Avropa ölkələri - Fransa, Britaniya və Almaniya - nüvə sazişinə sadiq olduqlarını daha əvvəl açıqlayıblar. Lakin Merkel özü də etiraf etmişdi ki, bir çox şirkətlər artıq İranı tərk edir. "Boeng", "Airbus" kimi şirkətlər də artıq İranla təyyarə alğı-satqısı anlaşmasından çıxacaqlarını bəyan ediblər. "Fransanın enerji nəhəngi "Total" şirkəti də İranı tərk etməyə hazırlaşır. Çünki böyük şirkətlər İrana görə ABŞ kimi dünya nəhəngi ilə qarşı-qarşıya gəlmək istəmir. Dini liderin bu qərarı bir növ həmin şirkətlərə və Avropa şirkətlərinə nəfəs aldıracaq.

Bəs Avropanın yerini kim tutacaq? Bəzi analitiklərə görə, İran ölkədən çıxan Avropa şirkətlərinin boşalmış yerlərinə Rusiya və Çin şirkətlərini gətirir. Bu barədə anlaşma olduğu, bu səbəbdən də İran rəhbərliyinin rahat qərar verdiyi qeyd olunur. Bu isə o deməkdir ki, İran Trampın qərarının zərərlərini gözə alıb və Tehran yeni dövrə hazırlıqlıdır.

**❑ Kənan RÖVŞƏNOĞLU, "Yenì Müsavat"**

YENİ MÜSAVAT
N 124 (7013) 8 iyun 2018









# C qrupu: "Xoruz"ların banlamaq zamanı...

**Rusiyada gələn həftə start götürəcək dünya çempionatında maraqlı qruplardan biri də C qrupudur. Həm də o səbəbdən ki, bu qrupda Fransadan başqa hər üç komanda mundiala "pley-off" səddini aşaraq gəlib.**

**C qrupu**
*1. Fransa*
*2. Avstraliya*
*3. Peru*
*4. Danimarka*

## Fransa ən təcrübəlidir, amma...

Heç şübhəsiz, "xoruzlar" - Fransa millisi bu qrupun ən təcrübəli komandasıdır. 21 mundialdan cəmi beşində iştirak edə bilməyən fransızlar düz 20 il əvvəl-1998-ci ildə ölkələrində keçirilən dünya kuboku uğrunda mübarizədə çempion olublar. 2006-cı ildə yenidən finala vəsiqə qazanan Fransa millisi İtaliya ilə üz-üzə gəldi. Fransa İtaliyaya penaltilər seriyasında uduzdu. Yeri gəlmişkən, yada saldığımız 1998-ci il dünya çempionatında Danimarka da onlarla bir qrupda mübarizə aparırdı və hər iki komanda 1/8 finala yüksəlmişdi.

Avro-2012-dən sonra Loran Blanu baş məşqçi postunda əvəzləyən Didye Deşam artıq 6 ildir ki, komandanın sükanı arxasındadır. 2017-ci ildə razılığa əsasən, o, 2020-ci ilə qədər millini çalışdıracaq. Deşamın rəhbərliyi altında Fransa millisi Avro-2016-da finalda Portuqaliyaya məğlub olaraq, gümüş medal qazanıb. Vəssalam...

80-90-cı illərdə Fransa millisinin oyununu izləyənlər Didye Deşamı yaxşı xatırlayırlar. Didye Deşam heç vaxt ulduz futbolçu kimi tanınmayıb, baxmayaraq ki, komandanın əvəzedilməz kapitanı olub, Fransanın Avropa çempionu olduğu hər iki çempionatda kuboku öncə o, başının üzərinə qaldırıb. Amma Fransa millisi onun rəhbərliyi altında çempionluğu bayram edə bilməyib. Bəlkə də "Xoruz"ların banlamaq zamanı bu mundialda baş verdi...

Deşam əlbəttə ki, Avrokubokun builki sahibi olan "Atletiko"nun hücumçusu və Fransa millisinin ulduzu Antuan Qrizmanna çox ümid edir.

**Fransa bu heyətlə uğur qazanmağa çalışacaq:**

**Hücumçular:** *Uqo Lloris (" Tottenhem"), Stiv Mandanda (" Marsel"), Alfons Areola (PSJ)*

**Müdafiəçilər:** *Rafael Varan (" Real"), Adil Rami (" Marsel"), Cibril Sidibe (" Monako"), Samuel Umtiti (" Barselona"), Benjamen Mendi (" Mançester Siti"), Benjamen Pavar (" Ştutqart",), Luka Hernandez (" Atletiko"), Presnel Kimpembe ( PSJ)*

**Yarımmüdafiəçilər:** *Blez Matyuidi (" Yuventus"), Pol Poqba (" Mançester Yunayted"), N'Qolo Kante (" Çelsi"), Toma Lemar (" Monako"), Koranten Tolisso (" Bavariya"), Stiven N'Zonzi (" Sevilya")*

**Hücumçular:** *Olivye Jiru ("Çelsi"), Antuan Qrizmann (" Atletiko"), Kilyan Mbappe (PSJ), Usman Dembele (" Barselona"), Nabil Fekir ("Lion"), Florian Toven (" Marsel")*

## Dördüncü dəfə ard-arda mundialda!

Avstraliya millisi dünya çempionatlarında 5-ci dəfədir ki, iştirakçı olacaq. İlk dəfə 1974-cü ildə bu hüququ qazanan milli komanda artıq dördüncü mundialdır ki, ard-arda iştirak edir. 2006, 2010, 2014-cü illərdə milli komanda xüsusi uğuru ilə seçilməyib. Yalnız 2006-cı ildə qrup mərhələsini adlaya bilib. Avstraliya DÇ-2018-ə vəsiqə qazanmaq üçün ümumilikdə 22 oyun keçirib. Tarixdə bir təsnifat mərhələsi daxilində bu



qədər çox matç keçirən komandaya rast gəlinməyib. 11 müxtəlif rəqiblə qarşılaşan "yaşıl qitə" təmsilçiləri 250 min km məsafə qət ediblər. Cəmi 2 dəfə məğlub olsalar da, heç-heçələrin çoxluğu avstraliyalı futbolçuların işlərini çətinə salmışdı. Sonda Sidneydə 80 min azarkeşin önündə Hondurasa qarşı qazanılan 3:1 hesablı qələbə ardıcıl 4-cü dəfə mundiala vəsiqə anlamına gəlirdi. (mənbə: apa.sport.az ). Daha bir maraqlı statistika da var. Avstraliya dünya çempionatı iştirakçıları arasında rəqib qapısına ən çox top vurmuş komanda kimi düşüb. Avstraliya Amerika Samoası komandasının qapısında 31 cavabsız top keçirib...

Ötən qrup haqda yazımızda qeyd etmişdik ki, Səudiyyə Ərəbistanının mundiala vəsiqə qazanmasını təmin edən Bert van Marveyk komandadan ayrılıb. O, 2018-ci ilin 24 yanvarında Avstraliya yığmasının baş məşqçisi təyin olunub. Bu, onun üçün yığmada ilk böyük sınaq olacaq...

**Bert van Marveyk DÇ-2018-ə aşağıdakı 23 futbolçunu aparmağa qərar verib:**

**Qapıçılar:** *Mett Rayan ("Brayton"), Denni Vukoviç ("Genk"), Bred Cons ("Feyenoord");*

**Müdafiəçilər:** *Aziz Behiç ("Bursaspor"), Miloş Deqenek ("Yokohama"), Mettyu Yurman ("Suvon"), Ceyms Meredit ("Milluol"), Coş Risdon ("Uestern Sidney"), Trent Seynsberi ("Qrasshopper");*

**Yarımmüdafiəçilər:** *Mayl Edinak ("Aston Villa"), Cekson İrvayn ("Hall Siti"), Robbi Kruz ("Bohum"), Massimo Luonqo (KPR), Mark Milliqan ("Əl-Əhli"), Aaron Muy ("Haddersfild"), Tom Roqiç ("Seltik").*

**Hücumçular:** *Tim Kehill ("Milluol"), Tomi Yuriç ("Lütsern"), Mettyu Leki ("Herta"), Endryu Nabbut ("Urava"), Dmitri Petratos ("Nyukasl Cets"), Daniel Arzani ("Melburn"), Ceymi Maklaren ("Hibernian"), Apostolos Yannu ("AEK Larnaka").*

## Perunun 36 illik həsrətinin sonu

Cənubi Amerika təmsilçisi olan Peru millisi də 5-ci dəfədir ki, mundialda gücünü sınayacaq. İlk dünya çempionatında iştirak edən(1930) milli komanda mundiala 40 il sonra qayıdıb. 1970-ci ildə hətta 1/4 finaladək irəliləyib. 1978 və 1982-ci illərdə isə qrup oyunlarından sonra mundiali tərk edib. Komandanı mundiala 60 yaşlı argentinalı Rikardo Qareka gətirəcək. O, 2015-ci ilin fevral ayında Peru millisinə baş məşqçi təyin olunub. Peru Amerika kubokunda onun rəhbərliyi altında uğurlu çıxış edib və yarımfinala qədər irəliləməyi bacarıb. Perunun Rusiya mundialına yolu da asan olmayıb. 36 il sonra qrup mərhələsində (Cənubi Amerika zonası) 5-ci yeri tutaraq Yeni Zelandiya ilə əlavə matçı oynamaq şansı qazanıb. 2017-ci ilin noyabrında Yeni Zelandiya ilə səfər oyununda Peru qapısını qoruya bilib və matç qolsuz bitib. Doğma meydanda isə Peru 36 illik həsrətə son qoyub. Komanda rəqibin qapısından 2 cavabsız top keçirərək arzularını reallaşdırdı.

Püşkatmadan sonra açıqlama verən Qareka deyib ki, mundialda asan rəqib axtarmaq lazım deyil. Onun sözlərinə görə, Perunun "ölüm qrupu"na düşdüyünü zənn etmir. "Bir də görürsən ki, asan görünən rəqib çətin, çətin görünən isə asan rəqib olur. Bu səbəbdən də yaxşı oynamaq əsas şərtdir" deyə, o bildirib.

**Perunun heyəti belədir:**

*Qapıçılar: Pedro Qalyese ("Verakrus", Meksika), Karlos Kaseda ("Deportivo Munisipal"), Xose Karvalyo ("UT de Kaxamarka")*

**Müdafiəçilər:** *Luis Advinkula ("Lobos", Meksika), Aldo Korso ("Universitario Deportes"), Migel Trauko ("Flamenqo", Braziliya), Kristian Ramos ("Verakrus", Meksika), Alberto Rodriges ("Sportinq Kristal"), Migel Arauxo ("Alyansa Lima"), Nilson Layola ("Melqar"), Anderson Santamariya ("Puebla", Meksika)*

**Yarımmüdafiəçilər:** *Pedro Akino ("Lobos", Meksika), Vilder Kartaxena ("Verakrus", Meksika), Kristian Kueva ("San Paulu", Puebla), Edison Flores ("Olborq", Danimarka), Paolo Urtado ("Vitoriya Gimaraeş", Portuqaliya), Renaro Tapiya ("Feyenord", Hollandiya), Yosimar Yotun ("Orlando Siti", ABŞ)*

**Hücumçu:** *Paolo Gerrero ("Flamenqo", Braziliya), Endi Polo ("Portlend Timbers", ABŞ), Andre Karrilyo ("Uotford", İngiltərə), Raul Ruidias ("Moreliya", Meksika), Cefferson Farfan ("Lokomotiv", Rusiya)*

## Danimarka qrupda ikinciliyə iddialıdır

Danimarka da digər üç komanda kimi mundialda beşinci dəfə gücünü sınayacaq. 1986, 1998, 2002, 2010-cu illərdə mundiala qatılan Danimarka millisinin ən güclü heyəti 1998-cı ildə olub. Komanda 1/4 final qədər irəliləyib.

Məlumatlara görə, Danimarka millisinin heyəti çox gənc olmasa da, perspektivli futbolçulardan ibarətdir. İdman şərhçiləri yazır ki, Rusiyaya ən güclü heyətlə gələn komanda qrupda ikinci yerə ən şanslı namizəddir. Qeyd edək ki, Danimarka millisi də mundiala əlavə matçda İrlandiyaya böyük hesablı qələbə sayəsində vəsiqə əldə edib. Komanda mundiala vəsiqəni Norveçin keçmiş baş məşqçisi Oqe Hareydenin rəhbərliyi altında təmin edib.

**Danimarka bu heyətlə çıxış edəcək:**

Qapıçılar: Frederik Rennov ("Brondbyu"), Yonas Lessl ("Haddersfild"), Kasper Şmeyxel ("Lester")

Müdafiəçilər: Andreas Kristensen ("Çelsi"), Henrik Dalsqor ("Brentford"), Yannik Vesterqor ("Borussiya" Münhenqladbax), Yens Larsen ("Udineze"), Yonas Knudsen ("İpsviç Taun"), Matias Yorqensen ("Haddersfild"), Simona Kyer ("Sevilya")

Yarımmüdafiəçilər: Kristian Eriksen ("Tottenhem"), Lasse Şene ("Ayaks"), Lukas Leraqer ("Bordo"), Mikael Kron-Deli ("Deportivo"), Tomas Dileyni ("Verder"), Villyam Kvist ("Kopenhagen")

Hücumçular: Andreas Kornelius ("Atalanta"), Kasper Dolberq ("Ayaks"), Martin Breytueyt ("Bordo"), Nikolay Yorqensen ("Feyenoord"), Pione Sisto ("Selta"), Viktor Fişer ("Kopenhagen"), Yussuf Poulsen ("Leyptsiq")

**❑ Nazim SABİROĞLU**
**"Yeni Müsavat"**



YENİ MÜSAVAT
N 124 (7013) 8 iyun 2018

# İtaliyada göldə boğulan azərbaycanlı tələbənin anası danışdı

## "Elə həmin gecədən evimdə hüzrdür"

**O, ailənin tək oğul övladı idi. APA TV-nin məlumatına görə, iki bacının bir qardaşı olan 31 yaşlı Elnur Roma Universitetində magistr təhsili alırdı. Elnur Rafiq oğlu Babayev iki il öncə ölkə hüdudlarından kənarda təhsil almağa getmişdi. Anası Nigar Babayeva deyir ki, Elnur Novruz bayramı ərəfəsində Bakıya gəlib. Tətilini Bakıda, valideynlərinin yanında keçirən gənc tələbə bu il mayın 30-da yenidən Romaya qayıdıb.**



Sonuncu dəfə iyunun 2-də anası Nigar xanımla danışan Elnur sənədlərini qaydasına saldığını, imtahana hazırlaşdığını və "məndən nigaran qalmayın, iyunun 5-də imtahanımı verib sizinlə əlaqə saxlayacağam" deyib: "İyunun 2-si gecə saatları idi. Telefon zəng çaldı. Çatdırıb götürə bilmədik. Bir neçə dəqiqə keçdi, Elnurun əmisi zəng elədi və ailəsi ilə bizə gəldi. Gecə 3-ün yarısı idi. Bizdən soruşdu ki, uşaqdan xəbəriniz varmı? Sən demə, elə həmin gün dostu ilə göldə çimməyə gedib. Dostu Elvinlə birlikdə gedib, birlikdə çimiblər. Elvin boğulurmuş, onu xilasedicilər çıxarıb. Amma mənim oğlumun boğulduğunu deyirlər. Elə həmin gecədən evimdə hüzrdür. Bir həftədir Elnur tapılmır. Hamı bilir, bu iki ildə o, bir dəfə də olsun ailəsinə demədən kənara gəzməyə belə çıxmayıb. O necə ola bilər ki, gölə getsin. Buna inanmıram".

Roma Universitetində təhsil alan Elnur Babayev iyunun 2-də göldə boğulub. Ailəsi hadisənin Kastel Qandolfo şəhərindəki Albano gölündə baş verdiyini deyir. Azərbaycanda Bakı Avrasiya Universitetini bitirən Elnur Babayevin Roma Universitetində politologiya ixtisası üzrə magistr təhsilini başa vurmasına iki ay qalıbmış.

**Anası deyir ki, Elnur hələ Bakıda oxuyanda ailəsinə təhsilini xarici ölkələrin birində davam etdirmək arzusunda olduğunu deyib. Evin tək oğul övladı olmasına baxmayaraq, ailəsi onun bu istəyinə qarşı çıxmayıb. Anası Nigar xanım deyir ki, payızda evlənəcəyi barədə ona söz veribmiş:** "Deyirdi, az qalıb, bitirim universiteti, gəlib Bakıda özümə iş quracağam. Çox savadlı, ağıllı və sakit uşaq idi. Sonuncu dəfə dedim ki, Elnur, get-gəl, yayda evləndirərik səni. Onunla birlikdə olan oğlanla bir neçə dəfə danışdım. Deyir, məni xilas etdilər, amma mənim ona gücüm çatmırdı. Deyib ki, Elnur, məni bağışla, kömək edə bilmədim sənə".

Əmisi Məmməd Babayev deyir ki, əslən Füzulidən olan Elnurun babası rayonun işğalı zamanı ermənilər tərəfindən girov götürülüb və elə girovluqda şəhid olub: "Dostu ilə birlikdə gedib qayıq götürüb və çimmək istəyiblər. Yanındakı oğlanın dediyinə görə, Elnur üzə bilməyib və batıb. Ailə olaraq buradan Azərbaycan prezidenti İlham Əliyevə müraciət edirik. Yeganə xahişimiz budur ki, cənab prezident Elnur Babayevin axtarışlarının sürətləndirilməsi üçün müvafiq tapşırıq versin. Biz şəhid ailəsiyik. Xahiş edirəm, qardaşım oğlunun axtarışları sürətləndirilsin".

Hadisə baş verən günün səhəri Elnur Babayevin ailəsi Xarici İşlər Nazirliyinə müraciət edib. Müraciətdən üç gün sonra onun atası Rafiq Babayev, dayısı və digər bir qohumu İtaliyaya göndərilib.

**Hazırda axtarışlar davam edir. Ailə aidiyyəti qurumlardan kömək istəyir.**



## Rayonlara leysan xəbərdarlığı

**Bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Bu barədə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən məlumat verilib. Məlumata əsasən, gecəyə doğru bəzi yerlərdə yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək, gündüz arabir güclənəcək.**

Havanın temperaturunun Abşeron yarımadasında gecə 17-20, gündüz 24-28, Bakıda gecə 18-20, gündüz 25-27 dərəcə isti olacağı gözlənilir.

Azərbaycanın rayonlarında sabah bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə yağışın leysan xarakterli olacağı ehtimalı var. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturunun gecə 17-22, gündüz 25-30, dağlarda gecə 9-13, gündüz 13-18 dərəcə isti olacağı gözlənilir.

Abşeron yarımadasında meteoroloji amillərin zəif və mülayim tərəddüdü meteohəssas insanlar üçün əsasən əlverişlidir.

# Ölkəni şoka salan qətlin üzərində sirr pərdəsi qalır

## Baş Prokurorluq növbəti açıqlama yaydı

**Tovuzda bu ilin fevralında baş verən dəhşətli ikiqat qətl işi ilə bağlı istintaq əməliyyat tədbirləri davam etdirilir. Bu haqda "Yeni Müsavat" əməkdaşının sorğusuna cavab olaraq Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov bildirib.**



Xidmət rəhbəri deyib ki, qətl işi Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində araşdırılır: "Həmin iş üzrə Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir. Nəticəsi haqda ictimaiyyətə əlavə məlumat veriləcək".

Dəhşətli hadisə bu il fevralın 24-də Tovuz rayonunun mərkəzindəki Mərdan Musayev küçəsində yerləşən 2 mərtəbəli evdə baş verib. Tovuz şəhər sakini, 1945-ci il təvəllüdlü Fərman Qoca oğlu Məmmədova məxsus ümumi sahəsi 320 kv/m olan 2 mərtəbəli 7 otaqdan ibarət evin 1-ci mərtəbəsində ev sahibi və onun xanımı 1950-ci il təvəllüdlü Pakizə Şəmşəd qızı Mirzəyeva vəhşicəsinə qətlə yetiriliblər. Qatil və ya qatillər qanlı cinayəti törədəndən sonra mənzildə yanğın törədərək cinayətin izini ört-basdır etməyə çalışıblar. Şəhərə yaxın qonşular Məmmədovun mənzilində tüstü bacasının şahə qalxdığını görüb əraziyə yanğınsöndürənləri çağırıblar. Hadisə yerinə 2 yanğınsöndürən maşın cəlb olunub, carpayı və divandan başlayan yanğın yanğınsöndürənlər tərəfindən söndürülüb. Araşdırma zamanı ev sahibini yanmış, onun həyat yoldaşını isə evin digər hissəsində cansız aşkar etmişdilər. Hadisə yerində olan Tovuz Rayon Prokurorluğunun istintaq qrupu ər-arvadın qətlə yetirilməsindən şübhələnmişdi. Sonradan bu şübhələrin əsassız olmadığı da üzə çıxmışdı. Mərhumlar - Fərman Məmmədov və Pakizə Mirzəyevanın meyitləri məhkəmə tibb ekspertləri tərəfindən müayinə edilərkən bəlli olmuşdu ki, ölümlərinə səbəb dəm qazından boğulma deyil. Hər iki şəxs bədənlərinə, baş nahiyələrinə yetirilən xəsarətlər nəticəsində dünyaların dəyişiblər. Bundan sonra istintaqçılarda ər-arvadın öldürüldüyü, daha sonra hadisəyə yanğın görüntüsü verildiyi qənaəti qətiləşib. Olaydan sonra evi müşahidə etmək imkanı olan şahidlər demişdilər ki, Fərman Məmmədov girişdə, divanın üstündə ölü tapılıb, onun arvadı Pakizə Mirzəyeva isə ondan 5-6 metr aralıda olan çarpayıda, ağzı və əlləri skoçlanmış halda, cansız vəziyyətdə aşkar olunub.

Bu günə qədər qətlin qarət, yoxsa qisas məqsədi ilə törədildiyi məlum deyil. Rayon sakinlərinin, qonşuların deməsinə görə, mərhumlar imkanlı olublar. Pakizə Mirzəyeva Bakı Neftayırma Zavodunun mərhum direktoru Ramiz Mirzəyevin bacısıdır.

Qatillərin evdə iri məbləğdə pul, qızıl-zinət əşyalarının olmasını zənn edərək girdikləri və məlum cinayəti törətdikləri ehtimaları var. Lakin onlar evdən gözlədikləri var-dövləti tapa bilməyiblər. Səbəb isə bu olub ki, var-dövlət evdə yox, həyətdə torpağa basdırılmış seyfin içində olub.

Artıq 3 aydır ki, bu dəhşətli qətl işi ilə bağlı istintaq davam edir. İş üzrə 100-lərlə rayon sakini hüquq-mühafizə orqanlarına aparılıb çox ciddi şəkildə, bəzən isə xüsusi ciddiyyətlə sorğu-sual olunurlar. Dəhşətli cinayəti törədənlərin izinə hələ ki düşmək mümkün olmur.

Baş vermiş olayla bağlı Cinayət Məcəlləsinin 2 maddəsi - 120.2.4-cü - xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla adam öldürmə və 120.2.7-ci - 2 və ya daha çox şəxsi öldürmə maddələri ilə iş başlanıb. Zəruri ekspertizalar təyin edilib və dəhşətli cinayəti törədən şəxs və ya şəxslərin tutularaq istintaqa cəlb edilməsi üçün əməliyyat-axtarış tədbirləri davam edir.

Xatırladaq ki, bu, Mirzəyevlərlə bağlı son 1 ildə baş vermiş 3-cü dəhşətli hadisədir. Belə ki, mərhum Ramiz Mirzəyevin oğlu Anar Mirzəyev bu il fevralın əvvəlində Sabirabadda yol qəzasında həlak olub. Keçmiş AFFA prezidentinin qardaşı oğlu Orxan Mirzəyev isə 2017-ci ilin yayında Hacıqabulda "Toyota Land Cruiser"in aşması nəticəsində vəfat edib.

❑ **E.MƏMMƏDƏLİYEV**
**"Yeni Müsavat"**

## Başsağlığı

**Dilarə Əliyeva adına Azərbaycan Qadın Hüquqları Cəmiyyətinin sədri Novella Cəfərova və cəmiyyətin kollektivi yazıçı jurnalist Natella Asenaya dayısı Hüseynov İbrahim Həbib oğlunun vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

## Elan

**"NEXT SUPPLİES" məhdud məsuliyyətli cəmiyyətə məxsus VÖEN 1502210811 itdiyi üçün etibarsız sayılır.**

***

**«KORCMA» kooperativı təşkilati hüquqi formasını dəyişərək MMC-yə çevrildiyini elan edir.**

***

**«KORCMA» kooperativinin qeydiyyat şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.**




# Qüds günü - bütləri sındıranların günüdür

## Qarabağı niyə itirdik? Zəngəzuru niyə itirdik? Vətən torpaqlarını niyə itirdik?

Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı



**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim!**
**Hərə bir səbəb göstərəcək. Kimisi siyasi amillərlə bağlayacaq, kimisi geopolitik oyunların nəticəsi kimi dəyərləndirəcək, bir başqası başqa amillər arayacaq. Amma bu itkinin gerçək bir səbəbi var. Şuşadan qabaq biz bir başqa şeyləri artıq itirmişdik.**

### Bu itkilərin səbəbi nədir?!

Biz niyə bu gün əziz Şuşanı azad edə bilmirik? Çünki hələ də ondan öncə itirdiyimizi qaytarmamışıq. Hətta deyərdik ki, itirə-itirə də gedirik. Deməli, əslində bu itkilər davam etdikcə, Şuşamızın itkisini daha da artırırq.

Biz Şuşanı, Qarabağı ona görə itirdik ki, özümüzü itirmişik. Bu torpaqları quru coğrafi anlayışdan müqəddəs Vətən anlayışına qədər ucaldan öz vücudi kimliyimizi itirmişik. Biz Şuşadakı, Qarabağdakı, İrəvandakı məscidləri ilk olaraq deyil, ondan öncə onun içindəki gerçək varlığımızı itirmişik. Biz əvvəl bu məkanlarda yaşayan insanımızın varlığını itirmişik.

### Mübarək ayın axırıncı cümə günü

Mübarək Ramazan ayının axırıncı cümə günü Beynəlxalq Qüds Günü kimi qeyd edilir. Mübarək Ramazan ayı ilə Beynəlxalq Qüds günü arasında birbaşa əlaqə vardır. Çox ciddi vicudi əlaqələri vardır. Əlaqə bundan ibarətdir ki, mübarək Ramazan ayı mahiyyətcə bizlərdə təqvalılığı artırmaq üçündür. Qüds günü də məhz təqvalıların günüdür. Mübarək Ramazan ayının ana məqsədi, ana hədəfi - bizdən bəndə yetişdirməkdir. Qüds günü - bəndələrin günüdür. Qüds günü - Allah bəndəlik etmək istəyənlərin günüdür.

Ən əsas məsələ budur ki, biz bu günü tarixi bir gün kim yox, coğrafi, geopolitik bir gün kimi yox, elə sırf ibadi, İslami bir gün kimi dərk edək. Və necə biz həcc əməllərini başa vurduqda həccin yekunlarında zalımlara "yox" deyərək, əslində öz tövhidpərəstliyimizi bildiririk, mübarək Ramazan ayının da mənəvi səfərinin yekununda Qədr gecələrinin əhyasından çıxmış insanın əslində bir "La İləhə İllənlah" hayqırtısıdır Qüds günü.

**Əslində Qüds günü** - dünyada bütün İslam torpaqlarının işğalına "Yox!" demə günüdür. Bu anlamda Qüds günü həm də Qarabağ günüdür. Qüds günü - Şuşa günüdür, Ağdam günüdür. Bu gün təkcə Fələstin günü deyil, həm də Qarabağ, İraq, Əfqanıstan, Pakistan, Kəşmir, Myanma günüdür. Ümumən İslam torpaqlarının hər bir yerində ki, zülm edilir, hər yerində ki, müsəlmanların haqlarına təcavüz edilir, ümumən insanlıq adına təcavüz edilir - Qüds günü həm də bura bağlıdır. Bu mənada bu günün anlamı yalnız tarixi və coğrafi anlamla yekunlaşmır.

**Bəli, Qüds günü** - bütün zülmə məruz qalmış insanların günüdür. Allah dərgahında bir ay oruc tutmuş və mənəvi yüksəlişə çatmış insanın sözün həqiqi mənasında ilahi vətəndaşlıq günüdür Qüds günü! Qüds günü - böyük ariflərdən biri buyurmuşkən - İslam günüdür. İslam anlayışının içində nə varsa, Qüdsdə də var. Qüds günü bütləri sındıranların günüdür. İstər maddi, istər qeyri-maddi bütlərini sındıranların günüdür. Dünyanın hər yerində, harada olmaqlarından asılı olmayaraq, bütün müsəlmanlar - "La iləhə illəllah" əhli, Rəsulullah (s) aşiqi, qiblə tanıyan, əhya saxlayan insanlar bu gün Qüds günü keçirir. İstər Fransada, istər Ərəbistanda, istər Türkiyədə, istər Avstraliyada - harada müsəlman var, ona çətin də olsa, asan da olsa, onu təriflləsələr də, acılasalar da - bu gün Qüds gününü keçirir.

### İzzət günü

Qüds günü müsəlmanların izzəti günüdür. Qüds günü bir gündür ki, bu gündə müsəlmanlar bir toplum olaraq, cəm şəklində öz sözlərini dünyaya çatdırırlar. Qüds günü müsəlmanların izzət günüdür. Ona görə də izzətlə bağlı mövzuya aydınlıq gətirək.

**İmam Sadiqdən (ə) nəql edirlər:** "İzzət odur ki, hər vaxt ki, haqla üzbəüz gəlsən, gərək haqqın müqabilində təvazö edəsən". Bu, çox böyük, fövqəladə dərəcədə fundamental dəyərdir. İzzət o deyil ki, adamın pulu çox ola, malı çox ola, adamlar içində süni təriflərlə yaşaya. Mübarək İslam məntiqində haqq müqabilində təvazö edən zaman insanın izzəti var. Bu insan haqq və ədalət tərəfdarıdır, haqq və həqiqətə səcdə edir. Ola bilər insana haqqın heç bir xeyri olmasın və hətta haqqın əksi ona zahiri bir xeyir də versin. Amma izzət odur ki, insan ona xeyir versə də, zərər versə də - zahiri haqqın qarşısında təvazö edə və həqiqi haqqın qarşısında isə baş əysin.

**Həzrət Əli (ə) buyurur:** "Hər kim izzəti Allahdan qeyrisində axtara, o "izzət" onu məhv edər". Məsələn, bir adam deyə ki, düzdür, Allah var, Peyğəmbər (s) var - bunlar hamısı öz yerində və bir kənarda qalsın, amma mən istəyirəm insanların əli ilə bir izzət tapam. Yəni bir var insan izzətin mənbəyini Allahda görür, bir də var ki, adamda ikiləşmə gedir. Adi həyatımızda adət üzrə olduğu kimi, həm Allahın ətəyindən istəyirik tutaq, həm də əl atıb insanların ətəyindən möhkəm yapışaq. İstər ailə məsələsində olsun, istər ictimai işlərdə olsun - fərqi yoxdur, çox işlərimizdə təqribən belədir. Bu, müasir dövrün xəstəliyidir - insan ikiləşib: istəyir həm Allahpərəst olsun, həm də qeyri-Allahpərəst.

Vasitələr insanı Allaha tərəf apardığı, Allaha xatir olduğu və Allah dediyinə görə olduğu halda yaxşıdır. Amma, Allaha xatirliklə paralel bir başqa qüvvə də insanda olsa və bir gün bu insan əlini Allahdan üzüb, izzəti həmin o qüvvədə axtarsa - bu adam həlak olacaq. Əmirəlmöminin Əlidən (ə) nəql edilən digər bir hədisdə "Hər vaxt izzət axtarışında olun" - dediyini görürük. Yəni İmam (ə) buyurur ki, Allaha itaətdən, ibadətdən kənar izzət axtarma mexanizmləri - hamısı boşdur, müvəqqətidir və insanı yarı yolda qoyar.

### İzzətli olmaq nə üçün lazımdır?

Bu gün ən mühüm və ciddi məsələlərdən biri - durumumuz, vəziyyətimizdir. Biz niyə bu günə düşmüşük? Çünki fərdlər izzəti-nəfslərini itirirlər. İqtisadi durum bir tərəfdən, ictimai durum o biri tərəfdən - izzəti-nəfsli şəxslərin yetişməsi üçün şərait yoxdur. Xüsusilə də iqtisadi durum insanları o kökə salıb ki, ümumiyyətlə, bu müstəvidə fikirləşmək üçün imkan və şərait itib. Amma, əgər bu cür davam etsə, hər birimiz üzərimizə düşən izzətli insan olma, izzəti-nəfsə malik olma funksiyasını yerinə yetirməsək, bu toplumun axırı hara gedər - Allah bilir. Bəli, çox acınacaqlı haldır ki, bu gün biz nə bir toplum kimi, nə də, nadir halları çıxmaq şərtilə, bir fərd kimi izzəti-nəfsə malik deyilik. Niyə? Çünki, həm izzəti-nəfsli insanlar azdır, həm də bir ab-hava yaranıb ki, izzəti-nəfsli olmaq dəyər sayılmır. Əksinə, tam başqa dəyərlər mövcuddur. İndi ikiüzlü olmaq, ona-buna yaltaqlıq etmək dəyər sayılır. İzzəti-nəfsli olmaq isə elə sayılır ki, guya belə insan çox uzağa gedə bilməz. Bax, şüuruna belə psixologiya hakim olmuş toplumu ağır fəlakətlər gözləyir. Necə ki, Fələstin xalqı vaxtilə fəlakətə uğradı.

**Bəli, Fələstin xalqı birdən-birə öz torpaqlarını itirmədi. Belə olmadı ki, fələstinlilərə, o əziz müsəlmanlara dedilər:** "Sən bu bir neçə kvadrat kilometrdə qal, yaşa". Bir kvadrat kilometrdə Almaniyada təqribən 227 nəfər, Fransada 106 nəfər, Türkiyədə 77 nəfər yaşayır. Fələstində isə 2617 nəfər yaşayır. Hətta türmələr üçün xüsusi beynəlxalq konvensiyalar var ki, dustaq hansısa minimum standartlardan kiçik yerdə qala bilməz. Həbsxanalarda monitorinq aparan insan haqları müdafiəçiləri ora girən kimi birinci növbədə bunu ölçürlər, sayırlar, baxırlar. Əgər azdırsa, demək, məhbusun hüququ pozulub.

Amma Fələstində necədir? Elə bil ki, adamı öz evindən qovalar, sonra isə həyətin bir küncündə balaca bir dam düzəldələr, evdə yaşayanların da hamısını bu damın altına salalar və deyələr ki, siz indi burada yaşamalısınız. Beləliklə, 1948-ci ildə fələstinliləri sürgün edirlər Qəzzaya və İordan çayının Qərb sahilinə, o vaxtdan da bu problemlər başlayır. Fələstinlilərin o hala düşməkləri bəlkə də vaxtilə etdikləri səhlənkarlıqlarının nəticəsidir. Sözsüz ki, obyektiv-subyektiv başqa səbəblər də var.

### Hara getdiyimizi bilməliyik

Bunları sadalamaqda məqsəd budur ki, biz bu durumla, bu vəziyyətlə hara getdiyimizi biləк. Bizim Qarabağ dərdimiz vardır. Bu yaramız yavaş-yavaş köhnəlir, öyrəşilir. Bu gün bizi birtəhər öyrəşdirmək istəyirlər ona ki, torpaqlarınız gedib, bir hissəsini qaytararıq və yaxud nəsə edərik. Elə fələstinlilər də təqribən bu cür idilər. Onlar da heç fikirləşmirdilər ki, yavaş-yavaş torpaqları gedəcək. Birdən ayıldılar ki, torpaq yoxdur. İndi isə elə bir vəziyyət yaradılıb ki, hamı fələstinlilərin günahkar olduğunu zənn edir. İndi səhərdən axşama kimi bütün mətbuatda, televiziyada belə təqdim olunur ki, guya bunlar terrorçudurlar. Qəribədir, oturmusan evində, gəlib səni güclə qovurlar. Sən də deyirsən ki, axı bu, mənim evimdir, icazə verin evimdə normal yaşayım. Onda sənə deyirlər ki, "Sus! Səsini çıxarma! Yoxsa gözünü çıxararıq". Sən də nəfəs almaq üçün, ölməmək üçün, ibadət etmək üçün hüququnu qorumaq istəyəndə, deyirlər ki, "sənə bu da çoxdur". İstədikləri vaxt tuturlar, həbs edirlər, işgəncə verirlər, öldürürlər, istədikləri cinayətləri edirlər.

**Qüds günü təkcə Fələstinlə bağlı bir gün deyil. Qüds günü - müasir dünyada müsəlmanlara üz tutularaq çalınan bir təbildir! Bu təbil deyir:** "Ey, müsəlman! Sən bu məğlubiyyətlərlə hara gedirsən? Bəs bunun sonu nə olacaq? Axı bu gün bu zülm Fələstində varsa, sabah hər yerdə ola bilər..." Necə ki, gözümüzün qabağında artıq baş verməkdədir - Qarabağ, Əfqanıstan, İraq, Kəşmir, Myanma, Bəhreyn, Suriya... Qarabağımızda gör nələr baş verir!?

İstəyirik biləк Qüds nədir, gərək erməni əsirliyində əziyyət çəkən əsirlərimizi, onların nalələrini, itirilmiş torpaqlarımızı yada salaq. Əgər anlamaq istəyiriksə ki, necə oldu Qüds meydana gəldi, gərək gözümüzün qabağında satılan torpaqlarımızı, bu torpaqlarla edilən alverləri xatırlayaq. Elə bütün dünya səviyyəsində müsəlman torpaqları bu durumdadır. Ona görə də, bizim dəqiq bir şüarımız var: Qüds - yəni Qarabağ! Qarabağ - yəni Qüds!

### Səhvləri təkrar edirik

Bəlaların kökü çox sadə məsələlərdən başlayır. Əvvəl toplumun, millətin əqidəsi, milli ideologiyası, onun dini unutdurulur. Bundan sonra toplumun mədəniyyəti əldən gedir. Daha sonra - torpaqları əlindən alınır. Bütün bunlardan sonra isə hər bir şeyi gedir. Biz fələstinlilərin səhvlərini bu gün də davam etdiririk. Fələstinlilər hansı səhvləri buraxıblar, indi biz bunların hamısını təkrar edirik. Hal-hazırda Fələstində olduğu kimi, düşmənlə məğlubiyyət müstəvisində danışmağın mənası yoxdur. Düşmənlə torpaqların bütöv hamısının yox, bir hissəsinin qaytarmasının müzakirəsini etmək - məğlubiyyət deməkdir. Çünki ondan sonra deyiləcək ki, gəlin bu hissəsini yox, başqa bir hissəsini verək. Bir beş-on il də bunun müzakirəsi gedəcək. Sonra deyəcəklər ki, məsələn, gəlin bu balaca hissənin yox, digər bir hissənin yarısını verək. Buna da bir beş il müzakirə lazım olacaq... Misal üçün, 13 faizini nə edək. 8 faizini nə edək...

Bax, Fələstində həmin o məsələdir. O boyda yer işğal olunub, indi 8 faizin və ya 13 faizin söhbəti aparılır. Bəs bu, nə zaman baş verir? Əvvəlcə camaata adət etdirilir ki, məsələn, işğal edilmiş yerin 13 faizi azad edilsə, çox böyük nailiyyət əldə etmiş olacağıq.

Fikir versək, görərik ki, həmin o səhvlər indi Qarabağ məsələsində də buraxılır. Onda çıxış yolu nədir? Çıxış yolu birdir və sadədir. Biz əgər nəzər salsaq bütün dünya xalqlarının tarixinə, görərik ki, ikinci yol heç vaxt olmayıb. Millətin özünün içindən hərəkətverici insanların sayı artmayana qədər, o millətdən millət olmayıb. Nə qonşu gəlib sənin yerinə torpaq azad edəsidir, nə başqa birisi. Millət özü özünə yiyə durmalıdır.

Bir fikir verin, əsrimizin əvvəlindən bu günə qədər dahilərimiz məhv olandan, şəhid olandan sonra bizi sanki bir neçə yerdən iflic vəziyyətinə saldılar. Əvvəla, məscidlərimizi - bizim mənəviyyat passionarlığı yetişdirən yerlərimizi, mənəviyyat fundamentimizi elə kökə saldılar ki, ancaq formal bir ad qaldı. Amma dünyada elə deyil. İnsanların öz hüquqları uğrunda mübarizə apardıqları hər bir yerə nəzər salsaq görərik ki, onların həmişə mənəviyyatlarının dayağına - dinlərinə bağlılığı olub. İstər Qərbdə, istər Şərqdə.

Tarixə nəzər salsaq görərik ki, nəinki Sovet dövründə, hətta daha əvvəl - çar dövründən xalqımızın mənəvi passionarlıq mənbəyi olan məscidlərimizi nə günə salıblar. İslam dinini nəzarətə götürmək üçün hələ çar dövründə yaradılmış qurumlar olub. Sovet rejimi çar dövrünün bütün strukturlarından imtina etdi, amma bu yanaşmadan əl çəkmədi. Bəs nə olur nəticədə? Nəticədə məscid Allah evi olmaq əvəzinə, çevrilib olur başqa şeylər. Və bir millət ki, onun məscidləri azad deyil, bir millət ki, onun azadə möminləri yoxdur, bir millət ki, onun hürr insanları məscidlərə yığılmır - həmin o millətin axırı daha ağır vəziyyətə düşəcək.

### Özünəqayıdış günü

Qüds günü - ayılma günüdür. Qüds günü - müsəlmanların özlərinə qayıtma günüdür. Qüds günü - öz mənliyinə, öz mənəviyyatına, öz milli ideologiyalarına, öz dininə, öz şəxsiyyətinə, öz vücudi durumuna qayıtma günüdür. Ona görə də, bu gün mücərrəd nələrdənsə danışmaqdansa, istər Fələstində, istər Qarabağda, istər daha geniş olaraq ümumən müsəlmanların problemlərinin həlli müstəvisində söhbət açmaq gərəklidir. Müsəlmanlar ayılmalıdırlar. Azad olmalıdırlar. Həqiqi, xalqına bağlı olan ziyalılar yetişməlidir.

Qarabağ da, Fələstin və bütün başqa müsəlman torpaqları kimi bütün müsəlmanlara aid olan torpaqlardır. Və bütün bu torpaqların geri qaytarılması uğrunda şüurlu, məntiqli mübarizə aparmaq bütün müsəlmanlara vacibdir. Bu baxımdan, Qüds günü - Qarabağ günüdür, oyanış günüdür, özümüzə qayıdış günüdür, cılızlıqdan, kiçiklikdən, bölünməkdən, şəxsiyyətsizlikdən, yaltaqlıqdan xilas olma günüdür, insan olma günüdür, kamil insan yetişmə günüdür.

Bu günün mübarək Ramazan ayının sonuncu cümə gününə salınması da təsadüfi deyildir. Yəni, ey Allah qonağı, bu qonaqlığı nəinki bir tək mənəvi oyanışla, həm də ictimai oyanışla tərk etməlisən!

**Allahım, bütün dünya müsəlmanlarını həm bu dünyada və həm də axirətdə həqiqi izzət sahibləri olan Peyğəmbər (s) və onun pak Əhli-Beyti (ə) ilə məhşur et! Amin!**

YENİ MÜSAVAT

Son səhifə

N 124 (7013) 8 iyun 2018



# Kişi ilanın başını kəsdi, kəsilmiş baş kişini sancdı

Amerikanın Teksas ştatının sakinini başını kəsdiyi ilan sancıb. Bu barədə Gizmodo nəşri xəbər verib. Kişi bağında çalışdığı zaman bir metr uzunluğu olan zəhərli ilanı görüb. O, ilanın başını əlindəki bellə kəsib, sonra isə onu həmin ərazidən atmaq istəyib. Amma bu məqamda kəsilmiş ilan başı onu sancıb. Amerikalının həyat yoldaşı onu öz maşınında xəstəxanaya aparmağa cəhd göstərsə də, həmin vaxt kişinin halı pisləşib. Bu səbəbdən təcili tibbi yardım xidmətini çağırıblar. Son nəticədə kişini xəstəxanaya vertolyotla çatdırıblar.

Həkim-travmatoloq Maykl Halpert qeyd edib ki, vaxtında müdaxilə edilməsəydi, zəhərin miqdarı kişini öldürə bilərdi. Hazırda o, pasiyentin durumunu orta stabil olaraq qiymətləndirir. Amma kişinin böyrəkləri indiyə qədər də pis işləyir.

"Bu, klassik bir səhv idi. İnsanlar başa düşmürlər ki, ilanların quruluşu fərqlidir və onlarla individual davranmaq lazımdır", - bunu toksikoloq Lesli Boyer bildirib. O, izah edib ki, ilanın kəsilmiş başı, onun digər bədən orqanları kimi, 12 saat boyunca sürünə və düşmənlərinə hücum edə bilər.

# Qadın hamilə qaldığından xəbər tutdu, amma uşaq dünyaya gələn anda...

İngiltərənin Çeşirə bölgəsində yaşayan bir qadın hamilə olduğunu 9 ay sonra, uşağını dünyaya gətirəndə anlayıb. "Daily Mail" qəzetinin xəbərinə görə, 24 yaşındakı Saşa Hood doğum sancıları çəkməyə başlayanda şoka girib. Çünki Saşa son 9 ay boyunca sistemli olaraq hamiləlikdən qorunma həblərindən istifadə edib və menustrasiya günlərini sistemli olaraq keçirib. Hətta Saşanın qarnında heç şişlik olmayıb. Olayın ən maraqlı cəhəti isə doğuşu Saşanın əri Marj Jepsonun qəbul etməsi və prosesin hamamda baş tutmasıdır. Xəbərdə qeyd olunur ki, Mark adını Teo qoyduğu körpələrinin həyatını da xilas edib. Belə ki, Teo göbək bağı boynuna dolanmış şəkildə dünyaya gəlsə də, atası bu bağı oğlunun boğazından açıb. Həkimlər hazırda körpənin sağlıq durumunun yaxşı olduğunu, hətta onun normalda dörd gün gec dünyaya gəldiyini deyiblər.



# Təqaüdçü evinə girən oğrunu döyüb

**Amerikanın Cənubi Karolina ştatındakı Uninston Seylem şəhərində insult keçirən təqaüdçü oğruya bıçaqla hücum edib. Bu barədə Fox 8 xəbər verib. Səhər saat 5-ə yaxın 68 yaşlı Con Riddi itin hürməsi oyandırıb. Onun evinin kandarında iki kişi dayanmışdı. Kişilərdən biri qapının arxasında idi, digəri isə bıçaq çıxarıb, evə daxil olmuşdu. Sonuncu Ridi divana doğru itələyib, Rid isə yıxılıb. Oğru Ridi bıçaqla təhdid edərək, pul tələb edib.**

Təqaüdçü pulqabını harada saxladığını izah edincə otağa onun həyat yoldaşı girib. O, xanımına otaqdan çıxmasını tapşırıb. Oğrulardan isə onları rahat buraxmasını istəyib. Rid olanları belə danışıb: "Bıçağı olan oğru belə deyirdi: "Arvadını geri çağır, yoxsa o, gedib polisə zəng edəcək. Mənsə dedim ki, onun heç telefonu yoxdur, telefon məndədir".

Pulqabını alan kimi oğrunun fikri pulu saymağa yayınıb. Təqaüdçü bu fürsətdən istifadə edərək, sərt əşya ilə oğrunun çiynindən və boynundan zərbələr endirib. Təqaüdçü oğrunun qorxduğunu görərək, onun qaçıb getməsinə nail olub. Dava zamanı Rid kiçik bıçaq zədəsi alıb. Oğrular gizlənməyə nail olsalar da, hazırda onları polis axtarır.






# Şəhər sakinləri 5 metrlik timsahı öncə yaxaladılar, sonra iplə bağladılar...

Şri Lankanın Akuressa şəhər sakinləri uzunluğu 4.5 metrdən uzun olan timsahı yaxalayıb, onu qalın iplə bağladılar. Bundan sonra isə timsah vəhşi təbiəti qoruma departamentinə təhvil verildi. Baş vermiş hadisənin videoyazısı xəbər portalı olan Hiru Neus xəbər portalının YouTube kanalında nümayiş etdirilir. İki gün ərzində videoroliki 24 min dəfə izləyiblər. Hiru News-un xəbərinə görə, vəhşi heyvanı yerli kənd sakini olan qadın fərq edib və bu barədə kənd sakinlərinə məlumat verib. Timsahın təhvil verildiyi departament əməkdaşları onu yenidən təbiətin qoynuna, amma kənd sakinlərindən mümkün qədər uzağa aparıblar.

# Qoroskop




**QOÇ** - Peşə fəaliyyətinizdə əsaslı dönüş etmək istəyirsinizsə, bu təqvimdən maksimum yararlanın. Hər bir şansdan, hər bir fürsətdən istifadə edin. Öz qərarlarınızda qətiyyətli olun.

**BUĞA** - İş yerində, həmkar və rəhbərlərinizlə mübahisələriniz ola bilər. Bunun qarşısını almaq üçün ən xırda konfliktlərə belə getməməlisiniz. Səhhətinizin qayğısına qalın, iştahlı olun.

**ƏKİZLƏR** - Həlledici məqamlarda təcrübəli adamlarla məsləhətləşməməyiniz yalnız zərərinizədir. Xarakterinizdə olan bu xüsusiyyəti aradan götürün. İndi lovğalıq və özündənrazılıq predmetləri keçmir.

**XƏRÇƏNG** - Daxili gərginliyiniz nəzərdə tutduğunuz başlıca planların icrasını ləngidir. Çalışın ki, bəd fikirlərdən uzaqlaşıb təbiət qoynundan enerji alasınız. Ziyarətgaha da getmək olar.

**ŞİR** - Maliyyə imkanlarınızın aşağı səviyyədə olmasına baxmayaraq iştirakçısı olduğunuz proseslər ovqatınızı yüksəldəcək. Əlalxüsus da sevgi münasibətlərində hər şey ürəyinizcə olacaq.

**QIZ** - Yaxşı olar ki, ixtiyarınızda olan bu günü bütünlüklə əyləncə və istirahətə həsr edəsiniz. Sevgi amilini daha çox qabardın. Axşam gözləmədiyiniz istiqamətdən sürprizlərlə rastlaşa bilərsiniz.

**TƏRƏZİ** - Astroloji göstəricilər yeni əlaqələrə başlamaq üçün canfəşanlıq göstərməyinizi məsləhət görür. Nahardan sonra isə şəxsi büdcənizdə irəliləyişlər gözlənilir. Uzaq yola çıxmayın.

**ƏQRƏB** - Son günlər çox əsəbi olmusunuz. Səhhətinizin passivliyi də məhz bu səbəbdən irəli gəlir. Lakin özünüzü qorumaqla bir neçə uğura yiyələnə bilərsiniz: məsələn, yeni işlə bağlı.

**OXATAN** - Yalnız ailə-sevgi münasibətlərində uğurlu anlarla rastlaşa bilərsiniz. Qalan məsələlərdə, əlalxüsus da işgüzar sövdələşmələrdə isə vəziyyət o qədər də səmərəli olmayacaq.

**OĞLAQ** - İş üslubunda köklü dəyişikliklər etmək fikriniz olsa da, tərəddüdləriniz sizə mane olur. Amma ulduzlar əsl məqamın məhz indi yetişdiyini bildirir. Yersiz riskdən uzaq olun.

**SUTÖKƏN** - Səhər saatlarında azacıq gərginlik olsa da, ümumən uğurlu bir gün yaşayacaqsınız. Hər addımda xoş ovqat qazanmaq üçün qarşılıqlı münasibətlərdə mülayim davranın. Pul məsələlərində ehtiyatlı olun.

**BALIQLAR** - Bəxtinizdə sürprizlə dolu bir təqvim durur. Odur ki, bədbin fikirləri başınızdan çıxarın. Qara pişikdən, tək səbirdən qorxmayın. Özünüzü kamil insan kimi aparın ki, uğurlarınız artsın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Çox yaşamaq istəyənlər... tez-tez ac qalırlar



Alimlər ayrı-ayrı araşdırmalar çərçivəsində insan həyatını uzatmaqla bağlı nəticələrə gəlib. Bunlar "Ömrü uzatmağın 10 yolu" adı altında toplanıb. Sözügedən yollardan biri insanın tez-tez ac qalmasıdır. Dünyanın ən uzun yaşayan insanlarının yaşadığı Okinavada xalq tam doymadan yeməkdən əlini çəkir. İkinci yol dil öyrənməkdir. Dil öyrənmək daha çox insanla ünsiyyət və müsbət enerji qazanmaq anlamına gəlir. Dağlarda yaşamaq, genetik müalicə, varlanmaq, bir inanca sahib olmaq, çox işləyib stressə girmək, dərmandan düzgün istifadə, orqan transplantasiyası, dünyada yaxşı işlər görmək də çox yaşamağın qaydaları sırasındadır.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.100

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.